**Vaqif İSAQOĞLU**

# ZAUR USTACIN POETİK DÜNYASI

*(monoqrafiya)*

**Bakı - 2025**

**Redaktor: Tural Cəfərli**
*Yazıçı, şair,*
*Prezident mükafatçısı*

***Vaqif İsaqoğlu***
***«Zaur Ustacın poetik dünyası»***
***Bakı, «İMZA» nəşrlər evi, 2025,  192 səh.***

**İSBN 978-9952-37-440-1**

**©Vaqif İsaqoğlu, 2025**

Vaqif İsaqoğlunun «Zaur Ustacın poetik dünyası» monoqrafiyasında müasir Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən biri olan istedadlı şair Zaur Ustacın zəngin və çoxcəhətli yaradıcılığından, onun söz dünyasının poetik özünəməxsusluğundan söhbət açılır.

İnanırıq ki, Vaqif İsaqoğlunun bu monoqrafiyası da Zaursevərlər tərəfindən maraqla qarşılanacaq, ədəbiyyat şünasların, ədəbi tənqidçilərin, eləcə də poeziya sevərlərin diqqətindən kənarda qalmayacaq, ədəbiyyatşünaslıq elminə bir töhfə kimi qiymətləndiriləcək.

Bu monoqrafiyanı müasir Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən biri kimi oxucular tərəfindən sevilən, şeirlərilə ürəkləri ovsunlayan, yazıçı, şair, tərcüməçi və publisist, dəyərli ziyalı Zaur Ustacın 50 yaşına hədiyyə edirəm.

Qoy bu tədqiqat əsəri 50 yaşın təntənəsini yaşayan, qələmilə xalqa, Vətənə və dövlətçiliyə xidmət edən, ürəyi millət sevgisiylə, Vətən eşqilə döyünən, Birinci Qarabağ müharibəsində Vətən uğrunda qələmi və silahı ilə döyüşən, müharibə veteranı, qələm dostum Zaur Ustacın 50 illik yubileyinə bir şirinlik olsun.

100 yaşa, Zaur Ustac!

Tanrı Sizi qorusun!

**Vaqif İsaqoğlu**

*Ön söz əvəzi*

## SÖZÜN ZAUR USTAC ZİRVƏSİ

Müasir Azərbaycan ədəbiyyatında özünə layiqli yer tutan, ədəbiyyatın ədəbi dünyasına daxil olan, öz yaradıcılıq üslubu, yazı manerası ilə seçilən şairlərdən biri də Zaur Ustacdır. O, həm şair, həm yazıçı-publisist, həm də tərcüməçi kimi vətənə, millətə ləyaqətlə, şərəflə xidmət edir, xalqa fayda verən əsərlərilə könül dünyamızı təravətləndirir, ürəyə sevinc, xoş ovqat gətirir.

Ürəklərə sevincini və səmimiyyətini paylayan şair şərəfli bir yaradıcılıq yolu keçib və bu yolda inamla addımlayır.

Zaurun hər şeirində, poemasında, hekayəsində…şair, yazıçı ömrünün işıq payı var. Bu işıqdan hamıya pay düşür və elin ruhundan güc alan şairin vətən sevgisindən, xalq sevgisindən «yoğrulan» kitablarını sevə-sevə oxuyurlar…

Mən də Zaur Ustacın lirik şeirlərini, poemalarını oxudum və onun könül sarayına səfər elədim. Bu «səfərimdə» Zaurun ağappaq işıq selinə bürünmüş poetik dünyası ilə tanış oldum, bu tanışlıqdan məmnun qaldım və incə zövqlü, cazibədar sözlü şairin poetik dünyasından söz açmaq fürsəti qazandım.

Ustacın yaradıcılıq üslubu, həyata baxışı, ictimai-siyasi dünyagörüşü məni az da olsa heyrətləndirdi. Onun həm də düşüncə, duyğu adamı olduğunu anladım və ürəyimdən keçənləri, beynimdə baş qaldıran fikirləri… qələmə almasaydım, mənən rahatlıq tapmayacağımı hiss elədim. Bu hissiyyat məni çəkib əlimə qələm almağa sövq elədi və mən də yazı masamın arxasında əyləşib başladım yazmağa.

Məni yazmağa vadar edən, həm də Vətən, millət sevgisiylə, eşq atəşilə alovlanan şairin şeirlərinə düşən qığılcım və bu qığılcımdan doğma alov səbəb oldu. Yazmasaydım, bu alov

məni yandıracaqdı. Bu yanğını isə su ilə yox, ancaq qələmlə söndürə bilərdim.

İstəkli oxucu! Onu da deməyi özümə borc bilirəm ki, bir-birindən maraqlı, dəyərli və oxunaqlı kitabları ilə poeziyasevərlərin ürəyinə yol açan Zaur Ustac imzasını ədəbi ictimaiyyətdə çoxdan təsdiqləmiş, ruhunu poeziyaya kökləmiş isğedadlı bir şair kimi tanınmış, əsərləri bədii-estetik xüsusiyyətləri baxımından diqqəti daha çox cəlb etmişdir.

Müasir Azərbaycan poeziyasında özünəməxsus yeri və xidmətləri olan şairin üç cildlik «Seçilmiş əsərlər»ini maraqla oxudum, yaradıcılıq fəaliyyətini diqqətlə öyrəndim, fikir və düşüncələrimi ürəyimin süzgəcindən keçirərək bitkin bir monoqrafik araşdırma aparmaq istədim. İstəyimə necə nail olduğumu bilmirəm. Ancaq onu bilirəm ki, hiss və duyğularını, yaşantılarını, müşahidələrini, sevincini, kədərini…bədii təfəkkürün süzgəcindən keçirərək şeirlərə çevirən Zaur Ustacın yaradıcılıq yolundan söz açmaq, sənət aləminin əsas yönlərini lazımınca işıqlandırmaq üçün onun şeir dünyasının qapılarını açmaq istədim. Bacara bildimmi? Bunu da deyə bilmərəm.

İstedadlı bir şairin əsərlərini ideya-bədii təhlil prizmasından araşdıraraq, onların sənətkarlıq məziy-yətləri, zəngin obrazlar aləmi, üslub özəllikləri və s. barədə məlumat verərək, şairin səmərəli şeir fəaliyyətinin tədqiqinə çalışmışam.

Olduqca məhsuldar və işıqlı bir yaradıcılıq yolu keçən Zaur Ustacın poeziyası düşündürücü poeziyadır. Şeirləri Azərbaycan poeziyasında öz üslubu, öz izi və öz dəsti-xətti ilə seçilir; onun şairlik istedadı, yazdığı şeirlər, bayatılar, sonetlər, dördlüklər, poemalar, eləcə də uşaq şeirləri imkan verir ki, o, ədəbiyyatın ədəbi dünyasında öz layiqli yerini tuta bilsin.

***

Zaurun yaradıcılığında maraq doğuran bir cəhət isə onun ideya-mövzularının rəngarəngliyi və mükəm-məliyidir. O, hansı mövzudan yazırsa yazsın, aydın və dəqiq ideya-estetik mövqe nümayiş etdirir. Əsərləri həm məzmun-mündəricəsinə, həm də poetik xüsusiyyətlərinə görə kifayət qədər maraqlı və dəyərlidir.

İnamla demək olar ki, o, həqiqətən günümüzün «sözə ehya verən» (M. Füzuli) şairlərindən biri olmaqla yanaşı, həm də duyduğu, hiss etdiyi, bildiyi aləmdən yazır, dəbdəbəli sözlərə, təmtəraqa uymur, ardıcıl və mənalı, düşündürücü şeirlər yazır. Onun poetik yaradıcılığında soyuq mühakiməçilik, anlaşılmaz fəlsəfəçilik, qafiyəçilik… elementləri yoxdur, poetik fikrin qəlb yaxınlığı, ürək doğmalığı var. Bu duyğular oxucuya anındaca təsir edir, şeirlərindəki həzin - kövrək və poetik misralar ruhu tərpədir.

Onun zəngin yaradıcılığı ilə tanış olduqca, söz sarayını ziyarət etdikcə düşünürdüm ki, o, istedadlı və ilhamlı bir şair kimi, ancaq gözəl şeirlər yaza bilər. Həm də onun bir üstünlüyünü hiss elədim. Bu üstünlük ondadır ki, o, Şərq təfəkkürü ilə Qərb poetik yanaşmanı birləşdirir, emosional və rasional düşünür, «dünya», «insan», «ölüm», «tale», «sevgi», «qəm-kədər»… subyektlərinə özünəməxsus tərzdə yanaşır və qəbul edilir.

Şairin bəşəri duyğuları vəsf edən şeirləri insanlarda ruh yüksəkliyi və gələcəyə böyük inam doğurur. Onun qəm dolu şeirlərində də bir işıq var. Bu işıq əslində bir damla nurdu. Məhz onun poetik dünyasında görünən bir damla nur şairin söz dünyasının poetik özünəməxsusluğunun, şeirlərinin «ölməzliyinin», Azərbaycan ədəbiyyatında əbədi yaşayacağının göstəricisidir. Onun həm lirik, həm də epik poeziya sahəsində fəaliyyəti maraqlı ədəbi hadisələrlə zəngindir.

Ustacın əsərləri poetik bir özünəməxsusluğu, yüksək sənətkarlıq məziyyətlərilə diqqətdən yayınmır. Şeirlərində özünəməxsus poetik üslub, dəst-xətt nümayiş etdirən şairin yaradıcılığı öz aktuallığı ilə seçilir, əsərləri təkcə estetik zövq mənbəyi olub qalmır, həm də bu günümüzdür, çağdaş dünyamızın bədii salnaməsi kimi ədəbiyyat tarixində yaşamaq hüququ qazanıb.

Mən deyərdim ki, Zaur Ustacın yaradıcılığının mərkəzində vətənə, təbiətə, uşaqlara, sevdiyi gözələ ülvi bir məhəbbət, böyük bir sevgi dayanıb. Ülvi məhəbbətdən yoğrulan Zaur Ustac poeziyası bu məhəbbəti, sevgini gələcək nəsillərə də aşılamaq gücünə malikdir.

Onun şeirlərinin ruhunda və fəlsəfəsində Dünya ilə həyat arasında bir vəhdət, ünsiyyət mövcuddur. Ümumbəşəri məsələlərə poetik bəsirət nəzərilə yanaşan istedadlı şairin poeziyasına dərindən ekskurs edə bilmədim, düzünü desəm, buna qələmimin gücü çatmadı. Mən, ancaq dəryadan bir damla götürə bildim. Elə bu bir damladan da Zaur yaradıcılığının zənginliyini bilmək mümkündür. Onun əsərlərini oxuyan hər kəs şairin ədəbi-estetik duyumuna, sənət zövqünə heyranlığını gizlədə bilmir. Çünki o, əsl ədəbiyyatı, sənəti bütün ruhuyla duyan, yaşayan bir qələm adamıdır və bir qələm adamı kimi də sözlərin, misraların düzümündə ürəyinin səsini çox rahatlıqla ifadə edə bilir. Mən onun şeirlərində bir nüansı da - fakta bağlılığı və məntiqi səlisliyi qeyd etmək istəyirəm. Bu keyfiyyətlər onun həyat təcrübəsindən, dərin müşahidə qabiliyyətindən, həm də bir çox elmlərə bələd olmasından irəli gəlir.

Zaur Ustac milli-mənəvi dəyərlərimizə, mədəniyyətimizə, tarixi problemlərimizə, vətənin taleyinə həssas münasibət bəsləyən şairlərdən biri olmaqla yanaşı, həm də ürəyi yurd sevgisi ilə döyünən, qəlbində milli təəssübkeşlik

duyğuları yaşadan Azərbaycan oğludur.

Ömrün günlərini şeirlərində əbədiləşdirən, ürəyinin diqtəsilə yazan, heç kəsi təqlid etməyən, heç kimin yoluyla getməyən, bir-birindən dəyərli kitablarıyla imzasını təsdiq edən şairin şei rvə poemalarına həm ədəbiyyatın, həm də əbədiyyətin tarixinə yazılacağına inanıram. Bu inamı məndə onun şeirləri yaratdı. Şairin zəngin yaradıcılığında milli yanğı, gələcəyə söykənmiş düşüncə, xalqa, millətə, vətənə… xidmət edən şeirlər gördüm. Həm də gördüm ki, o, sadə və gözəl yazır, səmimi, rəngsiz - boyasız yazır, hisslərini, duyğularını şeirlərinə ilmələr kimi hörə bilir.

Zaurun şeirlərini oxuyanda mühüm poetik mətləblərlə üzləşdim; «sevinc və kədər», «ayrılıq və həsrət», «işıq və zülmət», «olum və ya ölüm», «inam və pessimizm» - bir-birini inkar edən, həm də tamamlayan motivlər… bu atributlar şeirdə olduqca vacibdir. Bunlar olmasa şeir yaddaşa hopmaz, təsir bağışlamaz, quru və sxematik alınar. Ona görə də onun poeziyasında, üslubunda başqa şairlərə bənzəməyən həzinlik, kövrəklik, nigaranlıq duyulur və şeirlərinin ilhamın diqtəsilə yazıldığı hiss olunur.

Və ən nəhayət, onu demək istəyirəm ki, monoqrafiyanın yazılmasında əsas məqsədim Zaur Ustacın yaradıcılıq yolunu tədqiq etmək və onun söz-sənət dünyasının poetik özünəməxsusluğunu üzə çıxarmaq olub. Məqsədimə çata bildimmi? Məqsədimə çatmaq üçün şairin lirikasında insan, təbiət və sevgi mövzularından, eləcə də, uşaq dünyasından yazdığı şeirlərdən, bayatı və dördlüklərindən, sonet çələngindən…söz açmaq istədim. Həm də istədim ki, onun lirikasının tematika zənginliyini və başlıca poetik xüsusiyyətlərini müəyyənləşdirim. Müəyyənləşdirə bildimmi? Bunu da deyə bilmərəm. Ancaq onu deyə bilərəm ki, «Zaur Ustacın poetik dünyası» monoqrafiyasında onun

yaradıcılığını ilk dəfə sistemli şəkildə təhlil obyektinə çevirdim, poetik yaradıcılığının bəzi cəhətlərindən söz açdım. Bu tədqiqat işində sırf bədii - estetik dəyərləndirmə meyarları ilə yanaşdım, milli-mənəvi konteksdə diqqət yetirdim, yaradıcılığından imkanım daxilində söhbət açmağa çalışdım, həm də onun nədən yazdığına, kim üçün yazdığına aydınlıq gətirməklə, ədəbi fəaliyyətini müəyyən aspektlərdə təhlil etmək istədim. Elə bu məqsədlə də bu tədqiqat əsərini qələmə aldım.

Düşünürəm ki, «Zaur Ustacın poetik dünyası» monoqrafiyası onun yaradıcılığının öyrənilməsində, eləcə də gələcəkdə daha sanballı tədqiqat əsərlərinin yazılması baxımından mühüm rol oynayacaqdır.

**Müəllif**

## ŞEİR - ÜRƏYİN SƏSİDİR

Zaur Ustac müasir Azərbaycan poeziyasının tanınmış nümayəndələrindən biridir. O, bir şair kimi imzasını imzalar içində təsdiqləyən, ruha sığal çəkən şeirlərilə təkcə poeziya sevərlərin deyil, həm də ədəbi tənqidçilərin, ədəbiyyatşünasların diqqətini çəkən söz adamıdır və bir şair kimi sözləri şeirə, şeiri də poeziyaya çevirməyi, havada uçuşan səsləri eşitməyi bacarır.

O, söz adamıdı.

O, İşıqlı Adamdı, işıq Adamdı. Qələmilə Azərbaycan ədəbiyyatına, həm də vətənə, millətə xidmət edən halal söz adamıdı. Şeirləri halallıqla «yoğrulur». Heç kimin yoluyla getmir, heç kimi təqlid etmir, ancaq öz ruhunu, hiss və həyəcanlarını, fikir və düşüncələrini qələmə alır.

Zaur yaza-yaza ağrını da, sevinci də poeziyaya çevirən şairdi. Onun yazdığı şeirlərin işığında Həcc ziyarətinə getmək olar.

Söz şairin içindən keçib onun ürəyini silkələyir və bu zaman söz səsə çevrilir. Zaur da ürəyindən gələn səsləri qələmə alır, daha doğrusu hər misranı, hər sözü ona ürəyi diqtə eləyir. O, ürəyinin səsini eşidir və ürəyinin diqtəsilə bir-birindən maraqlı, bir-birindən oxunaqlı şeirlər yazır və yazdıqları ürəklərə yol tapır, əbədi yaşamaq hüququ qazanır.

O, sözlə nəfəs aldır. O, həm də sözə nəfəs verir. Söz onun nəfəsilə canlanır və onun şeirlərində sözün çəkisini, rəngini görürük, sözün məna tutumunu, sözləprdən «boylanan» fikirləri, sözlərdə «gizlənən» duyğuları hiss edirik. Onu da hiss edirik ki, şairlə dərd bir-birinə doğmadır. Bu doğmalıqda bir sevinc duyğuları da var. dərd və sevinc onun şeirlərində birgə yaşayır, birgə addımlayır.

Zaur Ustac dərdi də sevinc kimi qarşılayır. O, dərddən qaçmır, əksinə, dərdi ürəyinə çəkir, çünki bu adi dərd deyil,

bu, millət dərdidir, Vətən dərdidir. Məhz ona görə də dərd onun ürəyinə asanlıqla yol tapa bilir və başlayır böyüməyə, boy atmağa.

Dərd hər ürəyə düşmür, hər ürəkdə bitmir. Soyuq ürəkdə, vətən eşqilə, millət sevgisilə döyünməyən ürəkdə dərd nə gəzir?!

Onun şair ürəyi günəş kimi alovludur, Ay kimi işıqlıdır. Bu istilik, bu işıq olmasaydı onun ürəyində Vətən dərdi cücərərdimi? Əlbəttə, yox.

Soyuq ürəkdə, duyğusuz ürəkdə söz də yaşaya bilməz. Sözün də yetişməsi, oxucu ürəyinə yol tapması üçün, oxucu qəlbini duyğulandırması üçün münbit şərait lazımdır.

Söz həm dərddən, həm sevincdən, həm də qəlbə toxunan hər hansı bir təsirdən doğulur. Ürəkdə doğulmayan söz şeirə çevrilə bilməz. Şeirə çevrilsə də, o şeir poeziya olmur, adi söz yığnağına çevrilir.

Ərz elədiyim kimi, Zaur söz adamıdırr və bir söz adamı olaraq yaxşı bilir ki, şair adının yükü çox ağırdı. O, əgər bu yükü daşıya bilməsəydi, bu ağır yükün altına girməyə ürək eləməzdi. O, özünə inandığı kimi, sözünə də inanır. Elə bu inamla qələmdən dördəlli yapışıb çox rahatlıqla ədəbiyyatın ədəbi dünyasına daxil olub və bu gün tanınmış şairlər sırasında onun da özünəməxsus yeri var və onun yerini ədəbiyyat dünyasında asanlıqla tapmaq mümkündür.

Haqqın yolunu tutub mənəvi saflığa doğru yol gedən Zaur Ustac poeziya aləmində yeni cığırdaşlardan biri olmaqla sözün keşiyində müsəlləh əsgər kimi dayanan şairdi, sözü ürəyində «bişirməmiş» şeirə gətirməyən şairdi.

O, həm də sözə haram qatmayan şairdi. Çünki o, sözünü çörəkdən asılı etməyən qələm adamıdı. O, sözün ağasıdır, sözün «qulu» deyil. O, nə yazım, necə yazım ki, pula getsin təfəkküründən çox-çox uzaqdır. Sözün ağası olduğu üçün

söz meydanından bir an da uzaqlaşmayıb, uzaqlaşmayacaq da. Mən buna inanıram. Bu inamı ürəyimdə onun bulaq suyu kimi duru, gün işığı kimi təmiz və saf şeirləri oyadıb.

Zaur Ustac bir çox şairlərdən, söz adamlarından fərqli olaraq heç kimin qarşısında gözükölgəli deyil. O, heç şeirləri qarşısında da gözükölgəli deyil. Çünki o, ürəyinin diqtəsilə yazır, Tanrının pıçıltılarını qələmə alır. Məhz ona görə də onun şeirlərində yerində olmayan bir sözə, təsadüfi bir misraya rast gəlmədim. Onun həm üzündən, həm də sözündən Vətən sevgisinin, Vətən eşqinin sakit işığının yandığını gördüm. Onu da gördüm ki, bir çox şair və yazıçıların Azərbaycan xalqının üz qarasına çevrildiyi halda, o, Azərbaycan xalqına başucalığına çevrilən şairdir, xalqın şairidir.

Zaur Ustac qələmini ürəyinə batırıb yazan, ürəkdən gəlməyən bir sözü də qələmə almayan şairdir və bir şair olaraq insan qəlbinin və ruhunun bütün incəliklərinə bələddir. Belə olmasaydı, şeirləri ruhumuza sığal çəkərdimi, ruhumuza mənəvi qida verə bilərdimi, könlümüzü oxşaya bilərdimi?

Zaurun ürəyi sözlə doludur. Dünya həm də ürəyi sözlə dolu şairlərə möhtacdı. Dünya həm də Allahın sevdiyi şairlərin çiyinlərində durur. Dünyanı dağılmağa qoymayan da işıqlı adamlardı, İşıq adamlardı, Zaur Ustac kimi şairlərdi, şeytanı heyrətləndirə biləcək addımlar atmayan şairlərdi.

O, Tanrı divanəsidi. Aristotel şairləri «Tanrı divanəsi» adlandırıb. Hər şair «Tanrı divanəsi» ola bilməz. Allah «Tanrı divanəsi» olan şairlərin şeirlərində «dincəlir». Tanrı ölümsüz olduğu kimi, poeziya da ölümsüzdür. Bu da onu bir daha təsdiqləyir ki, dünyada söz qalacaq, söz yaşayacaq. Dünya yaranandan ilkin söz olub, sonra da söz olacaq. Məhz buna görə də dünyada söz adamı olmaqdan böyük xoşbəxtlik varmı

görəsən? Bu mənada Zaur da xoşbəxtdir, həm də xoşbəxt taleli adamdı. Çünki onun taleyinə şairlik qisməti düşüb. Şairlik də bir missiyadı. Bu missiyanı şərəflə yerinə yetirən Zaur Ustacın bir vəzifəsi də böyük Amerika yazıçısı Uilyam Folknerin dediyi kimi «insan qəlbini möhkəmləndirmək, bəşəriyyətin əbədi şöhrətini təşkil edən kişilik, şərəf, ümid, qürur, fədakarlıq kimi keyfiyyətləri insana xatırlatmaqla ona hər şeyə axıracan dözə, duruş gətirə bilməkdə kömək etməkdir».

Zaurun özünü sözünün işığında daha yaxşı görmək mümkündür. Şairi şeirlərinin işığında gördüm, şeirlərinin bədii tutumunda, məna dəyərində, insanı düşünməyə vadar edən fəlsəfəsində onu dərk elədim. Şeirlərini ruhumda göyərdiyini duydum.

***Ustac deyər, hardan gələr bilinməz,***
***Ha deyilə, yeri dolar, bilinməz.***
***Gülər gözdən qəm süzülər, bilinməz,***
***Eldən-elə gəzdirənə min şükür!***

**«Min şükür»**

Onu da duydum ki, insan zaman-zaman ruhunu bu kimi şeirlərlə təchiz etməsə, ruhu «quruya» bilər. Ruhumuzun «qurumaması» üçün Zaur Ustacın şeirlərini də oxumaq, həm də oxuya-oxuya duymaq gərəkdir.

Şeir - ürəyin səsidir. Şeir - Tanrı pıçıltısıdır. Bu pıçıltını eşitməsən, bu səsi dinləyə bilməsən, şeiri duya bilməzsən. Şeiri duymaq - Tanrını duymaq deməkdir. Tanrını duymasan, yaşadığın həyatı da duya bilməzsən. Həyatı duymasan ömrün mənasını da, nəyə görə yaşadığını da duymaqda aciz qalarsan.

Zaur Ustacın şeirlərində sözün də ünvanı olduğunu bir daha anladım. Onu da anladım ki, şairin şeirlərini oxumaqla həyatı da duymaq olar, nəyə görə yaşadığını da… Çünki onun şeirləri poetik vicdanın səsidir, hər biri ədəbiyyat nümunələridir. Bu ədəbiyyat nümunələrinin hər birində fikir var, düşüncə var, olum və ölüm var, sevinc və kədər var, ən əsası isə həyatın özü var, necə deyərlər, həyat dərsləri var. Bu həyat dərslərini oxuduqca Zaurun odlu ürəyindən qopan misraların kökündə millilik, türkçülük, vətənpərvərlik… dayandığını gördüm. Şairin şeirlərində sünilik hiss eləmədim. Sünilik yamaq kimidir, tikişləri gözümdən yayınmazdı.

Şair şeirlərində xalqımızın hiss-həyəcanlarını ifadə etməklə yanaşı, təbiətə vurğunluğunu, payızda da, qışda da ürəyində yaz sevdası olduğunu qabarıq şəkildə açıb göstərir.

***Bu payız bir başqa gəlir ömrümə,***
***Güzün gümanında yaz sevdası var.***
***Xəzana bürünüb bütün bağ, bağça,***
***Güzün gümanında yaz sevdası var.***

***Bu xəzan yelimi, ya bahar mehi,***
***Bivaxt tumurçuqda tər zəfər zehi.***
***Qızılı yarpaqda zər qəhər şehi,***
***Güzün gümanında yaz sevdası var.***

Zaur Ustac ömrünü söz uğrunda girov qoyan şairlərdən biridir. Duyğu və düşüncələri ilə, yuxusuz gecələri, narahat anları ilə ömrünü söz uğrunda gilə-gilə əridən şairin zəngin yaradıcılığını təhlil etməzdən öncə bir daha demək istəyirəm ki, o, həm bir şair kimi, həm də əsl insan kimi səmimi olmağı bacaran ziyalıdır. Bu səmimilik onun şeirlərində gün işığı kimi görünür. Şair səmimi olmasaydı, səmimi şeirlər də yaza bilməzdi. O, həm də səmimi insan olduğuna görə dəyərlidir.

Dəyərli olduğuna görə də dəyərli şeirlər yazır.

O, həm də böyük ürək sahibidir. Onun fikir və düşüncələrindən süzülüb gələn milli ləyaqət, vətənə sədaqət, xalqa məhəbbət, yurda bağlılıq, torpağa məhəbbət, millət təəssübkeşliyi kimi hisslər şairin böyüklüyündən, əsl ziyalı olmasından, əsl Azərbaycan vətəndaşı olmasından xəbər verir. Mən bu qənaətə onun mənəvi dünyası ilə, zəngin yaradıcılığı ilə tanış olandan sonra gəldim. İnanıram ki, bu həqiqətlə oxucular da şairin yaradıcılığı haqda, mənəvi dünyası haqda yazdıqlarımın şahidi olacaqlar… Onun da şahidi olacaqlar ki, vətənpərvər şairin yaradıcılığı ilə şəxsiyyəti arasında bir uyğunluq var. sözü ilə şəxsiyyəti üst-üstə düşən saf və təmiz qəlbli şairin ürəkdən və ürəklə yazan şairin, əsl vətən şairinin bir-birindən maraqlı və oxunaqlı şeirləri ədəbiyyatımızda özünəlayiq yer tutur.

Mövzu palitrası daha əlvan, daha rəngarəng olan şair öz qəlbi, ruhuyla oxucunu başqa bir aləmdə gəzib-dolaşdırır. Şeirləri bizi sirli-sehrli bir aləmə çağırır. Bu sirli-sehrli aləm yaşadığımız aləmdən çox-çox fərqlidir. Bu fərqi mən də gördüm. Şair iç dünyama nüfuz etməyi bacarmasaydı, bu sirli-sehrli aləmi görə bilməzdim. Gördüm və məmnun qaldım.

Bu sirli-sehrli aləmdə ilk gördüyüm Zaur Ustacın Vətən sevgisi, yurd sevgisi oldu, vətənpərvərliyi oldu. Vətən sevdalısı olan şairin Vətən məhəbbəti ruhumu gözqamaşdırıcı işığa bələdi. Və mən bu işıqda Zaur Ustacı Qarabağda gördüm, Ağdamın Yusifcanlı kəndində gördüm, o taylı bu taylı Azərbaycanda gördüm, ürəyinin şeirlərində çırpındığını gördüm. Onu da gördüm ki, şair üçün dünya beşikdən də dardır, o, «darlıqda» sıxılır, həsrətdə, intizarda qalıb, ağlına gəlməyənlər, başına gəlib. «Od» şeirində şair bu məqama xüsusi diqqət çəkir:

*Nə edim zamanın gərdişi belə,*
*«Ağlıma gəlməyən başıma gəldi».*
*Nə, bir cavanlıq gördüm dünyada,*
*Nə də bu gənclikdə bir üzüm güldü.*

*Ağzımı açıram qəm, kədər qopur,*
*Dilimdə ya nisgil, ya həsrət donur.*
*İnizar nəğməsi ruhuma hopur,*
*Ayrılıqda ötən il ağuşunda.*

*Bir şirin kəlmənə ehtiyacım var,*
*Dünya mənim üçün beşikdən də dar.*
*Nədən bənövşələrtək açıb, solar,*
*Sən orda həsrətdə, mən intizarda…*

## ZAUR USTACIN VƏTƏN EŞQİ, TƏBİƏT SEVGİSİ…

Söz dünyası bitib-tükənməyən bir xəzinədir. Bu xəzinədə - bu söz dünyasında Zaur Ustacın da özünəməxsus yeri, özünəməxsus çəkisi var.

O, söz incilərini ipə-sapa elə düzür ki, qələmə aldığı hər misrada yerində olmayan bir sözə də rast gəlmək mümkün deyil. Eşqlə «yoğrulan» bu misralarda şairin Vətən eşqilə, təbiət sevgisilə, ana məhəbbətilə döyünən ürəyinin səsini eşitmək o qədər də çətin deyil.

Şairin ürəyində Vətən eşqi dünyaya göz açdığı Ağdamın Yusifcanlı kəndindən - ata ocağında ilk kövrək addımlarını atdığı gündən baş qaldırıb. Sonra bu eşqi daha da böyüyüb Qarabağı əhatə eləyib və aylar, illər keçdikcə bu Vətən eşqi, təbiət sevgisi bütöv Azərbaycanı əhatə eləyib.

Vətən eşqindən, ana məhəbbətindən daha müqəddəs bir eşq varmı görəsən? Deyə bilmərəm. Ancaq onu deyə bilərəm ki, Zaurun Vətən eşqi şeirlərində, publisistik yazılarında öz əksini tapıb və qələmə aldığı hər bir şeir də, məqalə də, hekayə də onun yurd sevgisinin, Vətən eşqinin tərənnümüdür.

Şairin vəsf etdiyi gözəldə də, adi bir çiçəkdə də, anaya ünvanladığı şeirdə də Vətən eşqini hiss etmək mümkündür.

Şairin Vətən eşqi elə vətənin özü boydadır. Bu eşq şairin ürəyində bulaq kimi qaynayır. Onun vətən duyğulu, təbiət qoxulu şeirlərini oxuduqca bu vətən eşqinin, təbiət sevgisinin onun ürəyinə, könlünə necə sığışdığına təəccüb edirdim. Sonra da düşünürdüm ki, axı burada təəccüblü nə var ki? Vətən eşqi aldığımız nəfəsdir, udduğumuz havadır. Udduğumuz hava, aldığımız nəfəs ciyərlərimizə necə sığışırsa, Vətən eşqi də ürəyə elə sığışır.

Vətən torpağının özü də bir eşq qoxuyur. Açan hər çiçəkdən, hər güldən vətənin ətri gəlir.

Vətən eşqi şəhid qanı ilə yoğrulmuş hər qarış torpaqdadır, saralan sünbüldədir, meşədədir, bulaqdadır, quşların nəğməsindədir, axan çaydadır, ləpələnən göldədir, başı qarlı dağlardadır. Saralan yarpaqda da, qara daşda da, quru çöpdə də vətən eşqi var!

Körpələrin qığıltısında, anaların laylasında, nənələrin söylədikləri bayatılarda da vətən eşqi var.

Vətən ona görə müqəddəsdir ki, ürəyimizdə ona qarşı ülvi bir eşq var: Bu eşqi ürəyimizdən heç bir qüvvə çəkib çıxarda bilməz. Ürəyimizdə vətən eşqi olmasaydı, vətən də olmazdı.

Vətənə olan sevgi Zaurun şeirlərində də «boy göstərir». Fikrimizin təsdiqi kimi «Vallah kəhrizdən ayıbdı» şeirindən bu misralara nəzər salaq:

***Əlimdə qayçı, dəryaz,***
***Toz-torpaq uda-uda,***
***İstəyirəm mən dönəm,***
***Nisgilli, dərdli Yurda.***

Şair Vətənə olan eşqini, məhəbbətini daha çox təbiət şeirlərində qələmə alıb. Diqqətli oxucu şairin «Ağçiçəyim», «Şehçiçəyim», «Bənövşə», «Yulğun» və başqa şeirlərində təbiətin özünü, gözəlliyini, füsunkarlığını görə bilir.

Təbiət elə Vətən deməkdir. Təbiətlə vətəni bir-birindən ayırmaq mümkün deyil. Təbiəti qorumaq, vətəni qorumaq deməkdir. Vətəni sevməyən təbiəti də sevə bilməz. Vaxtsız solmuş bir çiçəyin də, budağı qırılmış bir ağacın da, quruyub çat-çat olmuş torpağın da, «gözü» tutulmuş bulağın da… vətənə təsir imkanları var. Qrad mərmilərindən, top qəlpələrindən sınmış ağaclar da, torpağa basdırılmış minalar da…vətənin köksünə vurulmuş yaralardı. Bu yaralara məlhəm qoymaq Vətən eşqilə ürəyi döyünənlərin vəzifəsidir.

Zaur Ustac ürəyi Vətən eşqilə döyünən, vətənə oğulluq borcunu verən şairlərdən, ziyalılardan biridir. O, bir qələm adamı olaraq şeirlərilə də vətənə xidmət eləyir. Bu da onun vətənpərvər olmasından, vətənin hər qarış torpağını, quru çöpünü, qara daşını belə müqəddəs bilməsindən irəli gəlir.

Zaur əsgəri xidmətdə olanda da, avtomat silahının qundağını sinəsinə sıxanda da, barmağını tətiyin üstünə qoyanda da vətənlə ağlayıb, vətənlə gülüb və həmişə vətənə vurulan yaraları ürəyində hiss eləyib. Vətənə vurulan yaralar sağaldıqca, onun da ürəyinə vurulan yaralar sağalmağa başlayıb.

Vətən eşqi onu heç vaxt ruhdan salmayıb, bu eşq ona güc verib, qüvvət verib.

Gəlin şairin vətən eşqindən, təbiət sevgisindən, ana məhəbbətindən az da olsa söhbət açaq. Söhbət açmazdan öncə istəyirəm ki, şair Elnur Qərarinin yazmış olduğu «Dost sözü»nü birlikdə oxuyaq və onun dost sözü ilə söhbətimizə körpü salaq və bu «körpüdən» keçərək Zaur Ustacın vətənpərvərlik duyğuları ilə tanış olaq. «Dünya qloballaşır, bəşər düşüncəsi kosmopolit yön alır, lakin bütün bu sürətli hadisələrin fonunda uzaqdan bir işıq görünür - Vətən.

Torpağa tapınmaq, vətənin qoxusu ilə nəfəs almağın həzzini yaşamaq hər insana nəsib olmur. Bu mübarək hissi yaşamağın özü bir şərəfdir.

Zaur Ustac şeirlərdə vətən torpağının ətrində məst olan bir insan kimi misralarını da vətən rənginə boyayıb.

***Nədəndi, ürəyim çırpınır yenə,***
***Gördükcə hüsnündə məlalı, dağlar?!***

-deyir və vətən aşiqi olduğunu isbat edir, göstərir ki, vətən həsrəti çəkmək insanlığın bariz göstəricisidir.

*Yağı covlan edir, dağıdır yenə,*
*Qoynunda büsatı, cəlalı, dağlar!*

Bu misralarda nəfəsi ilə, misraları ilə düşmənə hayqırır, ona hücum edir. Əslində şair silahı onun çılğın misralarıdır.

*Nədir yenə, ümman kimi,*
*Çalxalanıb, coşdun, ürək?*
*İçindəki bu təlatüm,*
*Bu oyanış de nə demək?*

Bu sətirləri oxuduqca şairin romantik zənginliyinə enirsən, onun ekzistensial aləmini kəşf edirsən. Ürəyin-qəlbin ahəngini vəsf edir şairimiz.

*Biz bilən ölçülər büsbütün yaddır,*
*Çoxunun bildiyi quruca addır.*
*Sərhədsiz, hüdudsuz quruca zatdır,*
*Bir «ol» - da var olan gücdü Yaradan…*

- deyir şair və əslində bununla dərin bir həqiqəti aşılayır oxucusuna. - Tanrı həqiqəti ta qədimdən bu günə qədər «Uca Yaradan» ədəbiyyatın ən ehtişamlı mövzularından olub və bəlkə də klassik ədəbiyyatın ən fundamental mövzusu olub. Bizim şair də bu möhtəşəm reallığa biganə qalmayıb və Tanrıdan savayı bütün varlıqların əslində yad olduğunu, təkcə Ulu Rəbbimizin bizə doğma olduğunu gözəl ibarələrlə dilə gətirib, təsbit edib.

Ümumiyyətlə, Zaur Ustac şeirlərinin milli ruhu güclüdür, səmimidir, aydın və işıqlıdır».

***

Zəngin və çoxcəhətli yaradıcılığından söhbət açdığım Zaur Ustac öncə vətənpərvər şairdir. Vətənpərvərlik

mövzusu Azərbaycan ədəbiyyatında həmişə və hər zaman öncül yerlərdən birini tutub. İstər klassik, istərsə də çağdaş şairlərimizin böyük əksəriyyətinin yaradıcılığında bu mövzu müxtəlif aspektlərdə bədii əksini tapıb.

Vətən məhəbbəti Zaur Ustacın da yaradıcılığından da yan keçməmiş, onu daim düşündürmüş, yeni yaradıcılıq axtarışlarına sövq etmişdir. İkinci Qarabağ müharibəsinin zəfərlə başa çatması, qırx dörd günün əks-sədası Zaur Ustac yaradıcılığının yeni bir mərhələsi kimi diqqəti cəlb edir. O, bir vətəndaş-şair olaraq dəyərli əsərlər yazmış, müharibə dövrünün əhvali-ruhiyyəsini əks etdirə bilmiş, Qarabağın işğalına təkcə coğrafi mənada deyil, həmçinin milli-mənəvi konteksdə yanaşmışdır. Bəli, o, vətənpərvər şairdir. Azərbaycan poeziyasında Vətən və vətənpərvərlik mövzusunda çox şeirlər yazılıb və bu gün də yazılmaqdadır. Çünki poeziyamızda ən əsas mövzulardan biri olan vətənpərvərlik duyğusu insanın ən müqəddəs, ən doğma duyğularından biridir.

Yüksək vətənpərvərlik ruhunda şeirlər yazan şairin lirik qəhrəmanı üçün Vətən anlayışı çox genişdir, həm də əhatəlidir.

Ustac üçün Vətən öncə anadır, şərəfli tarixdir, təbiətdir, təbiətin gözəllikləridir, yurd yeridir… Bədii təsvir vasitələrilə, obrazlı sözlərlə Vətən obrazını yüksək sənətkarlıqla yaradan, Azərbaycanın hər qarışına, hər qara daşına, quru yarpağına məhəbbətini ifadə edən şairin «Gəzdim» adlı şeirindəki aşağıdakı misralar vətənə məhəbbətin ən parlaq ifadəsi deyilmi?

***Gəzdim qarış-qarış doğma torpağı,***
***Hər dağda, dərədə izim var mənim.***
***Hələ keçilməmiş uca dağların,***
***Uca zirvəsində gözüm var mənim.***

*Gəzdim, yorulmadan aranı, dağı,*
*Seyr etdim ən ucqar çəməni, bağı.*
*Heç vaxt qınamadım aranı, çağı,*
*Çox bulaq başında üzüm var mənim.*

*Gəzdim, bu torpağı mən oymaq-oymaq,*
*Ən adi daşa da olmuşam qonaq.*
*Hər otun, çiçəyin halın soraraq,*
*Sinəmə yığdığım sözüm var mənim.*

Üç bəndlik bu qoşmada şairin Vətən, torpaq sevgisi ən ülvi hisslərlə, duyğularla qələmə alınıb. Hər daşa da qonaq olan, hər qarış torpağa sığal çəkən, hər otun, çiçəyin halın soruşan şair, gözlərimiz önündə gözəl və əsrarəngiz bir mənzərə canlandırır, Azərbaycan təbiətini gözlərimiz önünə gətirir, vətənpərvər bir söz adamı kimi oxucunu heyrətləndirməyi bacarır.

Doğma vətənə böyük qiymət verən, dünyada onun tayı-bərabəri olmadığını dilə gətirən şairin vətən sevgisinə heyrətlənməmək olmur.

İnamla demək olar ki, Zaurun vətənlə bağlı poetik düşüncələri olduqca maraqlıdır, orijinaldır. Onun Vətən anlayışı təkcə Azərbaycanla məhdudlaşmır, o, həm də o tayda qalan yurd yerlərini düşünür. Azərbaycanın bütövlüyü və birliyi ilə bağlı fikir və düşüncələrini qələmə alır ki, bu da onun vətənpərvərlik mövqeyindən, eləcə də bayraq sevgisindən irəli gəlir.

Şairin «Vətən daşı» şeirində üç rəngli bayrağımız müqəddəs bir simvol kimi təqdim edilir:

*«Yaşıl»ına yaşıl qatan,*
*Dizi yaşıl oğullar var!*
*«Göy»ün açıq olsun deyə,*
*Göydən buludu qovdular!*

*«Qırmızı»na qanın qatan,*
*Gözü yaşlı analar var!*
*Sən beləcə şax dur deyə,*
*Qəddini əydi atalar!*

*Haqqın yoxdur nə solmağa,*
*Əyilməyə Vətən daşı!*
*Vətənimizin sözüsən sən,*
*Yadelliyə Vətən daşı!*

Bayrağımızda göy rəngi göy, səma ilə eyniləşdirən şair göyün üzü təmiz olsun deyə igid oğulların qəhrəmanlıq göstərdiyi, 44 günlük Vətən müharibəsini dilə gətirir. Üç bəndlik şeirlə romana sığışmayan fikir söyləyir, Vətənin hər daşının, hər «çiçəyinin» belə innən sonra solmağa, əyilməyə haqqı olmadığını bildirir.

Ürəkdə xoş təəssürat oyadan bu şeir bir daha onu göstərir ki, şairin vətənpərvərlik ruhunda yazdığı şeirlər ideya-məzmun və sənətkarlıq cəhətdən qüvvətli olması ilə seçilir. İkiyə parçalanmış bir millətin, vətəndən qıraqda qalan yurd yerlərinin ağrı-acısı, həsrəti… onun şeirlərində güzgü kimi əks olunur.

Zaur Ustac da vətənpərvərlik hissi çox güclüdür. Bu, həm də onun yurd yerinə, ana torpağa bütün varlığı ilə bağlı olmasından irəli gəlir. Bu bağlılığın özü vətəni sevməkdir, vətənpərvərlikdir.

Onun vətənpərvərlik mövzusunda onlarla şeiri var. Bu şeirlər onun necə bir vətənpərvər şair olmasını bir daha açıb göstərdi. Şair Vətən mövzusunu yeni bir zirvəyə qaldırdı və vətənin oylağı da, oymağı da, ağacı da, budağı da, yarpağı da…bizimdir, - deyir və bizim olanı heç kimə verməri, - deyir. «Bayraq bizim bayrağımızdı» şeirindən həm də anlaşılan odur ki, hətta quru çöpü də belə düşmənə vermərik:

*Üstündən yüz Araz axsın,*
*Torpaq, bizim torpağımız!*
*Güney, Qüzey fərq eləməz,*
*Oylaq, bizim oylağımız!*

İkiyə bölünmüş Azərbaycanı şair həm bütöv görmək istəyir, həm də bütöv görür. Yüz Araz çayı axsa da torpaq yenə Azərbaycan torpağıdır. O tayda qollu-budaqlı bir ağacın da yarpağı bizim yarpağımızdı, azərbaycan türklərinin yarpağıdı:

*Dörd bir yanın Qarabağlı,*
*Dəmir qapı çoxdan bağlı.*
*Bir ağacıq qol, budaqlı,*
*Yarpaq, bizim yarpağımız!*

İkiyə bölünmüş Azərbaycanı kökləri dərinliyə işləmiş qollu-budaqlı bir ağaca bənzədən şair, həm də «Dəmir qapı çoxdan bağlı» deməklə Dəmirqapı Dərbəndi xatırladır. Dərbənd qədim Azərbaycan yurdudur, vətənin qıraqda qaldığı yerlərdəq biridir. Şair o yerlərin də Azərbaycan sərhədindən kənarda qaldığına kədərlənsə də yenə dünyanın kar qulağına hayqırır ki, «Sancaq bizim sancağımız!». Şair haqlı olaraq öz səsini ucaldır:

*Ustac boşa deməz əlbət,*
*Sərhədinə elə diqqət.*
*Bu kəlamda var bir hikmət,*
*Sancaq bizim sancağımız!*

Və yaxud:

«Ustacam» şeirindən bu misralara nəzər salaq:

*Tarixdə Nəbisi, Koroğlusu var,*
*Gen dünya yağıya daim olub dar.*
*Düşmən qarşımızda yenə oldu xar,*
*Aslanlar yurdunun şir övladıyam!*

Aslanlar yurdunun şir övladları gün gələcək ki, Vətənin qıraqda qalan yerlərini Vətənə «qovuşduracaq». Vətənin Nəbisi, Koroğlusu saysız-hesabsızdır. Erməni işğalçılarını 44 gün ərzində doğma Qarabağdan təmizləyən müzəffər ordumuzun şanlı əsgərləri Təbrizdə də üç rəngli bayrağımızı dalğalandıracaqlar…

Şairin vətənpərvərlik ruhunda yazdığı şeirlər daha çox güllərlə, çiçəklərlə, dağlarla…ifadə olunur, bu şeirlərdə dərdin, kədərin rəngini görürük, ayrılığın, həsrətin qoxusunu hiss edirik. Onun poetik dünyasında Araz dərdi var, Qarabağ ağrısı var. Çəkiləsi mümkün olmayan bu dərdləri, ağrıları poetik obrazlarla şeirə gətirən şairin vətəni qanıyla, canıyla sevdiyinə bir daha şahidlik edirik.

…Ötən əsrin 90-cı illərinin hadisələri də Zaur Ustac poeziyasından yan keçməyib. Bir anlığa ötən illərə qayıdaq:
- Azərbaycanın başı üstünü qara buludlar bürüyüb. Düşmən məlumdur. «Arxalı köpək qurd basar», - deyiblər. Moskvaya «söykənən» ermənilər qorxunc olduğu qədər də hiyləgər və riyakardır. Xalqın başının üstünü alan qorxunc təhlükə, hakimiyyət davası, köçkünlərin faciəsi, daha sonra Qarabağın işğalı… Həmin o illərdə Zaur Ustac da həm qələmilə, həm də silahı ilə döyüşə-döyüşə Vətənin harayından, yaralı torpaqların iniltisindən yazmağa başladı. Yaza-yaza Azərbaycanı ayağa qaldırmağa, xalqın mənəvi ruhunu oyandırmağa çalışdı.

Bəli, o illərdə Təbriz dərdinin üstünə əlavə bir dərd də

gəldi. Bu dərd Qarabağ dərdidir. Bu dərd Vətən dərdidir. Bu dərd dərdlərin ən ağırıdır.

O ağrılı-acılı illərdə Vətən dərdi, Qarabağ həsrəti, talan olan yurd yerləri… onun yaradıcılığında mühüm yerlərdən birini tutmağa başladı.

Zaur Ustac vətənsiz bir gün də yaşaya bilməz. Vətən onun damarlarında axan qandır; qansız insan yaşaya bilərmi? O, vətənə xidməti Allaha xidmətə bərabər tutur.

Bəli, o, vətənpərvər şairdir. Onun bütün şeirlərində vətənpərvərlik duyğularını hiss etmək mümkündür. Şairin sevgi şeirlərində də vətənpərvərlik ruhu var. Vətənpərvərlik o demək deyil ki, şeirlərində Azərbaycanın adını çəkəsən, Xəzəri, Göygölü…tərif eləyəsən, yer adlarını şeirə gətirmədən də vətənpərvərlik ruhunda şeir yazmaq mümkündür. Bir daha deyirəm ki, Azərbaycanın adının çəkilməsi mütləq deyildir.

Atalar da nahaqdan deməyib: «Gəzməyə qürbət ölkə, ölməyə Vətən yaxşı». - Bəli, qürbət ögey anadır; dərdini bilməz, halına yanmaz. Xoşbəxtlik də, səadət də ancaq vətəndədir. Vətən anadır, ana qədər doğmadır, əzizdir, müqəddəsdir… Müqəddəs yer olduğu üçün də qürbətin qızıl qəsrindən vətənin bir ovuc torpağı gözəldir.

Bu şeirdə Azərbaycanın adı çəkilmir, heç şairin dünyaya göz açdığı Ağdamın Yusifcanlı kəndinin də adı çəkilmir, amma buna baxmayaraq şeir vətənpərvərlik ruhu ilə, Ağdam həsrətilə, Yusifcanlı kəndinin həsrətilə yoğrulub. Şair o yerlərə-doğma yurd yerinə getmək istəyir, amma gedə bilmir, çünki yurd yerləri işğal altındadır. Məhz buna görə də o, «Göyərçin» şeirində Göyərçinə üz tuturaq deyir:

***Ay səni asudə uçan göyərçin,***
***Sən onu bilmirsən nə bəxtəvərsən.***
***Həsəd aparıram bu xoşbəxtliyə,***
***Bəlkə, azadlığı mənə verəsən?***

***Mən də istəyəndə qalxım göylərə,***
***Qəlbin aradığı mənzilə yetim.***
***Bülbüllər gül üçün oxuyan kimi,***
***Mən də istəklimə nəğmələr ötüm…***

Bu şeir Molla Vəli Vidadinin «Durnalar» qoşmasının ruhunu xatırladır. Şair Molla Vəli Vidadi də durnalara xitabən ürəyindən süzülən ağrıları, istək və arzuları bəyan edir. Zaur Ustac da «Göyərçin» şeirində göylərə qalmaq, qəlbinin aradığı mənzilə getmək istəyir. Onun qəlbinin aradığı mənzil doğma Yusifcanlı kəndidir, ata yurdudur. Bülbüllər gül üçün oxuduğu kimi, o da doğma yurd yerlərində nəğmələr oxumaq istəyir. Amma oxya bilmir. Bu da ona dərd olur. Dərdini əritmək üçün Göyərçinin yerində olmağı arzulayır…

Arzusu ürəyində qalan şair üzünü dağlara tutur, dağlarla söhbətləşir. Şair «Dağlar» şeirində yazır:

***…Günəş qürub edir qoynunda sənin,***
***Gözü səndə qalıb bütün millətin.***
***Onsuz da niyyəti puçdu düşmənin,***
***Ordumun beşiyi, vüsalı, dağlar!***

***…Ustacın ürəyidolub, boşalmır,***
***Köksünün yarası qaysaq bağlamır.***
***Millət yaman gündə, hamı ağlayır,***
***Doğacaq nə zaman Hilalın, dağlar?***

*Şeir 1996-cı ildə qələmə alınıb.*

Dolub boşalmayan ürəyini dağlara boşaldan şair göz yaşları içində qarabağlıların Qarabağdan didərgin düşdüyünü, düşmənin yurd yerlərini talan etməsini, xarabazara çevirməsini, millətin ağlar gününü, pis gününü…

qələmə alır və eyni zamanda ruhdan da düşmür, xoşbəxt gələcəyə ümidini itirmir «Dünya belə qalmaz, dəyişər zaman, Yenə dövran olar, həmənki dövran» - deyir. «Qoynunda büsatı, cəlalı dağılan, bulaqlar başında məclislər qurulmayan dağlar» elə vətənin özüdür, işğal edilmiş Qarabağın özüdür. Dağlar da şair kimi küskündür, dağların da hüsnündə kədər var, qəm var!

Ustacın Vətən duyğusu ilə köklənən şeirlərini oxuduqca heyrətlənməyə bilmirsən. Heyrətlənirsən ki, görəsən, şeirdə bu boyda Vətən sevgisi, Vətən məhəbbəti hardandır?

Onun vətənə məhəbbəti anaya olan məhəbbətdən başlayıb. Ana və Vətən sözləri bir-birinə o qədər yaxın, o qədər doğmadır ki, bu sözləri bir-birindən ayırmaq vətəni anadan, ananı körpəsindən ayırmaq deməkdir.

Onun anasına ünvanladığı şeirlər, elə vətənə yazılan şeirlərdir. Vətənə yazılan şeirlər isə anaya yazılan şeirlərdir. Bu, belədir. Hər halda mən belə düşünürəm.

***Beşiyim üstündə layla çalanım,***
***Gözümün işığı, dirəyim ana!***
***Dünyalar durduqca yaşayasan sən,***
***Düşünən beyinim, ürəyim ana!***

Anaya yazılan bu şeir həm də vətənə yazılıb. «Dünyalar durduqca yaşayasan sən!»- deyən şair təkcə öz anasını nəzərdə tutmur, həm də vətənə xitabən bu sözləri pıçıldayır.

Yaxud bu misraları nəzərdən keçirək:

***Heç fikir eləmə oğul sarıdan,***
***Oğlunu bəxş etdi ulu Yaradan.***
***Mərdlərə təsəlli olmaz nigardan,***
***Vətənçün böyütdün oğlunu, ana!***

Vətən - ana! Bu sözləri bir-birindən ayırmaq olarmı? Əlbəttə yox! Ona görə də vətənə yazılan şeir anaya, anaya yazılan şeir vətənə yazılan şeirdir.

Şair ərz eləyir ki:

*...Sənin də üzünə təbəssüm qonar,*
*Qayıdacaq oğlun, cəbhədən, ana!*

Deməli, oğul cəbhədədir, düşməndə döyüşür. Oğul silahlanıb Vətəni düşməndən qoruyur. Deməli, həm də arxa cəbhədə oğul intizarında olan ananı qoruyur!

Ana da, oğul da bir-biriləri üçün darıxırlar.

Şairin anası üçün darıxmağı, həm də ata ocağı üçün darıxması deməkdir! Ata ocağı vətənin bir parçasıdır.

Ana üçün darıxan, ata ogağına həsrət qalan şair hərdən öz ürəyilə də «danışır». Onun ürəyi dəniz kimi coşub çalxalanır. Bu çalxalanma Vətən həsrətindən, yurd həsrətindən... yaranan nisgilin, dərdin, qəmin təzahürüdür.

«Bu belədir» şeirində şair həsrətini, nisgilini aydınca hiss eləmək mümkündür:

***Nədir yenə ümman kimi,***
***Çalxalanıb, coşdun ürək?***
***İçindəki bu təlatüm,***
***Bu oyanış de, nə demək?***

***Həsrətdənmi, nisgildənmi,***
***Ürək, yenə çağlayırsan?***
***Anasına həsrət qalmış,***
***Körpə kimi ağlayırsan...***

Ürək ağlamasın, neyləsin? Ürək dəniz kimi coşmasın, çalxalanmasın, neyləsin? Axı Vətən dardadır! Axı şairin «Durnalar kimi» şeirində deyildiyi kimi «Ayrılıq, intizar, qəmdir, ələmdir, həsrətdir, nisgildir, nə bilim nədir».

*...Yenə nalə çəkib ah qoparırsan,*
*Səsinlə qəlbimdə od qalayırsan.*
*Ağır bir hava tək məni boğursan,*
*Könlümə yaralar vurma, ay Kaman!*

*Nə edim, neyləyim, öldürdün məni,*
*Ahın, fəryadınla diddin qəlbimi.*
*Heç çəkə bilmirəm öz dərdlərimi,*
*Yükümün üstünə yük vurma, Kaman!*

**«Kaman»**

Şairin dərdləri çoxdur, bu dərdlər çəkiləsi mümkün olmayan dərdlərdi. Bu dərdlər Vətən dərdidi, Qarabağ dərdidi. Şeirdə Qarabağın, vətənin adı çəkilməsə də şairin Kamana - musiqi alətinə müraciət etməsindən hər şey gün kimi aydın görünür. «Heç çəkə bilmirəm öz dərdlərimi» - deyən şair «Boşluqdayam» şeirində ayrılıqdan, həsrətdən bəxtinə yazılmış günlərin acısından söhbət açır bu şeirdə də Qarabağ dərdi özünü qabarıq şəkildə büruzə verir:

*Fikirdən, xəyaldan gözüm yumulu,*
*Heç görə bilmirəm nə sağı, solu.*
*Ürəyim nisgillə, kədərlə dolu,*
*Bilmirəm doğrusu nə olmuş mənə...*

Və yaxud:

*Ruzigar əsdikcə dəyişir dövran,*
*Məskənim gah dərə, gah dağ olubdu.*
*Həsrətdən, nisgildən, həm ayrılıqdan,*
*«Yaşıllıq» saralıb, rəngi solubdu.*

**«Ömür»**

Ömrünün yurd yerindən uzaqlarda keçdiyini anladan, Gənc ömrünün - «yaşıl» ömrünün həsrətdən, ayrılıqdan

solub-saraldığını dilə gətirən şairin həzinliyi ilə yaddaşa köçən şeirlərini həyəcansız oxumaq mümkün deyil. Vətənpərvərlik ruhunda yazılan şeirlər, həm də gənc nəsli vətənpərvərlik ruhunda tərbiyə edən şeirlərdir. Bu şeirləri oxuduqca düşünürsən ki, nə yaxşı Azərbaycanın onun kimi bir ziyalısı  var. Balıq quruda yaşaya bilmədiyi kimi, o da vətənsiz yaşaya bilməz. Onun ilham mənbəyi vətəndir. O, vətənlə ağlayıb, vətənlə gülür. O, vətənlə ağlayıb, vətənlə gülməsəydi, vətənpərvərlik ruhunda şeirlər də yaza bilməzdi.

***Yaradan bəxş edib bu namı bizə,***
***Ellərin sultanı, xan Azərbaycan!***
***Var olsun bu torpaq, yaşasın Vətən,***
***Anam Azərbaycan, can Azərbaycan.***

Azərbaycanı ellərin sultanı, xanı adlandıran Zaur Ustac ellər deyəndə bütün dünyanı nəzərdə tutu rvə demək istəyir ki, dünyanın sultanı Azərbaycandır. Bu şeirin özündən də şairin vətən sevgisini, vətən məhəbbətini görmək o qədər də çətin deyildir.

Pilot Dilarə Babayevaya ithaf olunan bu şeirdə vətənpərvərlik duyğuları geniş yer alıb və oxucu bu vətənpərvərlik duyğularında Odlar yurdunun qəhrəman qızları, kişi qeyrətli qadınları ilə bir daha tanış olur. Bu tanışlıq yaddaşımızı təzələyir, bizi xəyalən uzaq və yaxın keçmişə aparır, şərəfli tariximizi unutmamağa sövq edir.

***…Lalənin al rəngin yazıb tarixə,***
***Analar anası, Tomris anamız…***

Bu iki misrada şair igid və cəsur Tomrisi xatırlatmaqla yanaşı, həm də tariximizin qanla yazıldığını, torpaqlarımızın qanla yoğrulduğunu və ona görə də hər qarış torpağın müqəddəs olduğunu diqqətimizə çatdırır.

*Neçə Sarası var, dünya tanıyır,*
*Əlində qələmi qılıncdan iti…*

Azərbaycan qadınları igid və cəsur, qəhrəman olduqları kimi, həm də öz ağlı, düşüncəsi, uzaqgörənliyi, düzgün siyasəti ilə də fərqlənir. Sara xatun Ağqoyunlu dövlətinin sultanı Uzun Həsənin anası idi. Onun adı bir siyasətçi kimi, diplomat kimi Azərbaycan tarixinin öyünüləsi, fəxr ediləsi səhifələrinə yazılıb.

Şair pilot xanıma- Dilarə Babayevaya yazdığı şeirdə işğal altında qalan Qarabağı da yada salır. Ürəyində dərd, qəm yenidən göynəyir. Bir şair kimi şairə Xan qızı Natəvanı xatırlayır və göz yaşları içində yazır:

***İndi «İmarət»- də qonaq Xan qızı,***
***-Natəvan pəjmürdə, ruhu pərişan.***
***Əldən ələ düşüb eli, obası,***
***İltifat edən yox, yox hal soruşan…***

…Zaur Ustac poeziyasının döyüşkən ruhu onun vətənpərvərlik mövzusunda yazdığı şeirlərdə daha çox hiss edilməkdədir. Bu, təbiidir. Axı torpaq barından, insan arından tanındığı kimi, mübariz şair də döyüşkən ruhundan tanınar.

O, xalqa, vətənə, zamana xidmət edən şeirlərilə bir daha açıb göstərdi ki, onun poeziyası ədəbiyyatın tarixinə yazılmaqdadır, çünki o, öz vəzifəsini, məsuliyyətini əlinə qələm almazdan öncə düşünüb və qələmilə xalqa, vətənə xidmət etmək missiyasını öhdəsinə götürüb və bu işi şərəflə, vicdanla yerinə yetirir.

Zaur müqəddəs qələmilə bir şair kimi insanlara, insanlığa xidmət edir, öz şeirlərilə ürəklərdə sönməkdə olan sonuncu

ümidi alovlandırır, insanları xoşbəxt gələcəyə səsləyir, yeni-yeni uğurlar, nailiyyətlər qazanmağa, zəfər çalmağa ruhlandırır.

Onun yüksək vətənpərvərlik eşqilə qələmə aldığı hər şerdə, hər misrada bir həzinlik, bir kövrəklik var, cəngavərlik ruhu var, döyüş ruhu var. Vətənpərvərlik ruhunda yazdığı hər şeirdə, eləcə də başqa şeirlərində türkün qüdrəti, yenilməzliyi təsvir edilir. Və şair haqlı olaraq deyir ki, «Torpaq bizi gözləyir». - Bu şeirdə şair həm də türklərin yenə də böyük uğurlar qazanacağına, yadellilərə, işğalçılara aman verməyəcəklərinə özünə inandığı kimi inanır və oxucunu da inandırır. Milli Qəhrəman İlqar Mirzəyevin xatirəsinə ithaf olunmuş şeirdə şair yazır ki:

***Səngər, məzar ortaq bizi gözləyir,***
***Qardaş, ana torpaq bizi gözləyir…***

Bəli, ana torpaq bizi gözləyir ki, gedib düşməni - yadelli işğalçıları doğma Qarabağdan birdəfəlik təmizləyək, vətənə vurulan yaralara məlhəm olaq! Vətən uğrunda şəhid olmaq, İlqar Mirzəyev kimi igid oğullara məzar ortağı olmaq… şairin vətənə, torpağa sevgisindən bir daha xəbər verir. Bu sevginin, Vətən məhəbbətinin qüdrətinə, möhtəşəmliyinə heyran qalmamaq mümkün deyil.

Bu misralarda artıq rəng və boyalara rast gəlmək mümkün deyil. O, hər bir şeirində yeni poetik ifadələr işlədir, dəfələrlə qələmə alınmış mövzulardan yazanda da öz orijinallığı, deyim tərzi ilə seçilir və qələmə alınan mövzulara çox həssaslıqla yanaşır, fikirlərin, rənglərin təzəliyinə xüsusi fikir verir.

Gəlin «Vurğun vətəndi» şeirindən bu misralara diqqət yetirək:

*Vurğunam, Vurğunun vurğunluğuna,*
*Vətən varlığıydı, Vətən varıydı.*
*Vətəndə vətənsiz Vurğunluğuyla,*
*Vətənin varlığın vurğulayırdı…*

*… «Vurğunam», Vətənin varı varımdı,*
*Vecsizlər vulqarlıq vurğulayırdı.*
*Vurğunsa, Vətənə Vətən verirdi,*
*Vətən Vurğunuydu, Vurğun Vətəndi…*

Böyük şairimiz Səməd Vurğuna yüzlərlə şeir həsr olunub. Ancaq Zaur Ustacın yazdığı şeir öz orijinallığı, novatorluğu, məna tutumu və fəlsəfi baxışı ilə başqa şeirlərdən seçilir və mən deyərdim ki, o şeirlərin fövqündə durur.

Vətən vurğunu olan şairə «Vurğun Vətəndi» deyən şair Səməd Vurğunu «vətənləşdirir» və düz də edir. Çünki Vətəni Vətən eləyən həm də Azərbaycanın elm və mədəniyyət adamlarıdı, yazıçı və şairləridi…

Zaur Ustacın şeirləri spesifik xüsusiyyətlərinə görə də diqqətəlayiqdir. Obrazlı ifadələr, misralardakı səmimilik… şeirin bədii uğurunu şərtləndirməklə yanaşı, həm də təbiəti poetikləşdirməkdə əhəmiyyətli rol oynayır. «İnci, Qərənfil…» - şeirində şair Qərənfil çiçəyini «insaniləşdirib və Qərənfillə dost kimi söhbət edir. Çiçəyi inciyən, küsən insana bənzədir, həm də ona «Qaxınc çiçəyi» deyir. Bu, səbəbsiz deyil. Şairin həm də Qərənfilə yazığı gəlir, ona «Sən bizim dünyamızsan» - deyə müraciət edir. Gözəl bənzətmədir. Əsl poetik tapıntıdır.

«İnci, Qərənfil» şeirini oxuyanda 20 Yanvar yada düşür. Rus ordusunun dinc əhalini qətlə yetirməsi, tankların Bakıya yeridilməsi, azadlıq istəyən bir milləti yer üzündən silmək istəməsi xatırlanır. Şeirdə 20 Yanvarın adı çəkilməsə də hər şey məlumdur:

*Olsan da bu işdə ən son müqəssir,*
*Gəl, məndən incimə, inci Qərənfil!*
*Utanc çiçəyisən, utanc çiçəyi,*
*İstəsən lap məndən inci, Qərənfil.*

*...Ustac tək oğullar çox mütəəssir,*
*Üz-üzdən utanır, dözür ağrına.*
*Əlacsız-əlacsız ödünc çiçəyi,*
*Silah əvəzinə sıxır bağrına...*

Şeir böyük ustalıqla qələmə alınıb. Bu şeirdə bir çox mətləblərə toxunulur ki, onlardan biri də xalqı torpaqlarımızı işğaldan azad etmək üçün ayağa durub silahlanması çağırışıdır. Şair demək istəyir ki, Qərənfil çiçəyini silah əvəzinə bağrımıza basdığımız yetər. Qərənfil çiçəyi silahla əvəz olunmalı, hamı bir nəfər ki, Vətən uğrunda döyüşə atılmalıdır.

Dörd bəndlik şeirdə az qala bir romana sığışmayan fikir və düşüncəni ifadə eləyən Zaur Ustac Qərənfil çiçəyinə istinadən «Ruhum bu halından çox mütəəssir» deyir və haqlı deyir. O, bu misrayla demək istəyir ki, ruhumuz millətin halından mütəəssirdir. Axı bu millətə qaçqınlıq, didərginlik yaraşmır, Şuşasız, Laçınsız yaşamaq yaraşmır. Şeir 2018-ci ildə qələmə alınsa da bu şeirin özündə qələbəyə böyük inam hissi duyulur.

Mövzularını həyatın tipik və səciyyəvi hadisələrindən alan, yaratdığı obrazların fikir və düşüncə aləmini, hiss və həyəcanlarını, duyğularını real boyalarla açan şair onların timsalında ictimai-siyasi hadisələrə öz münasibətini bildirir, fikrini oxucu ilə bölüşdürür, niyyət və əməlilə torpağa, vətənə, xalqa bağlılığını açıb göstərir.

Onun şeirləri ictimai-siyasi mövzularda yazılanda da oynaq və səmimiliyilə, bəndlərin dinamikliyi ilə seçilir. Yerinə

düşməyən ifadə, əlavə detal və rənglərə onun şeirlərində rast gəlmək mümkün deyil, çünki o, yazmaq xatirinə yazmır.

Onun şeirlərində kökə bağlılıq, yurda bağlılıq daha güclüdür. Doğma yurdu bir an da unutmayan, yurd yerinə olan sevgisi ildən-ilə daha güclənən şair «Şamaxı» şeirində yazır:

***...Al don geyib dörd bir yanı,***
***Bu incini sən də tanı.***
***Şamaxı tək məkan hanı,***
***Bilən varsa, desin bizə.***

***Nəsimiyə qonaq Ustac,***
***Dünya bircə sözə möhtac.***
***Bu məmləkət dünyaya tac,***
***Gəzib-görmək qalır Sizə.***

Şamaxını dünyanın tacı adlandıran şairin Vətən sevgisinin bir daha şahidi oluruq. Şahidi oluruq ki, Zaur Ustac bütöv Azərbaycanı sevir, vətənin hər qarışını müqəddəs bilir, hər kənd, hər şəhər, hər rayon onun üçün doğmadır, əzizdir. O, həm də xalqa, millətə müraciət edir ki, Vətəni qarış-qarış gəzin, Vətəni sevin, vətəni gəzmədən, görmədən sevmək olmaz.

Şairin bu qəbilli şeirlərində ifadə tərzindəki çalar zənginliyii, fikir və məna dərinliyi oxucunu uzun müddət poetik təsir altında saxlaya bilir.

***

Axıcılıq, rəvanlıq, ahəngdarlıq, səmimilik Zaur yaradıcılığının məziyyətidir. Hər şeirində yeni formalar işlədən şairin şeirləri sadə, səmimi və kövrəkdir. Onun sadə, səmimi bir şəkildə qələmə alınmış şeirlərini oxuyanda kövrəlməyə bilmirsən.

*Yaralı bir qəlbdə bitdin,*
*Hardan gəldin, hara getdin…*
*Ustacı sərfnəzər etdin,*
*Cücərtmişəm ah, çiçəyim,*
*Ay mənim matah çiçəyim,*
*Ay mənim matah çiçəyim…*

**«Matah çiçək»**

Zaur Ustacın mütəlif çiçəklərə həsr etdiyi şeirləri içərisində «Yulğun çiçəyi» adlı bir şeir də var ki, bu çiçək haqqında tanınmış şair, publisist Əli Rza Xələfli «Dağlardan gələn səs» məqaləsində belə yazır: «…Yulğun bəlkə də Yerdə həyatın yaranışından günümüzə gəlib çatmış nadir bitkilərdəndir. Kol bitkisidir. Təbiət abidəsi kimi görünür. Onun bircə qanadını qırmaq belə cinayət məsuliyyəti daşıyır. Bu məsuliyyətin nə demək olduğunu Zaur Ustac özünəməxsus tərzdə müqəddəsliyə çevirir:

***Arzular çəhrayı boyanıb bu gün,***
***Ürəklər günəşlə oyanıb bu gün,***
***Çiçəklər yollara dolanıb bu gün,***
***Ana duasıdır Yulğun çiçəyi.***

Zənnimcə, elə belə də deməlidir, axı o özünü çiçəklərin dostu, sirdaşı hesab edir. Günəşin yada salınması təsadüfi deyil. Çöldə Üulğun kollarının Günəşin şüaları altında səhərçağı, yaxud axşam tərəfi necə qızılı tellərlə dalğalandığını görmək insanın ruhunu qidalandırır. Sanki hər Yulğun kolunun özü bir günəş parıltısı yayır. Bütün bunların hamısı Zaur üçün təbiət abidəsinin toxunulmaz olduğuna sübutlardır, qənaətlərdir. Zaur çox şeyi müqəddəs bilir, ona görə də onun qoruqçuluq missiyası sözdə kifayət

qədər əsaslıdır. Axı müqəddəslər toxunulmazdır».

Zaur Ustac duymadan, təsirlənmədən, gerçəkliyi hərtərəfli yaşamadan əlinə qələm götürmür. Bədii sözə laqeyd münasibət bəsləməyən, sözdən sərrast istifadə edən, dərin müşahidə bacarığına malik olan, adi çiçəyi belə mənalandıran, onun mahiyyətini poetik sözlə ifadə edən şair söz üstündə «gilə-gilə» əriyərək sanballı şeirlər yazıb oxuculara ünvanlayır. Onun yaradıcılığında məzmunsuz, rəngsiz, boyasız şeirlərə rast gəlmək çox çətindir, olsa da dəryadan bir damla qədərindədir.

Hər sözə son dərəcə tələbkarlıqla yanaşan, təsirli bədii təsvir vasitələrindən istifadə edən, oxucunun zövqünü, bədii-estetik tələbini unutmayan, misra və bəndlər arasındakı ahəngə, məntiqi ardıcıllığa fikir verən Zaur Ustac bir şair kimi oxucunu heyrətləndirməyi yaxşı bacarır.

***Nahaqdan özünü yorub gəlmisən,***
***Sən mənim qismətim deyilsən, güllə!***
***Əbəs yerə məni deyib gəlmisən,***
***Məni qoruyanım, Tanrımdı, güllə!***

***...Həyatda bir anım imansız deyil,***
***Gələcəkdə mənim xoş sabahım var.***
***Səndən bircə zərrə qorxum belə yox,***
***Səndən qorxar yalnız qansızlar, güllə!***

**«Güllə»**

Şeir Zaur Ustacın Birinci Qarabağ müharibəsində iştirak etdiyi vaxtlarda qələmə alınıb. Şair şeirin epiqrafında yazır ki, «Postda dayanmışdım, üç güllə lap yanımdan ötüb, torpağa düşdü».

Zaur Qarabağda həm sözüylə, həm də silahı ilə döyüşən oğullardan biridir. O, güllədən qorxmadığını dilə gətirir və

haqlı olaraq hələ yaşayacağını, düşməndən intiqam alacağını, Qarabağı onlara məzarlıq edəcəyini bildirir. Qarabağın azad ediləcəyinə inanır və «Gələcəkdə mənim xoş sabahım var» - deyir və haqlı deyir.

Vətənpərvərlik, cəsurluq, igidlik və qorxmazlıq haqqında yazılan bu şeiri həyəcansız oxumaq mümkündürmü? Əlbəttə, yox!

Ərz elədiyim kimi Zaur Ustac vətəndaş mövqeli şairdir. Yurd və torpaq sevgisi, bütöv azərbaycançılıq ideyası onun yaradıcılığının ana xəttini təşkil edir desək, yanılmarıq. Vətən məhəbbəti, yurd sevgisi, milli kimlik və milli şüurla bağlı duyğular, fikirlər diqqəti daha çox cəlb edir. Şeirlərində milli vətənpərvərlik ruhu daha güclü olan, mənəvi dəyərlərin keşiyində dayanan, adət və ənənələri, düşüncə və əxlaqı, milli bütövlüyü, müstəqilliyi, azadlığı tərənnüm edən şairin qələmində Qarabağ, Təbriz… nisgili parlaq boyalarla təsvir edilir. Bu təsvir vasitələrilə biz vətənin təəssübünü çəkən bir şairin Vətən sevgisinin, Vətən məhəbbətinin canlı şahidi oluruq. Onun Vətən sevgisi sərhəd tanımır, bu sevgi duyğuları Araz çayını keçib cənubi Azərbaycanı da əhatə eləyir.

***Xudafərin qucaqlayan qoludur,***
***Keçidləri salam deyən əlidir.***
***Bayatılar pöhrələyən dilidir,***
***Hər iki tərəfə məhrəmdir Araz!***
***Yaralı torpağa məlhəmdir Araz!***

**«Araz»**

Və yaxud «Nadanlıq» şeirindən bu misraları oxuyaq:

***Savalanı dərd qocaltdı,***
***Murov soyuqdan üşüyür.***
***Araz sükutun pozmayır,***
***Kür əlçatana döşüyür…***

Zaurun Vətən sevgisi o qədər ülvi, o qədər təmiz və müqəddəsdir ki, sanki damarlarında qırmızı qan deyil, quş tək çırpınan Araz çayı axır. Vətən sözünü qanı ilə üfüqlərə yazan şairin bu şeirini onun əsərlərinin epiqrafı kimi də qəbul etmək olar. Bu şeirdə o,  həm də xalqın ruhunu əks etdirir.

Onun şeirlərinin təsir gücü, gözəlliyi, məna dərinliyi doğulduğu ata ocağından, ana laylasından, ana məhəbbətindən, havasını udduğu Ağdam torpağından gəlir. Onun yaradıcılığında  yurd yeri, Vətən, torpaq… sevgisi, Dəmir qapı Dərbənd, Kərkük, Mosul, Urmu, Xudafərin… sevgisi mühüm yer tutur.

***Dəmir qapım pas atıbdı,***
***Neçə körpüdən keçmirik.***
***Kərkük, Mosul unudulub,***
***Bağdada iraq demirik…***

***Nəsimi nəşi Hələbdə,***
***Füzuli hərəmdə qalıb.***
***Babəkin ruhu sərgərdan,***
***Bəzz qalasın duman alıb.***

***Suyumu daşla boğurlar,***
***Daşımı suyla yuyurlar.***
***Xudafərin, Urmu incik,***
***Bizləri bizsiz qoyurlar…***

Şair ürəkağrısı ilə Azərbaycandan yağlı tikə kimi qoparılan Təbrizi, Urmunu, Mosulu, Bəzz qalasını… xatırladır və onların bizdən incik düşdüyünü bildirir. Onu da bildirir ki, ikiyə bölünmüş Azərbaycan birləşməyincə  Babəkin ruhu sərgərdan gəzəcək, Savalan dərd içində qalacaq, Dəmir qapı

pas atmaqda davam edəcək… Bu şeirdə üsyankarlıq ruhu var, mübarizəyə çağırış var, Azərbaycanı birləşdirmək üçün bir hayqırtı var və şair haqlı olaraq yazır ki, nə vaxtacan «Bağrım başı köz olacaq…».

Zaurun vətənpərvərlik duyğuları ilə yazdığı şeirlərdə onun necə bir vətənpərvər insan olduğu, necə bir mərd və qeyrətli ziyalı olduğu açıq-aşkar görünür. Hər şeirində özü görünən, hər misrasında «Vətən» - deyə hayqıran bu incə qəlbli şairin lazım gələrsə 90-cı illərdə olduğu kimi indi də döyüş meydanına atıla biləcəyinə şübhə yeri qalmır. Axı o, əsl Ağdamlıdır, Ağdamın həm şair, həm də igid oğludur, müharibə veteranıdır, müharibənin od-alovundan keçən oğuldu.

***Müzəffər ordunun şanlı əsgəri,***
***Ərənlər yurdunun ər övladıyam.***
***Zalımın zülmünə təhəmmülüm yox,***
***Babəklər yurdunun hürr övladıyam.***

**«Ustacam»**

Və yaxud bu misralara nəzər salaq:

***Dərbənd, Borçalını,***
***Unuduruq həmişə.***
***Kərkük, Mosul bağrı qan,***
***Boyun əyib gərdişə.***

Şair müharibə veteranı kimi, qazi kimi Dərbəndin, Borçalının, Mosulun… bu gərdişə boyun əyməsi ilə barışmaq istəmir. O, istəyir ki, Azərbaycanın bağrından qopan bu yerlər öz sahibinə qaytarılsın, Vətən bütövləşib, bir olsun, daha da güclü olsun, Araz çayı qarğış yiyəsi olmasın:

*İrəvan peşkəş olub*
*Beş sətirlik kağızla.*
*Zəngəzuru naxələf,*
*Verib quru ağızla.*

*Bədnam Araz illərdir,*
*Olub qarğış yiyəsi.*
*Top doğrayan qılıncın*
*O taydadır tiyəsi.*

«Top doğrayan qılınc» deyən şair böyük şair və sərkərdə Şah İsmayıl Xətaini, onun top lüləsini yarıya qədər kəsən qılıncını xatırladır, Şah İsmayıl Xətai kimi oğullara arxalanaraq Təbrizdə də üç rəngli bayrağımızın dalğalanmasını arzulayır:

*İsttəyirəm bu bayraq,*
*Dalğalansın Təbrizdə.*

Gözəl arzudur. «Mən zəfərə təşnəyəm» şeirindən misal gətirdiyim bu sətirlər Zaur Ustac yaradıcılığında Vətən məhəbbətinin necə gözəl və düşündürücü bir şəkildə verilməsinin bariz nümunəsidir.

***

Zaur Ustacın qələmi silahdır və o, öz «silahı» ilə düzü-düz, əyrini-əyri yazır.

Onun kənd sevgisini, torpaq sevgisini, Vətən sevgisini əks etdirən şeirləri ilk yaradıcılıq yolundan bu günə kimi ruhumuzu oxşayır, gənclərin vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır.

Zaur Ustacı vətənsiz, vətəni də Zaur Ustacsız təsəvvür eləmək çətindir. Şairin anasına ünvanladığı hər bir şeirində də Vətən var; özünü anasına borclu bilən şair, həm də

vətənə borclu olduğunu bildirir, nə ananın, nə ana vətənin borcundan çıxmaq mümkün olmadığını şeirə gətirir.

Onun üçün anadan və vətəndən gözəl heç nə yoxdur.

***...Nə qədər cismimdə dövr edir qanın,***
***Nə qədər yaşayar, bir para canın,***
***Özünün əmridir, Cənabi-haqqın,***
***Borcluyam, qarşında daima, ana!***

***Ümidim, təsəllim sənin duandır,***
***Həmişə çin olan röyalarındır.***
***Ən yüksək mərtəbə analarındır,***
***De, səni unutmaq olarmı, ana?***

Şair bu şeirində «Cənnət anaların ayaqları altındadır» kəlamını dolayısı yolla bir daha bizə xatırladır və haqlı olaraq «Ən yüksək mərtəbə analarındır» - deyir.

...Zaur Ustacın şeirlərində Vətən şərəfli keçmişimizdir, qədim tariximizdir, dünya yaranandan yaşadığımız yerdir... Vətən qeyrətdir, namusdur.

Şair üçün Vətən həm də vətəndaşlarıyla, insanlarıyla vətəndir. Vətən vətənə şöhrət gətirən, vətənin haqq səsini dünyaya yayan, vətəni ən uzaq ölkələrdə tanıdan insanlarıyla vətəndir. Vətən Mübariz İbrahimov, Polad Həşimov, İlqar Mirzəyev kimi igid oğullarıyla vətəndir. Vətən həm də Zaur Ustac kimi ziyalılarla, ürəyi vətən sevgisilə döyünən insanlarla vətəndir. Vətən həm də şəhidlərilə vətəndir:

«Şəhid haqqı» şeirində oxuyuruq:

***Hər bir gedən şəhidin haqqı var boynumuzda,***
***Onlara borclu olan bir can var qoynumuzda.***
***Gərəkdir sırğa ola, qulaqda, eynimizdə.***
***Əgər biz unutsaq da, dövran bunu unutmaz,***
***Bu yara hey su verər, zaman onu qurutmaz.***

*...Bu işin bir yolu var, göstəribdi Mübariz,*
*Torpaq bizim vətənsə, düşməlidi izimiz.*
*Bəsdir bəhanə etdik, bağlanıbdı yol-iriz.*
*Örnəkdən ibrət alıb, cümləmiz coşmalıyıq,*
*Tikanlı məftilləri bu gün biz aşmalıyıq.*

Tikanlı məftilləri aşıb o taydakı qardaş və bacılarımıza qovuşmaq istəyi şeirdə bütün gücüylə ifadə olunub.

Zaur şəhidlərdən yazanda da onun hər misrasında Vətən sevgisi qırmızı xətlə gəlib keçir. O, ancaq «Vətən» deyir, vətənsiz bir gün də yaşaya bilməyəcəyini söyləyir. O, həm də Vətənin əsgərini hər şeydən, hər kəsdən uca tutur. Vətənin əsgərini ən ucalarda dayandığını, ən böyük hörmətə, ehtirama layiq olduğunu bildirir:

...Bir əsgər kəmərinin toqasıcan yoxuq biz...

Bircə misrayla Azərbaycan əsgərinə böyük qiymət verən şair Milli Qəhrəman Polad Həşimovun anasına yazdığı «Can ay ana!» şeirində Səmaya ananın timsalında analara böyük ehtiramını, məhəbbətini sərgiləyir:

*Can ay ana, bu baxışda nələr var,*
*Bu baxışda Poladının mərdliyi,*
*Ərənliyi, cəsurluğu, qürur var*
*Baxışının hərarətim dondurar,*
*Bu baxışda fəxarətin sərtliyi,*
*Ağalığı, amirliyi, onur var.*

Bi rana baxışıyla Polad Həşimovun mərdliyini, qəhrəmanlığını qələmə alan şair daha sonra yazır:

*Can ay ana, bu baxışda nələr var,*
*Bu baxışda xanım, xatın bir ana,*
*Sinəsində bağrı çat-çat olan var…*
*Bu baxışdan neçə ana boylanır,*
*Bu baxışda Nüşabə tək bir ana,*
*Tomris kimi kükrəyən var, yanan var.*

Səmayə ananı da, eləcə də Azərbaycan analarını Nüşabəyə, igid Tomrisə bənzədən şair sözlə həm qəhrəman Polada, həm də Səmayə ananın timsalında analara bir abidə ucalda bilib. Bu «abidədən» bütöv Azərbaycan görünür, bütün Azərbaycan qadınları görünür, igid oğullar, cəsur və qəhrəman oğullar görünür.

*…Çox dilək diləmişdim, Bayraq olsun kəfənim,*
*Xəyalım gerçək olub, sevinməsin düşmənim.*
*Dualarım qəbuldu, ağlamasın sevənim,*
*Ana, sən də gözünün qorasını sıxma ha…*
*«İgid düşmən çəpəri». Qurban gedər torpağa.*

Gizir Pəncəli Teymurovun əziz xatirəsinə yazılmış «Qulağını geniş aç» şeiri şəhidin «dilindən» qələmə alınıb. Bu şeirdə vətənpərvərlik duyğuları, torpaq, millət sevgisi ön planda verilib. Zaurun şəhid oğullara həsr etdiyi çox şeirlər var ki, bu şeirlərdən də görürük ki, şəhid olmasa, Vətən də olmaz. Bəli, vətəni vətən eləyən də, vətəni yaşadan həm də şəhidlərdi…

Vətənin azadlığı yolunda bir vətəndaş kimi, ziyalı kimi əzablı yollardan keçən Zaur Ustacın  Vətən sevgisi, torpaq sevgisi çox güclüdür, həm də çox səmimidir. Bu şeirləri oxuduqca vətənpərvərlik hisslərimizin alovlandığını, döyüş meydanına atılmağa hər an hazır olduğumuzu hiss edirik.

Qələmilə vətənə ləyaqətlə, şərəflə xidmət edən şairin

Vətən qoxulu şeirlərində qəhrəmanlıq duyğuları da qabarıq şəkildə əks olunur. Bəli, o, vətənin gözəlliyindən ilham aldığı kimi, vətənin ağrılarını da ürəyində gəzdirir, vətənin harayını eşidib və həmişə də vətənin səsinə səs verib, onun gücünü, qüdrətini artırmaq üçün bacarığını əsirgəməyib.

***

Vətən duyğulu, təbiət qoxulu şeirlərində şairin yeni-yeni duyğuları, poetik düşüncələri üzə çıxır və biz bu duyğularda, düşüncələrdə şairin poetik dünyasını görürük. 44 günlük Vətən müharibəsindən əvvəl yazdığı şeirlərdə işğal olunmuş torpaqların azad ediləcəyinə, qaçqın və köçkünlərin öz doğma yurdlarına qayıdacaqlarına böyük inamını görürük. Bu əsərlərdə qələbəyə inam hissi daha güclüdür, daha inandırıcıdır.

Zaur Ustacın ürəyinin qanına batırıb yazdığı bu səpkili şeirlərini oxuduqca bir daha əmin olursan ki, o, xalqının, vətəninin ziyalısıdır. Ürəyilə, ruhuyla xalqına, vətəninə bağlı olan şairin qəlbində vətənə qarşı sonsuz bir məhəbbət var. Bu məhəbbət, bu sevgi onun bu mövzuda qələmə alınmış hər şeirində hiss olunur.

Hələ körpəliyindən ana laylasının işığında böyümüş, ana məhəbbətilə, ana nəvazişilə dil açmış Zaur Ustacın anaya olan məhəbbəti, yuxarıda da dediyimiz kimi Vətənə olan məhəbbəti deməkdir. Saflığın, təmizliyin, halallığın, düzlüyün mayasını ana südündən, ana laylasından götürən şair ayağı yer tutandan bu günə kimi bu saflığı, təmizliyi, halallığı qoruyub saxlaya bilmişdir.

***Göydən Yer üznə ərmağan, payam,***
***Gündüzlər Günəşəm, gecələr Ayam.***
***Ən parlaq ulduzdan törəyən boyam,***
***Ozanlar yurdunun sirr övladıyam.***

**«Ustacam»**

Ozanlar yurdunun övladı saflığı, halallığı, təmizliyi ilə seçilər, həm də Vətənə məhəbbəti, sevgisi ilə seçilər. Özünü gündüzlər Günəş, gecələr Ay kimi qələmə verən şair haqlıdır, çünki o da Günəş kimi, Ay kimi şeirlərilə vətənə «nur çiləyir», vətəni vəsf eləyir…

…Vətənə, xalqa xidmət etmək xoşbəxtlikdir. Bu mənada Zaur Ustac daha xoşbəxtdir, çünki o, öz sevgisini, məhəbbətini şeir dililə, özü də ən gözəl poetik obrazlarla ifadə edə bilir.

***

Zaur Ustac vətənpərvər olduğu kimi, həm də təbiətsevərdir, təbiətlə nəfəs alan şairdir. O, vətəni sevdiyi kimi təbiəti də sevir. Təbiət elə vətənin özüdür.

Təbiətin gözəlliyi önündə özünü saxlaya bilməyən, güclə dayanan şairin gücü, ancaq qələminə çata bilir.

Onun təbiət haqqında düşüncələri poetik duyğularında da əks olunmuş, qələmə aldığı Vətən və təbiət şeirləri heç zaman diqqətdən yayınmamış, təbiət onun yaradıcılığında təkcə təbii gözəllik mənbəyi kimi deyil, həm də insan hisslərinin tərcümanı olaraq mənalandırılmışdır.

Gəlin «Bənövşə» adlı şeirindən bu misralara bir də fikir verək və onun qələminin qüdrətinə bir daha heyran kəsilək:

***Ustacam, xeyməm laməkan,***
***Rusqat verə, qıla imkan.***
***Tər bənövşəm olar kankan,***
***Qar içindən çıxıb, qoxar.***

Bənövşə qar içindən çıxsa da Bənövşə çiçəyinin özündə bir yaz təravəti duyulur, baharın gəlişi hiss olunur. Yaz fəslində də insana məxsus həzinlik, kövrək duyğular var.

Şair «Ağ çiçəyim» şeirində çiçəyi insaniləşdirib. Bu,

belə də olmalıdır. Axı insanı təbiətsiz, təbiəti insansız necə təsəvvür etmək olar? İnsana məxsus hiss və düşüncənin təbiətə də məxsus olması insan-təbiət vəhdətini xatırladır. Bəli, təbiət insanın bir parçasıdır. Bunu yaxşı bilən Zaur Ustac təbiəti insanıləşdirərək necə vətənpərvər şair olmasını bir daha təsdiqləmiş olur.

Bəli, İnsan-təbiət münasibətləri şairin yaradıcılığında ön planda durur:

Gəlin «Ağ çiçəyim» şeirindən bu misralara nəzər salaq:

***Qış tüğyan edirdi ömür bağında,***
***Hamı süst yatırdı ağ yorğanında.***
***Qəfil gördüm səni bar budağında,***
***Xoş gördük, günaydın, ay Ağ çiçəyim!***

Təbiətlə insanı həmişə vəhdətdə görən şairin bu şeirini oxuduqca təbiət gözlərimiz önündə canlanır və onun gördüyü Bənövşəni, Ağ çiçəyi, Şeh çiçəyini, Matah çiçəyi … biz də görürük, yaşadığı duyğuları biz də yaşamalı oluruq.

Şairin hər şeirində ürəkdən gəlməyən ifadə, söz, poetik fikir yoxdur. Məhz ona görə də şeirləri realdır, canlıdır.

Fikrimizin təsdiqi kimi «Şehçiçəyim» şeirindən danışmaq istəyirəim. Yox. Yaxşısı budur ki, filologiya üzrə fəlsəfə doktoru, Ülviyyə Huseynovanın - Nərimanqızının bu çiçək haqqında yazdığı məqalədən bir parçanı nəzərdən keçirək. Məqalə şairin «Seçilmiş əsərləri»nin I cildində çap edilib: «…Zaur Ustac «Şehçiçəyim» adlandırdığı bu şeirdə təbiətdə mövcud olan Şehçiçəyi adlı çiçəyin təbii-bioloji xüsusiyyətlərindən böyük məharət və ustalıqla istifadə etməklə bu günə qədər adət etdiyimiz formalardan kəskin şəkildə fərqlənən bədii nəzm nümunəsi yaratmışdır:

***...Bir kərə, bir anlıq olsa da vüsal,***
***Ruhuma rahatlıq verməyir xəyal.***
***Sonu ölümdüsə də, gəl, qoynuna al,***
***Həsrətdə yaşamaq, zor Şehçiçəyim!***

Birinci bəndin ikinci misrasına nəzər salaq:

***«Köksündən bal süzən, tər Şehçiçəyim...»***

Burada «Köksündən bal süzən» ifadəsində şairin sətiraltı mənada nə demək istəməsindən asılı olmayaraq bu hal təbiətdə mövcud olan Şahçiçəyi adlı çiçəyin öz şikarını cəlb etmək üçün dadlı və ətirli nektar ifraz etməsi məqamı ilə tam uyğunluq təşkil edir.

***«Sehrinə düşmüşəm nur çiçəklərin,***
***Əqli başdan alan, zər Şehçiçəyim...»***

Bu halda da eyni ilə yuxarıdakı kimi çiçəyin təbii-bioloji xüsusiyyəti öz əksini bədii dildə tapıb. Şehçiçəyi əlvan rəngli, ətirli ləçəkləri ilə həşaratları cəlb edərək tələyə salır.

...Şehçiçəyinin qurbanları ləçəklər arasında sıxılaraq məhv olduğu kimi, «Sonu ölümsə də, gəl, qoynuna al» - deyən şair çiçəyin təbii-bioloji xüsusiyyətlərindən bu məqamda da məharətlə istifadə etmişdir. ...Bu üç bəndlik şeir tam olaraq çox gözəl bir bədii nümunə və söz dünyasında, ədəbiyyat aləmində yenilik kimi qəbul olunmalıdır. Bu günə qədər müxtəlif statuslu söz adamların ədəbiyyata gətirdiyi çoxlu çiçəklər; ağçiçək, bənövşə, nərgiz, yasəmən, lalə və s. olduğu halda Şehçiçəyi çiçəyini, kəlməsini ədəbiyyata ilk dəfə Zaur Ustac gətirib. Həm də bu elə-belə sadəcə söz, kəlmə kimi deyil, çiçəyin bütün təbii-bioloji xüsusiyyətləri nəzərə alınmaqla baş verib.

Şairin Şehçiçəyi çəmənlikdən dərilərək söz süfrəsini bəzəmək üçün gətirilən çiçəklərə bənzəmir. Əksinə, onun Şehçiçəyi ədəbiyyat bağçasında bitmiş, söz dünyasının dərinliklərinə rişələr atmışdır. Bu səbəbdən o, solmayan bir çiçəkdir. Şairin şeirin əvvəlində özünün qeyd etdiyi kimi:

***«Tacısan dünyamda tum çiçəklərin»***

Və ya ikinci bənddə:

***«Sağımda, solumda çox çiçək açar,***
***Pərvanəyə dönüb, dövrəmdə uçar,***
***Sərrafam, seçmişəm, dürr Şehçiçəyim….»***

Zaur Ustac özünəməxsus lirizmi və ədəbiyyat bağçasında solmayan bir çiçəyi olan şairdir. Onun müəllifi olduğu «Şehçiçəyim» şeiri təkdir və düşündürücüdür. O, bu şeiri yazmaqla ədəbiyyat aləminə yeni bir çiçək qazandırmış və söz dünyasını təkrarsız bir nümunə ilə bəzəmişdir».

Zaur Ustacın təkcə «Şehçiçəyim» şeiri deyil, «Matah çiçəyi», «Ağçiçəyim» şeirləri də düşündürücüdür, insanda təbiəti, təbiətdə insanı təcəssüm etdirmək baxımından təsirlidir, təsirli olduğu qədər də orijinaldır.

Filologiya elmləri doktoru, professor Vaqif Yusifli şairin Seçilmiş əsərlərinin birinci cildində yazmış olduğu «Ön söz»də Zaurun çiçəkləri haqqında öz fikrini belə ifadə edir: «……Zaur Ustac «Ağçiçəyim» və «Şehçiçəyim» şeirlərində özünün çiçək sevgisini mütləqləşdirir. Əslində o, bu çiçəkləri vəsf edirkən, metaforik bir üsula əl atır - əslində onun vəsf etdiyi çiçəklər gözəlliyin özüdür, təbiətin gözəllikə təcəssümüdür.

***Dümağsan, qar sənin yanında qara,***
***Tanrım rüsxət verib, baxmayıb qara.***
***Bu qarlı qış hara, tər çiçək hara,***
***Xoş gördük, günaydın, ay Ağçiçəyim!***

Şairin çiçəklərə olan sevgisi «…Onun «Matah çiçək» şeirində daha bariz nəzərə çarpır. «Matah» sözü burada sırf müsbət mənada işlənir və bütün çiçəklərə aid olur:

***Əzəldən ağ çiçək dedim,***
***Cəzbində Şehçiçək dedim,***
***Gözlədim, Balçiçək dedim,***
***Bərzəx ruha dağ, çiçəyim,***
***Ay mənim matah çiçəyim».***

…Şairin çiçəklərlə bağlı yazdığı şeirlərin hər biri Vətən sevgisindən, təbiət sevgisindən yaranıb. Bu şeirlərin hər biri insan-təbiət, təbiət-insan vəhdətini əks etdirir, insanın təbiətin bir «parçası» olduğunu göstərir. Bu şeirlər həm də onu göstərir ki, Zaur Ustac təbiəti dərindən-dərinə duyur və duyduqlarını şeirə gətirməyi ustalıqla bacarır.

Zaur Ustac şeirlərində dağların möhtəşəmliyindən də söhbət açır. Dağlara müraciətlə yazdığı hər üç şeir ürəyi ovsunlayır:

***Başında çalma tək, ta durmur duman,***
***Əynində qalmayıb nə kofta, tuman.***
***Lütlənib haçandır qalıb lüt-üryan,***
***Qarına qan düşüb, maya dağların…***

Şair bu misralarda dağların Qarabağlılarsız qalmasını təvir eləyir və kövrək misralarla oxucu ürəyini kövrəldir, göz yaşlarına qərq edir.

...Əli Rza Xələfli şairin dağlara həsr etdiyi şeirlərinə də münasibət bildirib və yuxarıda adını çəkdiyimiz məqalədə yazır: «...Zaurun təbiətdən doymazlıq təbiəti var: onun çölə, çöl təbiətinə, çaylara, göllərə, dağlara güzgü tutan çoxlu şeirləri var. Amma dağlar ünvanlı şeirlərində daha çox ictimai məzmun yer alır. 95-ci ildə Marağada yazdığı «Dağlar» şeiri var,

***Ustac bulud kimi dolub ağlamır,***
***Köksünün yarası qaysaq bağlamır.***
***Bir bilsən ruhunu nələr çağlamır,***
***Nə zaman doğacaq hilalın dağlar?***

Burada iki məqam var: Əlbəttə, hilal Azərbaycan bayrağına işarədir. Aypara anlamı daşıyır. 40-cı illərdə xalq şairi Rəsul Rza da cənubdakı hadisələrin hilalı nə vaxt gətirəcəyini bədii fonda «Hilal» poemasında verib. Zaurun da düşüncəsinin hansı qatındasa, mənəvi varislik baş qaldırıb və hilal obrazını mətnə gətirib.

***...Haqqa nisbət tutub ulu Ələsgər,***
***Andırıb, tanıdıb, bilib pərisgar.***
***Hər səngər məbəddi, pirdi hər əsgər,***
***Şuşa tək ocağın mübarək, dağlar!***

***Ay Ustac, min şükür arzuna yetdin,***
***«Dədən» gedən yolu, sən də qət etdin.***
***Dolandın dünyanı yurdunda bitdin,***
***Doqquzu zər tuğun mübarək, dağlar!***

...Vətəni, yurdu sevdirmək üçün şair birinci növbədə elə onun təbiət gözəlliklərini vəsf etməlidir. Bu «Dağlar» şeirini

o, 2021-ci ilin əvvəlində yazıb. Yəni II Qarabağ savaşında qələbədən iki ay sonra. Bəlkə də, bu şeiri ilə o, yuxarıda sadaladığımız qızıl zəncir boyu adları götürülən dəfələrə mənəvi borcunu qaytarır.

Zaur Ustacın təbiəti vəsf edən şeirləri onun ruhunun səsi kimi qavranılır. Hətta bir çox hallarda şeir özü canlı varlıq kimi oxucu ilə ünsiyyətə girir. Və oxucu istər-istəməz şairin yaratdığı obrazlara bağlanmış olur».

Məzmunlu və düşündürücü şeirlər yazan Zaur Ustac həm də gözlərimiz önündə bütöv bir mənzərə canlandıra bilir. Fikrimizin təsdiqi kimi bu şeirə müraciət edək və bu şeirdə payızın təsviri, mənzərəsi diqqəti cəlb edir:

***Sarı yarpaq gör nə gözəl,***
***Kimə güldü, kimə xəzəl.***
***Həzin-həzin, gözəl-gözəl,***
***Cıbrıq olan qozdu payız.***

Və yaxud bu misraları pıçıldayaq:

***Dağ-dərədə deyib-gülən,***
***Düzdə dolan gözdü payız.***

Bu misralarda gözlərimiz önündə kəndin payız fəsli canlanır. Şeirdə şair təbiəti sadəcə olaraq tərənnüm etmir, bir rəssam kimi sözlə təbiətin poetik rəsmini çəkir, təbiəti poeziya həqiqətinə çevirməklə insan-təbiət münasibətlərini açıb-göstərir.

Şairin yaradıcılığı ilə yaxından tanış olan hər kəs dərhal anlayır ki, onun poeziyasını təbiət mövzusu olmadan təsəvvür eləmək mümkün deyildir.

Təbiət mövzusu onun poeziyasında Vətən mövzusu ilə yanaşı «addımlayır». Onları bir-birindən ayırmaq, ananı

baladan ayırmaq demək olardı. Belə ki, Vətən həm də təbiətin özü olduğu kimi, təbiətin özü də elə vətənin özüdür.

*Tacısan dünyamda tum çiçəklərin,*
*Köksündən bal süzən, tər Şehçiçəyim…*
*Sehrinə düşmüşəm nur ləçəklərin,*
*Əqli başdan alan, zər Şehçiçəyim…*

**«Şehçiçəyim»**

Yuxarıda qeyd elədiyim kimi şair Vətəni dünyanı tacı saydığı kimi, tum çiçəklərin tacını da Şehçiçəyinin timsalında görür və Şehçiçəklə könül söhbəti «eləyir».

*Cəzbində qalmışam, tamam çar-naçar,*
*Sağımda, solumda çox çiçək açar.*
*Pərvanəyə dönüb, dövrəmdə uçar,*
*Sərrafam, seçmişəm, dürr Şehçiçəyim!*

Bəli, şair dünyaya da, hər gülə, çiçəyə də sərraf gözüylə baxır və ona görə də Şehçiçəyini çiçəklərin, Azərbaycanı da dünyanın tacı adlandırır.

Təbiət lövhələrini tərənnüm edən, gözlərimiz önündə canlandıran Zaur Ustacın poeziyasında şairliklə rəssamlığın doğmalığı özünü büruzə verir. Sözlə təbiətin şəklini çəkən şairənin şeirlərində bənövşə, yasəmən, Ulğun, Ağ çiçək, bülbül, bulaq, çay, dağ…və s. qırmızı xətlə gəlib keçir.

O, Vətən və təbiətlə bağlı şeirlərində ən ali hiss və duyğularını misralara hopdurur. Vətən-təbiət-məhəbbət üçbucağında əsas amil insandır - şairin lirik qəhrəmanıdır. Lirik qəhrəmanın vətənə və təbiətə məhəbbəti eynidir.

Təbiəti dərindən duyan, anlayan şair orijinal təşbihlərdən, bədii təsvir vasitələrindən istifadə edərək təbiəti daha da

canlandırmağa nail olmuşdur. Hava, təbiət, göz oxşayan mənzərələr onun şeirlərində sanki xoş ətir saçır və şair öz sevincini, kədərini təbiət vasitəsilə çatdırmağa çalışır.

Təbiət də canlı insan kimidir; onun da sevinci var, kədəri var, qayğıları var. Bu, həqiqətən belədir. Təbiət yazda «gülür», qışda «kədərə bürünür». İnsan kimi təbiət də ağlaya bilir. Məgər Səttar Bəhlulzadə «Kəpəzin göz yaşlarını» gözlərimiz önündə canlandırmayıbmı? Zaur Ustac da sözlə təbiətin şəklini çəkir, onun ağrı-acılarını, hiss və həyəcanlarını ustalıqla şeirlərində əks etdirə bilir. Bəli, təbiətdə insan hissini, insan duyğusunu arayan şair, təbiətə qarşı zorakılığa göz yuma bilmir. Təbiətin mühafizəsi problemi onu da dərindən düşündürür. O, həm də düşünür ki, təbiətə qəsd insanlığa qəsd deməkdir. Tənqidçi Mürşüd Məmmədovun yazdığı kimi «…Təbiətə qarşı zorakılıq insanlığın bu gününə və sabahına sui-qəsd demək deyilmi? Təbiətin mühafizəsi probleminin şeirimizdə ön plana çəkilməsi də bununla əlaqədardır. Müasir poeziyada təbiət insaniləşmiş şəkildə təsvir olunur. Bənövşə - utancaqlıq, kövrəklik rəmzi, dənizlər - insan kamalının və qəlbinin dərinlik və böyüklük, dağlar - ucalıq və əzəmət, palıd məğrurluq, yenilməzlik, meşələr - əbədi gənclik, tufan və şimşək - qəzəb və nifrət, şəlalə - sevinc, çiçəklər - zəriflik, incəlik, ceyranlar, cüyürlər - məsumluq, səma - ağlın genişlik simvolları kimi tərənnüm edilir».

Onun təbiət şeirləri böyük təsir gücünə malik olmaqla yanaşı, həm də təbiət vurğunu olan bir şair kimi onu oxuculara daha çox sevdirir. Bir çox şeirlərində təbiəti tərənnüm edən şair bir söz ustası kimi diqqəti cəlb edir.

Bəli, təbiətin özü bir poeziyadır. Belə olan halda təbiətlə poeziya bir yerdə dərk olunmalıdır, çünki təbiət gözəllikləri poetik hissin yaranmasında, poetik duyğuların dilə gəlməsində əvəzsiz rol oynayır.

Tənqidçi Yaşar Qarayev «Təbiət, poeziya və ekologiya» məqaləsində yazır: «…Əksər təbiət şeirlərində söhbət hələ ayrılıqda bir ceyranın, cüyürün, palıdın, bənövşənin taleyi haqqında gedir - insanın təbiətə və təbii gözəlliyə həssaslığı, ehtiramı, bəzən isə mərhəməti məzmununda gedir, halbuki günün problemi artıq «Mərhəmət və ehtiram» problemi deyildir, mənəvi-təbii bir sərvət kimi, insanın öz əxlaqi varlığına, öz təbiiliyinə və insaniliyinə sadiqliyi problemidir. Poeziyanı təbiət üçün həyəcanın harayına çevirmək lazımdır. Heç olmasa bir də ona görə ki, təbiətin taleyi poeziyanın özünün də taleyi məsələsidir. Poeziyanı və təbiəti, ikisini də yalnız bir yerdə sevmək və bir yerdə rədd etmək mümkündür». - Qeyd edək ki, Zaur Ustac da bir şair kimi poeziyanı təbiət üçün həyəcanın harayına çevirməyi bacarır və yaxşı bilir ki, təbiətin taleyi poeziyanın özünün də taleyi məsələsidir. Təkcə poeziyanınmı? Yox. Təbiətin taleyi həm də vətənin taleyi deməkdir. Təbiətin hər qara daşı, quru yarpağı, sınmış budağı… vətəndə olduğu üçün müqəddəsdir. Bu müqəddəsliyi qoruyub-saxlamağı bacarmalıyıq. Əgər hər daşa, hər yarpağa müqəddəs bir varlıq kimi baxmasaq, deməli, vətəni sevmirik. Vətəni vətən olduğu üçün sevməliyik.

Ana, Vətən, təbiət mövzusu ən müqəddəs mövzulardan biri kimi onu daha çox cəlb eləyir. Bu müqəddəs mövzulara yeni aspektdən yanaşan şair bir-birindən gözəl şeirlər yaradır, dərin, səmimi hisslərlə yoğrulan bu poeziya oxuculara yeni bir ovqat gətirir. Artıq öz üslubunu müəyyənləşdirən şair klassik və folklor şeirlərindən də bəhrələnərək yeni söz deməsilə seçilir, sənət zirvəsini fəth etməyə qadir olduğunu hiss etdirir.

Bəli, Zaur Ustacın təbiət sevgisi, vətənə, insanlara sevgisi deməkdir. Səmimi hisslərlə yoğrulan təbiət şeirləri öz mayasını saflıqdan tutmuş, bu müqəddəs hissləri yaşaya-

yaşaya həzin, axıcılıq dolu şeirlər yazmışdır ki, bu şeirlərin də bədii qüdrəti və dəyəri yüksəkdir.

Zaurun şeirlərindəki səmimilik, şirinlik, axıcılıq onun lirikasının özünəməxsusluğudur. Təbiəti poeziyadan, poeziyanı təbiətdən ayırmaq mümkün olmadığı kimi, onun ictimai-siyasi, qlobal məsələlərə göz yumması da mümkün deyil. Bu mənada şairin dağlara xitabən yazdığı üçüncü şeirdən bu misralar daha çox diqqətçəkəndir:

***Tarix səhnəsində yetişdi zaman,***
***Başlanmış bu çağın mübarək, dağlar!***
***Hələ nə zəfərlər gözləyir bizi,***
***Qutlanmış növrağın mübarək, dağlar!***

Bu şeirdə də şairin ruhi həyacanlarını, təbiətə məhəbbətini, vətənin erməni işğalından azad edilməsini tam şəkildə ifadə etmək qüdrətini görürük. «Qurtuldu yağıdan zənburun, balın», - deyən şairin sevinc duyğuları aşıb-daşır və o, insanları dağlar qoynuna çağırır. Şeir uğurlu alınıb və biz bu şeirdə həm dağların özünü görürük, həm də şairin həyəcanını duyuruq.

Şair bu şeirində dağların «halını, vəziyyətini, sevincini»… poeziya lövhəsinə ustalıqla çevirə bilir. Və bu lövhələrdə bədii vasitələr fırça işini görür, məhz ona görə də təsirlidir, emosionaldır.

O, həyəcanla Şuşanın da azad olunması münasibətilə dağlara «gözaydınlığı» verir. Bu misraların özü də oxucunu həyəcana gətirir…

***Hər səngər məbəddi, pirdi hər əsgər,***
***Şuşa tək ocağın mübarək, dağlar!***

***

Zaur Ustac  Azərbaycanı qarış-qarış gəzmiş, hər yola, hər cığıra bələd olmuş, vətənin gündüşməz meşələrini, dişgöynədən bulaqlarını, yayda da zirvəsində qarı əriməyən dağlarını, şehli çəmənlərini… sevərək, bu sevgi hisslərini, duyğularını qələmə almışdır.

Şair təbiəti sevməsəydi, onun gözəlliklərindən ilham almasaydı aşağıdakı səmimi, həzin misraları necə yaza bilərdi? Yaza bilərdimi?

***…Arzular çəhrayı boyanıb bu gün,***
***Diləklər Günəşlə oyanıb bu gün,***
***Çiçəklər yollara dolanıb bu gün,***
***Ana duasıdır yulğun çiçəyi.***

***Ustac çiçəklərin dostu, sirdaşı,***
***İydə çiçəyinin olub yoldaşı.***
***Yulğun da, iydənin olsun qardaşı,***
***Cəngi nidasıdır yulğun çiçəyi.***

Şeirdə yulğun çiçəyi iydə çiçəyinin yoldaşı, şairin isə dostu, sirdaşı kimi qələmə verilib və çiçəklərin yollara dolanması uğurlu bir tapıntı kimi diqqət çəkir. Bu bənzətmə, bu poetik obraz oxucunun ruhunu oxşayır, qəlbini duyğulandırır.

Göründüyü kimi şair təbiəti bədii şəkildə, lövhələr vasitəsilə əks etdirməyi bacarır. O, bir sənətkar kimi həm də sözlərin musiqisinə, tələffüz gözəlliyinə, ahəngdarlığına xüsusi fikir verir. Musiqi və ahəngdarlıq şeirin təsir gücünü daha da artırır.

«Matah çiçək» adlı şeirdə də bədii təsvir vasitələrindən bacarıqla istifadə edən şair «Aç sinənin barın göstər» deyərək poetik bir obraz yaratmışdır. Bir-birini tamamlayan misralar, bəndlər arasında daxili, məntiqi əlaqələr, hər sözün, hər misranın yerində olması, eləcə də poetik ifadələr

həm diqqətdən yayınmır, həm də şeirin təsir gücünü daha da artırır.

Şair baharın ilk gəlişini «Matah çiçək» və «Bənövşə»» şeirlərində bədii boyalarla verməyə çalışmış və məqsədinə nail olmuşdur.

Şairin lirik qəhrəmanı ilə təbiət arasında bir doğmalıq, yaxınlıq olduğunu görürük. Həm də görürük ki, o təbiəti sevir, təbiətə biganə deyil. O təbiəti qorumağa çağırır. Bəli, təbiəti qorumaq üçün onu sevmək lazımdır. Ərz elədiyim kimi Zaur Ustac təbiəti sevir və bu sevgi onun canındadır, qanındadır. Bu sevgi onun ruhuna hopub.

***

Zaur Ustacı təbiətdən kənarda təsəvvür etmək çətindir. Azərbaycan təbiəti sanki onun ürəyinə «köçüb». O, təbiətlə nəfəs alır. Təbiətlə nəfəs almaq vətənlə nəfəs almaq, vətənlə ağlayıb, vətənlə gülmək deməkdir.

Vətənlə ağlayıb vətənlə gülən şairin «Bayraq bizim bayrağımız» şeirinə bir daha müraciət etmək, şairin vətən sevgisi haqqında Dünya Talantları Beynəlxalq Birliyinin üzvü Cahangir Namazovun «Həftə içi» qəzetində çap etdirdiyi «Milli dəyərləri qoruyan şair» məqaləsindən bir parçanı diqqətə çatdırmaq istəyirəm: «……Zaur Ustacın «Bayraq, bizim bayrağımız» şeirind, Azərbaycan bayrağı və onun dalğalanması milli mübarizənin simvolu kimi təqdim edilir.

***Üstündən yüz Araz keçsin,***
***Torpaq, bizim torpağımız! -***

Misraları Azərbaycanın hər iki tərəfinə olan məhəbbəti və həmçinin Araz çayının sərhəd kimi təcəssüm edilməsi millətə aidiyyat hissinin güclü təzahürüdür. Şeirin hər misrasında torpaq və bayraq, bir millətin birlik və bütünlüyünün əks-

sədası kimi vurğulanır. Ustac burada həm də Azərbaycan Azərbaycan xalqının coğrafi sərhədlərindən asılı olmayaraq, Vətən sevgisini göstərməkdədir.

…»Sevin, a Təbriz!» şeirində isə Azərbaycanın güneyindəki Təbriz şəhərinə olan mənəvi bağlılığı ifadə edir.

…Şeir Təbrizə olan sevgini və burada yaşanan ayrı-seçkilikləri əks etdirir. Ustac burada həm də bir çağırış edir, bu dəfə biryolluq bitəcək olan ayrılıqlara.

«Nə güzəşt olacaq, nə də ki, aman!»-deyərək, milli birliyin vacibliyini vurğulayır».

***

Zaur Ustacın təbiətə, vətənə olan sevgisi bütün sevgilərin birincisidir. O, Vətən yolunda hər əzaba, məhrumiyyətlərə dözməyə hazırdır. Bunu şair qələmə almasa da, Vətən yolunda canından keçməyə belə hazır olduğunu misralarında «boy göstərən» duyğulardan hiss olunur. Hiss olunur ki, onun üçün hər qarış torpaq vətənin bir parçasıdır. O, təbiəti, vətəni elə ürəklə, saf və şirin dillə vəsf eləyir ki, bu da onun vətənpərvərliyindən, vətən sevgisindən, humanist istəklərdən irəli gəlir. Vaxtilə Qulu Xəlilov yazırdı: «…Vətənpərvərliyin, vətəndaşlıq lirikasının ayrılmaz bir hissəsini humanizm təşkil edir. Humanizm işığı ilə yanmayan bir ədəbiyyat həqiqi ədəbiyyat deyil. Biz fəxr edə bilərik ki, bu motiv ədəbiyyatımızda həmişə qüvvətli olmuşdur. Humanist münasibətlərin, davranışların təsviri müasirliyin əsas cəhətlərindən biridir. Adamlarımızda yaranan bu yeni keyfiyyətləri duymaq, əks etdirmək lirikamızın şərəfli vəzifəsidir. Humanizm qəlbin zənginliyi, naturanın böyüklüyü, fikrin, əqlin düzgün inkişafı deməkdir».

…Zaur Ustac bir çox şeirlərini insan və Vətən haqqında nəğmələr adlandırsaq, səhf etmərik, çünki Vətən və insan

məfhumu onun yaradıcılığında daha geniş əhatə olunub. Bəli, onun hər şeirindən, hər misrasından insan nəfəsi gəlir, Vətən havası, təbiət qoxusu gəlir. Duyğusuz və həyəcansız oxuya bilmədiyimiz bu şeirlərdə həyatın mənası duyulur. Axı Vətən olmadan həyatın mənası da olmaz. Təbiət özü elə Vətən deyilmi? Vətənin və təbiətin vəhdət halında təcəssüm etdirilməsi şairin həyata fəlsəfi baxışından irəli gəlir.

Onun təbiət ətirli şeirlərini oxuduqca qələmindən nur kimi süzülən vətəndaş sevgisini duymamaq olmur. Onun sevgisi, həm də vətənə, təbiətə olan sevgisidir. Vətənə, təbiətə həsr olunmuş şeirlərin hərəsi bir təbiət mənzərəsinin, bir Vətən sevgisinin bədii əksidir. Bu şeirlərdə Vətən, təbiət nə qədər gözəl təsvir edilsə də, Vətən və təbiət məfhumu yenə də insanla bağlıdır. O, təbiətə vurğunluğunu, vətənə sevgisini ən ali duyğularla ifadə etsə də, yenə də insansız Vətən yoxdur, insan yoxdursa, təbiətin gözəlliyindən kim zövq alacaq? İnsan olmayan yerdə gözəllik kimə lazımdır? Bu gözəlliyin bir mənası varmı?

***

Gördüklərini, duyduqlarını nəzmə çəkən, ürəyi ülvi duyğularla döyünən şairin vətənə, təbiətə, insanlara məhəbbəti birtərəfli səciyyə daşımır, öz hərarətli düşüncələrini hərtərəfli ifadə edir və hər şeirində müasirlik duyğusu hiss olunur.

Sözə, təsvir və ifadə vasitələrinə qayğı ilə yanaşan sənətkar duyğu və düşüncələrini aydın və təbii bir şəkildə oxuculara çatdıra bilir. Onun təsvirində təbiət daha da gözəlləşir və bu gözəllik önündə heyrətlənməyə bilmirsən.

Öz istedadından, yaradıcılıq imkanlarından bacarıqla istifadə edən, adi bir hadisəni belə mənalandıran, söz və rəngləri həssaslıqla seçən Zaur Ustac şeirlərində rənglərin fikir tutumunun genişliyinə, sözün düzümünə və ifadəliliyinə

həssaslıqla yanaşdığına görə şeirləri oynaqlığı ilə diqqəti çəkir və bu da onu göstərir ki, o heç vaxt şeir xatirinə şeir yazmır.

Şairin şeirlərində təbiət də insan kimidir; düşünür, xəyala dalır, fikrə gedir, sevinir, gülür. Zaurun təbiət lirikasında söz və detal çox zaman rəmzi məna daşısa da, müəyyən bir fikrin daha kəskin, daha sərrast bədii icrasına xidmət edir.

F.Engels vaxtilə yazmışdır: «Təbiət üzərindəki qələbələrimizlə çox da öyünməyək. Hər bir belə qələbə üçün təbiət bizdən intiqam alır». - Bu, həqiqətən belədir. Gəlin unutmayaq ki, insan özü təbiətin bir parçasıdır. Bizdə ən yüksək insani hisslər və duyğular tərbiyə edən təbiətə qarşı amansız olmamalıyıq. Axı təbiət həm də güclü emosiyalar mənbəyi, rənglər səltənətidir. Təbiət həm də oksigen mənbəyidir. Məhz ona görə də təbiətin mühafizəsi probleminin Zaur Ustacın da yaradıcılığında ön plana çəkilməsi təsadüfi deyiil. Təbiəti insaniləşmiş şəkildə təsvir edən şair həssas vətəndaşlıq narahatlığını büruzə verir.

Vaxtilə Səməd Vurğun yazırdı:

***«Bizdə təbiətə zülm edənlərin***
***Nə insan duyğusu, nə də haqqı var».***

Zaur Ustac bir vətəndaş kimi, şair kimi Vətən gözəlliyinin keşiyində dayanıb. Bu onun vicdan saflığından, təmizliyindən, vətənə əsl övlad olmasından xəbər verir. Onun vətənlə, təbiətlə bağlı olan şeirləri zərif bədii naxışlarla bəzədilir, insana sevinc gətirir, qəlbini fərəh notları ilə doldurur.

Qışın qarı, baharın bənövşəsi, günəşin şəfəq saçması, dalğaların şahə qalxması, qayaların sükutu, çiçəklərin donmuş təbəssümü, payızın qızıl donu, qarın yağması…

poetik bir dillə elə təsvir edilir ki, daş ürəkli insan belə xeyirxah olur, yaxşı işlər görməyə can atır.

Zaur Ustacın Vətən və təbiət şeirləri məhəbbət, səadət, gözəllik kimi əbədi mətləblərdən xəbər verir. O çox zaman təbiətdən insanların mənəvi cəhətdən saflaşması, zənginləşməsi üçün yararlanır, çünki o, təbiəti hiss edir, başa düşür, hər daşını, hər qarış torpağını, gülünü, çiçəyini «oxuya» bilir. Təbiəti dərindən duya bilən şair, insanların ürəyini də yaxşı duyur, çünki təbiət insandan, insan da təbiətdən ayrılmazdır.

O, təbiəti yalnız təsvir etmir, həm də təbiəti bütün əlvanlığı ilə duymaqda oxucunu heyrətləndirir. Yuxarıda ərz elədiyim kimi o, təbiətdən yazanda vətəndən, vətəndən yazanda təbiətdən yazır. Onun Vətən duyğulu şeirləri, elə təbiət ətirli şeirlərdir.

***

Vətən, təbiət, dünya və insan barədə öz poetik düşüncələri olan Zaur Ustac ərz etdiyim kimi gözəllik vurğunudur. O, gözəlliyi şeirlərində əbədiləşdirərək gözəllik qarşısında estetik həyəcanını misralara hopdurur. Dünyaya və gözəlliyə heyran kəsilən şair hərdən özü də təbiətin bir parçasına çevrilmək istəyir, çünki dağlar, meşələr, şehli çəmənlər, kol dibində bitən bənövşələr, nəğmə deyən bulaqlar…onu buraxmaq istəmir, xalq şairi Zəlimxan Yaqubun təbirincə desək şair «ölüb bu yerlərdə qalmaq» istəyir. Onun təbiət şeirlərində təbii peysaj detalı olan obrazlar çoxluq təşkil edir. Bu obrazlar həm də ümid və inam ifadə edir, mənəvi məzmun ifadə edir. Bu obrazlar içində bulaq, dağ, çay, meşə, ağac, çiçək və s. detallar daha çox seçilir. Bu obrazlar sanki «dil açıb» danışır və onların «danışığını» şair ustalıqla qələmə alır. Bu da təsadüfi deyil. Axı çiçəklər şairi «ruhunun yelləncəyidir».

*Çiçəklər ruhumun yelləncəyidir,*
*Ruhumu asmışam nar çiçəyindən.*
*Arzular dünyamın gələcəyidir,*
*Arzumu tutmuşam bar çiçəyindən.*

**«Yelləncək»**

Arzusunu bar çiçəyindən tutan şair «Sübh çağı» şeirində təbiəti gözlərimiz önündə belə canlandırır:

*…Qəfil başlayır quşlar,*
*Necə gəlirsə buyruq.*
*Sanki komanda verir,*
*Gözəgörünməz çubuq.*

*Bürüyür bircə anda,*
*Hər yanı sübh nəğməsi.*
*İfa edir təbiət,*
*Əsər Tanrı bəstəsi.*

*…Uzaqda dan sökülür,*
*Gecənin rəngi qaçır.*
*Yaxında pur tumurcuq,*
*Qətran ətrini saçır.*

***

Təbiət şeirləri oxucunun da qəlbinə kövrək bir həyəcan gətirir. Təbiətə vurğunluq vətənə, xalqa vurğunluq deməkdir. Şair vətəni sevdiyi kimi, xalqı da sevir. Onun şeirlərində bulaq səsi, çiçək təravəti, bahar nəfəsi, payız havası…əks-səda tapdığı kimi, vətən məhəbbəti, xalq məhəbbəti də öz əksini tapa bilir.

Ana təbiətin doğma qoynunda ana vətəndən yazmağın özü də xoşbəxtlikdir. Bu xoşbəxtliyi yaşayan Zaur Ustac vətən torpağında açan çiçəklə, güllə, dağlarla bir dost kimi həmsöhbət olur:

*Hər günaydın, bir pərvəriş,*
*Vuruşmuşdu tağ, çiçəyim.*
*Ruhum düşdü xoş növrağa,*
*Günüm oldu ağ, çiçəyim.*
*Ay mənim matah çiçəyim,*
*Ay mənim matah çiçəyim…*

**«Matah çiçək»**

Və yaxud:

*Xətai qırmadı könül bağını,*
*Nadir unutmadı hicran dağını.*
*İlhamın silahı əzdi yağını,*
*Dəmirdən yumruğun mübarək, dağlar!*

Dörd misrada şərəfli keçmişimizi, 44 günlük Vətən müharibəsini gözlərimiz önündə canlandıran Zaur Ustac Azərbaycanın üç böyük sərkərdəsinin - Şah İsmayıl Xətainin, Nadir şah Əfşarın və müzəffər Ali Baş komandan - prezident İlham Əliyevin adını çəkməklə onlara ehtiramını ifadə eləyir.

Öz ruhu, öz nəfəsi ilə oxuculara doğma olan şair ən dəyərli şeirlərini anaya, vətənə, təbiətə, insana həsr edib. Onun Vətən, təbiət şeirləri, eləcə də anaya, insanlara vurğunluq duyğuları, hissləri, eləcə də doğulduğu yer, udduğu hava, içdiyi su, keçirdiyi uşaqlıq illəri, könlü doymadığı Vətən mənzərələri… oxucunun qəlbində gözəl ovqat yaradır, ürəyini işıq selinə bürüyür.

Qarabağa köklənən ruhu ilə Azərbaycan təbiətinin,

Azərbaycan insanının, Azərbaycan anasının poetik obrazını yaradan Ustac təbiətin rəngini, rəng çalarlarını şeirlərinə köçürərək əsl təbiət şeirlərilə təbiəti sevdirməyə nail olur.

Təbiətin nə qədər cazibədar və əvəzsiz olduğunu, nə qədər zəngin və rəngarəng olduğunu şairin şeirlərində bir daha görə bilirik. O, təbiəti sadəcə olaraq təsvir etmir, həm də təbiətin musiqisini, fəlsəfəsini duyur, qəlbindən gələn ülvi, səmimi hissləri kağıza köçürür.

Vətən və təbiət haqqında həm təbii, həm də poetik misralar yaradan, özünəməxsus poetik düşüncə dünyasına malik olan Zaur Ustacın ürəyi təbiətlə birgə döyünür:

***Çox da ki, həsrət acıdı,***
***Hər kəlməsi bal çiçəyim!***
***Ayrılıq dişin qıcadı,***
***Yetdin dada, Balçiçəyim!***

***Səhv düşmüşdü sübhü, şəri,***
***Xəstəhaldı tum günləri.***
***Zaurun tək ümid yeri,***
***Dərdə dərman, Balçiçəyim!***

Bu, adi şeir deyil, poetik portretdir və bu portretdə doğma Azərbaycan təbiəti qarşısında canlanır. Çox tutumlu, canlı, real və təbii olan bu bədii portretdə şair həm də hiss və duyğularını tərənnüm etmişdir.

# KÖVRƏK QƏLBİN DUYĞULARI VƏ YAXUD EŞQ İMANDAN GƏLƏR

Çağdaş zamanın fəlsəfi düşüncələrini şeirlərində əks etdirən Zaur Ustacın yaradıcılığı ilə daha yaxından tanış olduqca onu da hiss edirdim ki, o, sözün qayğısını çəkən, sözü havayı işlətməyən, sözün taleyini düşünən imza sahibidir. O, şeirlərində fikir və düşüncələrini qısa və konkret qələmə alır, uzunçuluğa yol vermir, az sözlə böyük mənalar ifadə edir. Bu yerdə məşhur yazıçı U.Lentsin dediyi sözləri xatırladım: «Gəlin, mümkün qədər qısa yazaq, onsuz da həyatda söz əlindən tərpənmək mümkün olmur». - Haqlı fikirdir və Zaur da qısa yazır, amma mənalı yazır. Onun elə şeirləri var ki, orada romanlara sığmayan fikirlərə rast gəlmək mümkündür. O, həm də sadə yazır, mücərrəd fikirlərdən, anlaşılmayan ifadələrdən istifadə etmir. Şairin hər şeirində hissin, ovqatın, duyğuların müasirliyi orijinal təsir bağışlayır. Ötən əsrin 90-cı illərində yazdığı şeirləri sanki bu gün qələmə alıb və həmin şeirlərdə şairin çırpınan ürəyini görmək mümkündür.

***Xoş baxışlı, xoş duruşlu ceyranım,***
***Söylə mənə, niyə elə baxırsan?***
***İlk istəyim, son məqsədim, amalım,***
***Söylə, mənə niyə elə baxırsan?***

***Soruş nələr, oxunmayır gözündə,***
***Bu baxışda sevinc də var, kədər də.***
***Baxışında vüsal da var, həsrət də,***
***Söylə, mənə niyə elə baxırsan?***

**«Niyə elə baxırsan?»**

Şair sevdiyi gözəlin baxışlarından onun niyə elə baxdığını duysa da, yenə verdiyi sualın cavabını onun özündən eşitmək istəyir. Axı qızın baxışlarında sevinc də var, kədər də, vüsal da var, həsrət də. Bun ə həsrətdir, görəsən?

Şeirdən də göründüyü kimi aşiq təmiz ürəklə, saf məhəbbətlə sevir və onun məqsədi yarına qovuşmaq, onunla birlikdə ömür sürməkdir.

Zaurun sevgi şeirləri daha çox diqqəti cəlb edir ki, bu da səbəbsiz deyil. Onun ürəyi ülvi məhəbbətlə, təmiz, saf sevgiylə döyünür.

Sevgi ölməzdir, məhəbbət həmişə təzədir, yenidir və məhəbbət duyğuları insanın son gününə kimi ölmür, yaşamaqda davam edir.

Ustac vətənpərvər şair olduğu kimi, həm də məhəbbət şairidir. Məhəbbət şairi olmadan vətənpərvər şair olmaq mümkün deyil. Vətənə sevgi elə anaya sevgi deməkdir. Ana qadındır. Hər bir qadın sevgiyə, məhəbbətə layiqdir. «Sevgisiz dünyanın dəyəri olmadığı kimi (M. Füzuli) sevib-sevilməyən insanın da dəyəri ola bilməz.

Bəli, Zaurun sevgi şeirlərini oxuduqca onun sözə gələn duyğuları, misralara hopan hiss və həyəcanları ilə tanış olduqca, düzü, heyrətlənməyə bilmirdim. Məni heyrətləndirən onun sevdiyi gözələ saf, təmiz məsum uşaq gözüylə baxmağı bacarması idi. Onun duyğularının bulaq suyu kimi duru, dağ çiçəyi kimi kövrək və gözəl olduğunu hiss edirdim. Hiss edirdim ki, şairin qəlbində sevdiyi gözəldən başqa bir kimsə yoxdur.

Əsl sevgi ən zəngin və əvəzolunmaz bir sərvətdir. Zaur bu sərvətin yiyəsidir. Və mən bu sərvət yiyəsinin sevgi şeirlərini oxuyandan sonra şairi yenidən «kəşf elədim». Eşq də, məhəbbət də belədir. Eşq həyatı, dünyanı daha yaxından tanımaq üçün bizə güc verir, qüvvət verir.

Sevməyən, sevilməyən insan ölü kimidir, onun heç bir dəyəri yoxdur. Sevginin ən böyük faydası insanı həyata

bağlamasıdır. Həyata bağlanmadan yaşamaq mümkün deyil. Zaur həyat eşqi ilə yaşayır, çünki sevir. Sevməyin özü də bir qismət işidir. O, həm də təkcə Zaur kimi yox, Məcnun kimi, Kərəm kimi sevir.

***…Güldən ayrılalı, bülbül qan ağlar,***
***Eldən ayrılalı gözüm saralar.***
***Yardan ayrılalı qəlbim daralar,***
***Gülzarımdan mənə xəbər göndərin.***

***Eşq oduna alışıram, yanıram,***
***Həsrətinlə çırtaçıt qovruluram.***
***Eldəkilər, hali olun Zauram,***
***Sirdaşımdan mənə xəbər göndərin.***

**«Bir xəbər»**

Yardan aralı düşən aşiqin gözləri qan ağlayır. O, bülbül kimi nalə çəkir, yarın həsrətindən yanaraq qovrulur və üzünü eldəkilərə tutub onların da aşiqin halından xəbər tutmasını istəyir. İstəyir ki, onun eşq dərdini bilsinlər və ürək yarasına məlhəm olsunlar. Aşiqin ürək yarası, ancaq sevdiyinə qovuşandan sonra sağala bilər. Həsrət çəkən, alışıb-yanan şair sevdiyi üçün darıxır, bir yerdə qərar tuta bilmir.

Eşqin kodu darıxmaqdır. Zaur harada olursa-olsun, haraya gedirsə-getsin sevdiyi gözəl üçün darıxır. Bu darıxmaq, bu həsrət onun 30-35 il öncə yazdığı sevgi şeirlərində daha çox özünü göstərir.

***Yolunda can qoydum, sən tək gözəlin,***
***Neyləyim, əllərin çatmır əlimə.***
***Yaman darıxmışam sənsiz nazənin,***
***Səni görmək düşüb yenə könlümə.***

**«Görüş həsrəti»**

Görüş həsrətilə alışıb-yanan şairin gözləri yollarda qalıb, yarın hüsnünü görmək istəyir və elə bu istəklə də «əllərim əlinə uzalı qalıb» - deyə fəryad qoparır. O, yarı görməsə də, özünü onunla bir yerdə hiss eləyir, qəlbinin həmişə yarla birgə olduğunu bildirir. «Darıxıram» şeirində həsrət duyğuları daha qabarıq şəkildə özünü büruzə verir:

***…Sən demə ki, aşiq uzaq yerdədi,***
***İnan, qəlbim həmişə səninlədi.***
***Sən hardasan, Zaur həmən yerdədi,***
***Sənsiz yaman darıxmışam, güləndam…***

Düşünürəm ki, Zaur 30-35 il öncə dəlicəsinə sevməsəydi, bu gün tanınmış şairlərdən biri kimi tanınmazdı. Bəli, onu eşq şair elədi. Eşq hər kəsi şair eləyə bilməz. Şairlik bir tale qismətidi. Şairlik Tanrı vergisidi. Şair anadan şair doğulur. Sadəcə olaraq əsl sevgi hissləri şairlik duyğularını yerindən tərpədir, necə deyərlər, mürgülü duyğuları oyadır.

Deyirlər ki, ədəbiyyat - eşqin ən güvənilən sığınacağıdır. Əsl sənət əsərləri də eşqdən, məhəbbətdən «yoğrulur». Sevməsən, yaza bilməzsən. Zaur da sevərək yazır, sevə-sevə yazır və əsl sevgi şeirləri yazır.

Eşq elə bir duyğudur ki, öz-özünə alışıb yana bilir. Alışıb-yanan kimi də iç dünyamızı ağappaq işıq selinə qərq eləyir. Mən bu ağappaq işıqda Zaurun məhəbbət şeirlərini oxudum və o dəqiqə anladım ki, şair hələ orta məktəbdə oxuduğu illərdə eşqlə üz-üzə gəlib və eşqə «təslim» olub. Və bu «təslimçilik» dən sonra o, məhəbbət şeirləri yazmağa başlayıb.

Haradasa oxumuşam ki, eşq-insan ruhunun sonsuzluğa açılan qapısıdır. Gəlin sonsuzluğa açılan bu qapını açaq və şairin sevgi dünyası ilə tanış olaq. Bu tanışlıqdan sonra onu da biləcəyik ki, eşq özü bir yaradıcılıqdır. Eşq olmadan bir-

birindən gözəl, mənalı və oxunaqlı məhəbbət şeirləri yazmaq mümkün deyil.

İndi isə gəlin şairin sevgi dünyasına səfər eləyək! Səfərimizin ilk anlarında bizi «Məhəbbət» şeiri «qarşılayacaq».

***Məhəbbət əbədi duyğu,***
***Duyğuların ən zərifi.***
***Bu duyğu yaman həssasdır,***
***Tez duyar incikliyi…***
***Məhəbbət, sonsuz ehtiyac,***
***Ehtiyac, heç vaxt azalmaz.***
***Həmişə kiməsə möhtac,***
***Məhəbbətsiz heç nə olmaz!***

Şeir 1990-cı ildə şairin dünyaya göz açdığı Yusifcanlı kəndində qələmə alınıb. «Məhəbbət» şeirini Zaurun sevgi şeirlərinin «açarı» adlandırsaq, düşünürəm ki, səhv etmərik. İki bəndlik şeirdə şair «sevginin düsturunu» göstərib və gənc olmasına baxmayaraq eşq, sevgi haqqında müdrik qocalar kimi fikir söyləyir. Doğrudan da məhəbbət sonsuz ehtiyacdır. İnsanın həmişə, hər an sevgiyə, məhəbbətə ehtiyacı olur. Məhəbbət həm də qayğı deməkdir. Hər kəs qayğıya möhtacdır.

Məhəbbət duyğusu ən incə, ən zərif, ən həssas duyğudur. Məhəbbət duyğusu ilə oynaman olmaz. Şair haqlı olaraq yazır ki, məhəbbətə, sevgiyə olan ehtiyac heç vaxt azalmaz. Məhəbbət olmasa günəş də şəfəq saçmaz, ağaclar da çiçək açmaz…

Azərbaycan poeziyasında ən çox işlənən və müraciət olunan mövzulardan biri də sevgidir, saf və ülvi məhəbbətdir. Sevgidən yazmayan, məhəbbət hisslərini, duyğu və həyəcanlarını tərənnüm etməyən şair tanımıram, varsa da eşitməmişəm.

Eşqin, məhəbbətin ən böyük tərənnümçüsü Nizamidir, Füzulidir…Onlar təkcə Azərbaycanın deyil, dünya ədəbiyyatının ən böyük və əvəzedilməz aşiq-şairidirlər…

Müasir Azərbaycan poeziyasında özünəməxsus yeri olan şair Zaur Ustac yaradıcılığında da sevginin tərənnümü diqqəti cəlb edir. Onun sevgi şeirlərində yaşanan hisslərin, duyğuların təsirini ürəyimizdə hiss edirik, ürək döyüntülərinin səsini eşidirik. Qeyri-təbiilik, süni notlar onun sevgi şeirlərinin ruhuna yaddır. O, nə yazırsa, ürəyinin hökmüylə yazır, ürəyinin səsini qələmə alır. Ona görə də şeirləri təsirlidir, məftunedicidir, ruha xoş gələndir. Hiss-həyəcanlarını, fikir və düşüncələrini poetik bir dillə ifadə edən şairin sevgi lirikasının iki qəhrəmanı var: qəlbi eşqlə döyünən aşiq və onun sevgili xanımı. Zaur yazdığı sevgi şeirlərində də uğur qazana bilib. Onun sevgi şeirləri ilə yaxından tanış olandan sonra istər-istəməz böyük şairimiz Səməd Vurğunun məqalələrinin birində yazmış olduğu bu fikirləri xatırladım. Unudulmaz şair yazırdı: «Məhəbbətin hakim olduğu ürəklər yağışdan sonra açılmış şəffaf və ləkəsiz bir yaz səmasını xatırladır ki, orada yalnız al-əlvan şəfəqlər, təravət və qüdsiyyət görünür. Məhəbbət insan qəlbini süzgəcdən keçirir, zərərli hisslərdən təmizləyir, yaşamağın mənasını gözəlləşdirir, insanı xeyirxah olmağa dəvət edir. Bir kişinin bir qadına sevgisindən başlayan məhəbbət ülvilik zirvəsinə qədər ucalır». - Zaur Ustacın sevgi lirikasının mahiyyətini izah etmək üçün, fikrimizcə, böyük Səməd Vurğunun bu sözləri yerinə düşür.

Şairin məhəbbət lirikasında saf, təmiz məhəbbətdən danışılır, əsl sevgi poetik bir dillə tərənnüm edir. Həzin, lirik duyğular, intizarlı dəqiqələr, ayrılıq iztirabı, romantik yaşantılar onun şeirlərinin əsas qayəsini təşkil edir.

Şairin sevgi şeirlərində insan qəlbinin ən həzin və həssas cizgiləri, duyğu və həyəcanları, ürək çırpıntıları böyük

sənətkarlıqla ifadə edilmişdir.

Onun məhəbbət şeirlərində insanın könül dünyasındakı kövrəklik, saflıq, ülvilik, duyğu və düşüncə gözəlliyi bədii şəkildə tərənnüm edilmiş, ürək çırpıntıları, hiss-həyəcanları böyük həssaslıqla qələmə alınmışdır. «Gülüm» qoşmasında şairin hiss-həyəcanları daha çox diqqəti çəkir:

***Gözlərim yoluna baxar, sevgilim,***
***Göz yaşım sel kimi axar, sevgilim,***
***Arzular Günəş tək doğar sevgilim,***
***Yadıma düşəndə o günlər gülüm!***

***Elə hey görüşə can atır ürək,***
***Qəlbimdə oyanır türbətür istək.***
***Bilmirəm nə edim, necə görüşək?***
***Həsrətdən yaxamız qurtarsın, gülüm.***

Şeirdən də göründüyü kimi həsrət aşiqin yaxasından bərk-bərk «yapışıb», əl çəkmək istəmir. Əl çəkməsə, həsrət aşiqi «öldürəcək», amma aşiq ölmək istəmir, vüsala yetmək istəyir və elə bü ümidlə də sevdiyi gözələ müraciət edir:

***Arzular min cürə, istək qədərsiz,***
***Bir günüm ötməyir inan kədərsiz.***
***Heç düşmən olmasın yenə, ümidsiz,***
***Ümidim gələcək günədir, gülüm.***

Şeirlərində həzinlik, kövrəklik sezilən, misraların düzümündəki axıcılıq, deyim tərzindəki şirinlik… Zaur poeziyasının ən gözəl məziyyətlərindən hesab olunur. Bu baxımdan ürəyəyatımlı «Dilbərim» şeiri diiqqətdən yayınmır:

*Ay gözəl, amandır getmə, dayan bir,*
*Sinəmdə çırpınan ürək sənindir.*
*Məhəbbət quyusu yaman dərindir,*
*Dibinə çatmayır neynim əllərim,*
*Gülərüz, şirinsöz, qəşəng dilbərim!*

Sanki şeir oxumursan, tanınmış bir müğənninin ifasında «Dilbərim» mahnısını dinləyirsən. Şeir o qədər axıcı, cəzbedicidir ki, heyrətlənməyə bilmirsən.

Şairin «Duymadın» şeiri də bu qəbildəndir:

*Sən məni duymadın, niyə bilmirəm,*
*Arzular, duyğular puç oldu niyə?*
*Bil, məni məhv etdin sən bilə-bilə,*
*Sən məni duymadın, duya bilərdin.*

*…Məni duymaq üçün sevmək lazımdı,*
*İncə təbiətli gözəl lazımdı.*
*Bir geniş ürəkli sirdaş lazımdı,*
*Sən ola bilərdin, ola bilmədin!*

Aşiq sevdiyə gözələ eşqindən şikayət eləmir, sadəcə olaraq incə, şirin və səmimi sözlərlə fikrini bildirir. Və haqlı olaraq «Məni duymaq üçün sevmək lazımdı» - deyir. Aşiqin ürəyini duymadan məşuq, məşuqun ürəyini duymadan aşiq sevə bilməz. Sevsə də bu sevgi olmaz, ötəri, keçici hiss olar, duyğu olar. Şair də «Duymadın» şeirində məhz bunu demək istəyir. O, həm də «sən məni niyə duymadın?» sualına cavab istəyir. Diqqətli oxucu şeirin özündə cavabın «gizləndiyini» görür…

*Ay olmayan gecələrdə Ay olmusan,*
*mənim üçün,*
*Qaranlıqları əridən nur olmusan*
*mənim üçün.*
*Həyatımın tək mənası sevgilim…*

*Arzularım bir bağçadır,*
*Sən onun tər qönçəsisən.*
*Ümidlərim bir çiçəkdir,*
*Sən onun tac ləçəyisən.*
*Mənim taledən qismətim,*
*Tale payım sevgilim…*

**«İşartı»**

Şeir ilk misrasından son misrasına kimi oxucunun qəlbini ovsunlayır, ürəyini duyğulandırır, çünki sevən gəncin ürək döyüntüləri, sarsıntıları, hiss-həyəcanları səmimi və inandırıcı verilmişdir.

Zaur Ustac sevgi şeirlərində, ancaq sevən gəncin - lirik qəhrəmanın fərdi duyğularını verməklə kifayətlənmir, bu hisslərə dərin ictimai məzmun verir ki, bu da onun fərdi yaradıcılıq üslubuna, xüsusi dəst-xəttə malik olduğunu, ən tipik hadisə və obrazları, sevinc və həyəcanları öz bədii fərdiyyətinin imkanları ilə əks etdirdiyinin göstəricisidir.

Onun məhəbbət mövzularına həsr olunmuş şeirləri gözəl və təravətli sənət nümunələri kimi diqqətdən yayınmır, misralarda inci kimi düzülən sözlər göz oxşayır, könül oxşayır, şeirdəki oynaq biçimlər oxucunu heyrətləndirməyə bilmir. Folklordan, eləcə də qoşma və gəraylılardan, qəzəllərdən…gələn lirik-aşiqanə hissləri də öz duyğularının ifadə vasitəsinə çevirməyi bacaran şairin hər şeirində səsini eşidirik, nəfəsini hiss edirik.

İntizardan, ayrılıqdan söz açanda onun səsinin də, sözünün də titrədiyini görürük. Görürük ki, sevənin-lirik qəhrəmanın intizar gözləri yol çəkir:

*Gözlərim dikildi yoluna sarı,*
*Canandan bir xəbər olaydı barı.*

*Gözlərim yol çəkir, könül intizar,*
*Xəyalım həmişə dağınıq olar.*

*Tanrım məni bəxtəvərmi yaradıb?*
*Sənə məndə bir məhəbbət oyadıb.*

*Bu məhəbbət alovlanır, sönməzdir,*
*Aşiqinin amalı tək dönməzdir.*

*Düzü, yarım məndən yaman uzaqdı,*
*Əsəri yox, məhəbbətim coşandı.*

*Uzaqlığın həm də məni coşdurur,*
*Sənə olan məhəbbətim artırır.*

*Uzaqlığın əsər etməz eşqimə,*
*Uzaqlıq güc gəlməz məhəbbətimə.*

*Yolumu kəssə də bir çox maneə,*
*Aramıza girə bilməz, bil heç nə.*

*Mən səni sevirəm inan ürəkdən,*
*Məcnun tək bir yolun yolçusuyam mən.*

1990-cı ildə Yusifcanlı kəndində məsnəvi formasında qələmə alınmış bu şeirdə şair ürək titrədən, könül oxşayan misraları ilə oxucu ürəyini bir daha ovsunlamağı bacarıb.

***

Qəm, kədər sevən aşiqin ürəyində əbədi yuva qurub. Yardan ayrı düşən aşiqin qəm-kədəri qurtararmı? Qurtarmaz. Lirik qəhrəman öz sevdiyinə qovuşarsa, qəm-kədərdən

də biryolluq qurtula bilər. Ancaq «Sonu yoxmuş» - deyən aşiqin səsinin titrəyişindən hiss olunur ki, sevən qəlbi həsrətdə qalacaq, ayrılıq ən böyük bir dərd kimi ürəyində «göynəyəcək».

*...Ayrılıq ən böyük dərd oldu mənə,*
*Qəlbimə iz saldı ötən dəqiqə.*
*Nə qədər yüklənmiş könül ələmlə,*
*Sevən qəlb nə qədər qalsın həsrətdə?*

*Nə yaxşı xəyallar var imiş yenə,*
*Xəyalən gəlirəm görüşlərinə.*
*Xəyallar təsəlli verir qəlbimə,*
*Nə qədər qapılsın ürək ümidə?*

Zaur tərənnüm etdiyi məhəbbət fədakar məhəbbətdir, fədakarlığı ilə seçilən məhəbbətdir. Axı fədakarlıq olmayan yerdə əsl məhəbbətdən söhbət gedə bilməz. Sevən üçün hər şey sevgili üçündür. Saf, ülvi, alovlu məhəbbətilə lirik qəhrəmanın həsrət və həyəcanlarını çox təbii, sadə formada təsvir edən şair öz oxucularına nəcib insanpərvərlik hissləri - vəfa, sədaqət, doğruçuluq aşılayır, onları pak və müqəddəs məhəbbətə ruhlandırır. Bu şeirlərdə sevən ürəyin həsrəti, eşqin alovu, könül iztirabları daha çox bədii ümumiləşdirmə ilə elə verilmişdir ki, ayrılıq oduna yananlar orada öz qəlbinin həyəcanlarını görə bilir:

*Nə deyim taleyin qisməti belə,*
*Hərənin bəxtinə bir yazı düşdü.*
*Kiminin bəxtinə sevib-sevilmək,*
*Kiminin bəxtinə ayrılıq düşdü.*

*Ürək səksəkəli, beyin dumanlı,*
*Yol-iriz tutulu, qollarım bağlı.*
*Günüm qara olub sənsiz qalalı,*
*Mənim də bəxtimə ayrılıq düşdü.*

**«Düşdü»**

Və yaxud «Səni görməyəndə» məsnəvisindən bu misralara diqqət yetirək:

*Səni görməyəndə halım pozulur,*
*İnan ki, damarda qanım da donur.*

*Gözlərim öyrəşib qara gözlərə,*
*Qulağım öyrəşib şirin sözlərə.*

*Bircə gün görüşə sən gec gələndə,*
*İnan ki, aşiqin dözmür bu dərdə.*

Bu misralarda pak və müqəddəs eşq, lirik etiraf, səmimiyyət müstəsna bir yığcamlıqla ifadə olunub. Burada da görürük ki, məhəbbət insanı ucaldan, onun mənəvi aləmini zənginləşdirən böyük qüvvədir, işıqlı və sehrli qüvvədir; lirik qəhrəmanın əhval-ruhiyyəsini tərənnüm etmək baxımından səciyyəvidir.

Öz səmimiliyi, təsirliliyi ilə, həm də sənətkarlıq xüsusiyyətləri baxımından diqqəti cəlb edən məhəbbət şeirləri kövrək bir ürəkdən süzülən lirik duyğulardır. Bu duyğular hər kəsi həyəcanlandırır, insanları sevib-sevilməyə səsləyir. Bu, bir daha onu göstərir ki, Zaur Ustac səadət, sevgi, qarşılıqlı məhəbbət, dostluq…nəğməkarıdır. Real həyat həqiqətinə sadiq qalan, haqlı olaraq süni gözəlliyə uymayan, dil sadəliyi və ahəngdarlığına diqqət yetirən, təmtəraqlı sözlər işlətməyən şair hər şeirində söz fırçasından

məharətlə istifadə edir. Sözlə sevən qəlbin, iztirab çəkən ürəyin «şəklini» çəkir, etibardan, düz ilqardan danışır, həm də göstərir ki, uğurlu sevgi və ailə səadəti üçün iki qəlbin bir vurması mühüm amildir.

*Gəl, belə gizləmə üzünü məndən,*
*Yenicə doğulmuş bayram Ayı tək.*
*Qov, getsin buludu, açılsın çöhrən,*
*O hüsnü-qəmərə bir salam deyək.*

*Qələm qaşlarını çatmısan nədən?*
*Hüzünlü bu görkəm yaraşmır sənə.*
*Hər dəfə gül açan camalın nədən,*
*Bu gün solğun kimi göründü mənə.*

*Qəlb evimi duman alıb, çən alıb,*
*Bağrımın başına qəfil qar yağıb.*
*Ruhumun gəzdiyi çöllər saralıb,*
*Sən gəl ki, xəzanı qovaq biryolluq…*

Şeirdə sevən ürəyin hərarəti, lirik qəhrəmanın eşqə sədaqəti bədii ifadə vasitələrilə qələmə alınıb. Onun qələminin qüdrətindən yaranan şeirlər diqqət çəkməyə bilmir. «Həsrətəm» şeirini həyəcansız oxumaq mümkündürmü? Bu şeirdə bir kişi ömrünün məhəbbət dolu çağlarının əks-sədası göstərilib.

Əsl məhəbbəti, ülvi sevgini ürəkdən gələn səmimi hisslərlə tərənnüm edən şair yazır:

*Səni görmək üçün qəfil darıxdım,*
*Bilmədim nə edəm, yaman karıxdım.*
*Yerimdə lam qalıb xeyli duruxdum,*
*O qara gözlərin həsrətindəyəm.*

*...İlahi yaratmış səni bir yoxdan,*
*O qara gözlərə aşiqəm çoxdan.*
*Bir kəlmə alaydım o bal dodaqdan,*
*O şirin sözlərin həsrətindəyəm.*

Bu şeir oxucuların qəlbinə asanlıqla yol tapa bilir.

Şairin lirik qəhrəmanı sevmədən yaşaya bilməyəcəyini yaxşı dərk edir. Məhəbbət yolunda hər cür əzaba qatlaşır, ayrılıq oduna yansa da, həsrət iç dünyasını qarsalasa da, ruhdan düşmür, əksinə qarşısına çıxan bütün maneələri dəf edir, məhəbbət yolunda canından keçməyə hazır olduğunu bildirir, bu yolda mübarizə aparır. Sevgi uğrunda mübarizə aparmaq insanın öz üzərində apardığı mübarizədir. Şairin lirik qəhrəmanı bu mübarizədə məğlub olmur. Məğlubiyyət böyük sevgilərlə yaşayan insana yaddır.

Sevgi uğrunda ən çətin maneələri dəf etmək, bu mübarizədə qalib gəlmək, elə həyat uğrunda, yaşamaq uğrunda mübarizədə qalib gəlmək deməkdir.

Sevgi olmasa həyat, həyat olmasa sevgi olmaz. Onları bir-birindən ayırmaq mümkün deyil. Bəli, sevgi ilə həyat birdir. Sevgi həyatı, həyat da sevgini yaşadır.

Sevgi həm də haqqa çağırışdır. Sevən insan ruhən təmizlənir, saflaşır, haqqa söykənib haqq uğrunda mübarizə aparır. Zaur Ustacın da ürəyi sevgilərlə dolu bir şair kimi insanları haqq uğrunda mübarizəyə çağırır; haqq uğrunda, həqiqət uğrunda mübarizədə qalib gəlmək, həyat uğrunda mübarizədə məğlub olmamaq deməkdir.

Hər iki mübarizənin ilham mənbəyi ilahi sevgidir. İnsan sevgidən güc alır, dəlicəsinə sevərək istəyinə nail olur.

Vətənə məhəbbət olmasa düşmənə necə qalib gəlmək olar? Torpağın hər qarışını müqəddəs bilmədən, hər qarışına sevgiylə baş qoymadan qorumaq mümkündürmü? Sevgi olmasa igidlərin qanı torpaqla birgə qaynayarmı? Bəli,

hər şeyin «nüvəsində» məhəbbət dayanır. İnsan sevgidən, məhəbbətdən güc alır, qüvvət alır.

Sevgi insanı arzularına çatdıran ən böyük qüvvədir. Bu qüvvə olmasa insan acizləşər, yazıqlaşar, tərki-dünya olar, amma sevgi duyğuları insanı kamilləşdirir, müdrikləşdirir, dünyanın ən təmiz adamına çevirir, çünki sevgidə ilahi bir qüvvə var.

Zaur Ustacın məhəbbət mövzusunda yazdığı lirik şeirlərini oxuduqca onun özünəməxsus duyumları, müşahidələri…diqqətdən yayınmır. O, sevgi şeirlərində öz orijinallığı ilə ilə seçilir, yeni fikirlərilə ürəkləri fəth eləyir. Sevmədən yaşamaq - yaşamaq deyil. Sevdiyindən ötrü hər an darıxan, ürəyi sinəsini yandıran, özünə yer tapa bilməyən, yerə-göyə sığmayan lirik qəhrəmanın duyğuları dəniz kimi çağlayır. Bu duyğular əslində bir ürəyin sevgi dolu, həsrət dolu çırpıntılarıdır.

Lirik qəhrəmanın həsrət dolu ürəyini «dilləndirməsi», təmiz, ülvi məhəbbətdən danışması…oxucunun yanar ürəyinə sanki su çiləyir, çünki lirik qəhrəmanın duyğuları, fikirlərilə oxucunun fikir və duyğuları üst-üstə düşür. Deməli, şair sevgi şeirlərində həm də oxucuların məhəbbətindən, sevgisindən söhbət açır. Zaur Ustac qələminin qüdrəti də elə bundadır.

Onun şeirlərində lirik qəhrəmanın duyğularından, hiss və həyəcanlarından da hiss edirik ki, o «darıxıb». Şair «darıxmaq» sözünü işlətməsə də, bunu onun şeirlərinə hopan duyğulardan görmək mümkündür.

***Sənsiz gün keçirmək nə qədər çətin,***
***Sənsiz heç ovuna bilmirəm inan.***
***Xəyal tək görüşə gəlirsən hər gün,***
***Dünyanın xoşbəxti oluram bu an.***

**«Təzadlı dünya»**

Lirik qəhrəmanın kövrək qəlbinin döyüntüləri, vurulduğu insana münasibətində gül kimi açılır və bu sevgi mənzərəsi oxucunun gözləri önündə canlanır.

Zaurun məhəbbət qoxulu şeirlərini oxuduqca misralara hopan sevinci, kədəri, həsrəti, qəmi… görməmək olmur. Elə misralar var ki, ürəyə sevinc gətirir, elə misralar da var ki, ürəyi qəmə bürüyür, amma bu qəmin, kədərin, həsrətin özündə də bir ümid işığı var. Ümid olmasa sevgi də olmaz. Ümid həm də sevgi deməkdir, sevmək deməkdir.

Zaur Ustac ümidsizlərə ümid verən şairdir. Onun hər bir sevgi şeirində yeni fikirlər, yeni bənzətmələr, təzə-tər duyğular var.

Şairin sevgi şeirləri solmayan çiçək kimidir. Bu şeirləri on beş yaşında da, iyirmi yaşıqnda da, altmış yaşında da, yüz yaşında da oxumaq olar. Axı məhəbbət əbədidir, axı hər yaşda sevmək mümkündür. Və bir də məhəbbət yaşa baxmır.

Gəlin «Baxışlar qarşılaşanda» » şeirindən bu misralara diqqət yetirək:

***Hər gün rastlaşırıq bilmirəm nədən,***
***Bəlkə sevdiyimdən, yox, ondan deyil.***
***Mən səni sevirəm, yəqin sən məni,***
***Tanrım görüşdürür ikimizi bil…***

***Qarşıma çıxırsan nədənsə yolda,***
***Bircə dəfə gül üzünə baxanda,***
***Nədən sən də bu an mənə baxırsan?***
***Nə olur baxışlar qarşılaşanda?***

***Səndən soruşuram, mənə cavab ver,***
***Niyə karıxıram sənə baxanda?***
***Yəqin ki, baxışlar toqquşur bu an,***
***Mən sənə, sən mənə dinməz baxanda.***

Və yaxud «Nəyimə lazım» şeirindən bu misralara diqqət yetirək:

*Ay gözəlim, nədir yenə gülürsən,*
*Gözlərə əsirəm, bunu bilirsən.*
*Eşq badəsin doldururam, içirsən,*
*Boşalmış qədəhlər nəyimə lazım?*

*Eşq oduna yanan mənəm, yoxsa sən?*
*Anlamıram, söylə necə sevirsən?*
*Yanan mənəm, yenə sən isinirsən,*
*Boş yerə kül olmaq nəyimə lazım!*

***

Şairin sevgi şeirlərində Məcnun sevgisinin müqəddəsliyi var. Onun saf və müqəddəs duyğuları, təmiz hissləri hər şeirin hər misrasına çöküb və biz hər şeirində onun coşub-daşan hisslərinə, həyəcanlarına şahidlik edirik.

Onun sevgi şirlərində hər kəs özünü görə bilir, tapa bilir və həyatın şirinliyini, dünyanın gözəlliyini dərindən duyur, duyaraq mənalı bir həyat yaşamağa çalışır:

*İntizar dumanı çöküb gözümə,*
*Ruhun iztirabı hopub üzümə.*
*İçimin acısı çıxıb üzümə,*
*Üzüm gülər, gül üzünü görüncə.*

*Günlərin hamısı dandan qüruba,*
*Minnət eyləyirəm min yol turaba.*
*Qaçmasın ayağım altdan, iraqa,*
*Gözüm gülər, gəldiyini görüncə.*

**«Görüncə»**

Şairin məhəbbətlə yoğrulmuş şeirlərində təkcə insana sevgidən bəhs olunmur, həm də dünyaya, təbiətə, vətənə sevgidən danışılır, ilahi sevgidən, ülvi məhəbbətdən söz açılır. Bəli, Zaur Ustacın özünəməxsus gözəllik meyarı, sevgi meyarı var. Axı hamı eyni cürə sevə bilməz, gözəllikdən eyni cürə həzz ala bilməz. Hər kəs özünəməxsus bir şəkildə sevsə də, hər kəsi birləşdirən ümumi bir qüvvə var - sevgi. O, nədən və kimdən yazırsa-yazsın, hansı mövzunu qələmə alırsa-alsın…hər misrasında sevgi var, məhəbbət var. O, nifrət eləyəndə də, qəzəblənəndə də, tənqid eləyəndə də sevə-sevə nifrət edir, sevə-sevə qəzəblənir və sevə-sevə tənqid edir.

Gözəllikdən ilham alan, gözəllik önündə biganə qalmayan şairin şeirlərində yuxarıda ərz etdiyim kimi, vüsal da var, ayrılıq da, cəfa da, səfa da, sevinc də… Məhz ona görə də bu şeirlər oxucunu yormur, əksinə, oxunaqlıdır, maraqlıdır, təsirlidir, ürəyi ovsunlayandır.

Böyük rus tənqidçisi V. Belinskinin bu fikirlərini xatırlamaya bilmirəm: «Məhəbbətin də güllər kimi, insanın həyatı kimi öz inkişaf qanunları var, öz yaşı var. Onun da zinətli baharı, öz isti yayı, nəhayət, bəziləri üçün ılıq, işıqlı və məhsuldar, başqaları üçün soyuq, çürüntülü və barsız payız vardır». - Gözəl deyilib, haqlı deyilib.

Ustacın sevgi lirikasında həm sevən ürəyin ülvi duyğuları əks olunur, həm də sevənin də, sevilənin də bir-birilərinə olan münasibətləri göstərilir. Bu münasibətlərdə təmiz və saf məhəbbətdən söhbət açılır, necə deyərlər, sevgidə olan müqəddəslik önə çəkilir, bu məhəbbətin ağrı-acıları onu incitmir, əksinə, lirik qəhrəman öz məhəbbətini ürəyində qoruyub-saxlayır, onun cəfasına dözür, məhəbbətindən şikayətlənmir, giley-güzar eləmir. Gəlin «Sənsizlik» şeirinə diqqət yetirək:

*Yenə sənsizliyin ağuşundayam,*
*Yenə gündüz mənə gecə görünür.*
*Yenə vüsalımın sorağındayam,*
*Vüsala gedən yol çənə bürünür.*

*İstəmirəm sənsiz dünyanı bir an,*
*Sənsiz dünyanın heçdir qiyməti.*
*Sənsiz keçən anlar axıdır, aman*
*Gözümdən könlümə ələm, zilləti…*

Məhəbbətindən şikayətlənməyən lirik qəhrəman niyə sevilmədiyinin səbəbini bilmək istəyir. O, bu istəyində haqlıdır, axı o, niyə atıldığına, niyə sevdiyi gözəlin onun qəlbilə oynadığına cavab istəyir. Məhəbbət yolunda avara qalan, dəli-divanə olan aşiq əsəbləşməsin, neyləsin? Əsəbləşsə də, içindən yansa da sevdiyini heç vaxt unuda bilməyəcəyini də dilə gətirir:

*…Sən necə unutdun, məni ay gözəl?*
*Sən ki, sevirdin məni lap əzəl.*
*Məndən yan gəzirsən, gül olub xəzəl,*
*Sənsiz güllər açmır, açıla bilməz!*

*…Sən unutdun, mən unuda bilmərəm,*
*Bu əlimdən gəlmir, edə bilmərəm.*
*Mən sevmişəm, daha sevə bilmərəm,*
*Sən unut, Zaur unuda bilməz!*

**«Dəyişmisən»**

Bu misralarda sevən bir qəlbin duyğuları, həsrət yanğıları o qədər təsirli ifadə olunub ki, sanki şeir yox, lirik qəhrəmanın

ürəyini oxuyursan.

Zaurun şeirləri bir-birindən gözəldir, bir-birindən mənalıdır, təsirlidir. Bu şeirlər bir-birinə oxşamır, bir-birinə bənzəmir, bir-birini təkrarlamır. Hər şeirdə lirik qəhrəmanın sevgisinin təmizliyi, ülviliyi əks olunur, onun əsl sevgisi müxtəlif prizmalardan göstərilərək oxuculara təqdim olunur.

Onun qələmə aldığı məhəbbət şeirlərində hiss və həyəcanlarını, fikir və düşüncələrini, təəssüratlarını aydın və sadə bir dildə elə ifadə edir ki, qaranlıq heç nə qalmır, hər fikrin mənası aydın olur, şeirdə onun nə demək istədiyini oxucu dərhal anlayır. Məhəbbətin gücünü, qüdrətini oxucu öz ürəyində hiss eləyir, bu şeirlər onun qəlbini titrədir, can evini ağappaq işığa bələyir, onu bulaq suyu kimi duruldur, saflaşdırır.

Şeirin maraqlı, təsirli, inandırıcı və cazbədar alınması, şeirin təbii hisslərdən, təbii duyğulardan yaranması ilə bağlıdır. Axı təsirlənmədən, duyğulanmadan, məhəbbətin sevincindən, yaxud gətirdiyi qəm, kədərdən «ilham» almadan necə yazmaq olar? Zaur

Öz təmiz, ülvi hisslərini ifadə edən şair, eyni zamanda seviyinin də hiss və duyğularını əks etdirir, onun da fikir və düşüncələrini dərindən-dərinə duyur və duyduqlarını dilə gətirir.

Gəlin «Gözüm qaldı» şeirindən bu misralara diqqət yetirək:

***Hamı özünə yar tapdı,***
***Mənim gözüm səndə qaldı.***

***Gözüm qaldı gözlərində,***
***Şirin-şirin sözlərində.***

*Gözüm qaldı al yanaqda,*
*Bəstə boyda, bal dodaqda.*

*Gözüm qaldı baxışında,*
*Yerişində, duruşunda…*

Zaur Ustacın sevgi şeirlərini oxuduqca həm kövrəlir, həm həyəcanlanır, həm də sevgi nədir? məhəbbət nədir? suallarına cavab tapmış olursan.

Məhəbbətin gözəlliyi onun yolunda çəkilən iztirabdadı. Sevgini daha da güclü eləyən, əbədi eləyən, daha da saflaşdıran, müqəddəsləşdirən onun insana çəkdirdiyi ayrılıqdadı, həsrətdədi.

***Çuğlamış qəlbimi xəyallar yenə,***
***Yolum gah çəmənə, gah çölə düşür.***
***Həsrət səyirtdikcə intizar atın,***
***Ürəyim az qala əlimə düşür.***

**«Çəkisizlik»**

Şairin lirik qəhrəmanı ruhən, qəlbən sevdiyilə bir yerdədir, yenə də məhəbbətinə sadiqdir, əhdinə etibarlıdır, vəfalı bir aşiq kimi ümidsizliyə qapılmır və hər an sevgisilə görüşməyə can atır. Onun sevgilisinə olan məhəbbəti bütün məhəbbətlərin fövqündə dayanır. Bu, belə də olmalıdır. Axı bir gözəli sevmədən kəpənəyin uçuşunu, quşların nəğməsini…necə sevmək olar? Təbiəti, dünyanı, insanları sevdirən məhəbbət hissləri deyilmi? Məhəbbət hissləri, sevgi duyğuları olmasa sevmək də olmaz. Məhəbbətsiz sədaqət, sədaqətsiz məhəbbət də ola bilməz. Məhəbbət sədaqət «üstündə» dayanır, sədaqət olmasa, məhəbbət də özülsüz bina kimi uçulub-dağılar. Məhəbbətdə sədaqət ailənin bünövrəsini möhkəmləndirir, ailəni alınmaz qalaya,

ən müqəddəs məbədə çevirir.

Bəli, məhəbbətin mahiyyətində sədaqət, etibar və inam əsas şərtlərdən biridir.

Zaur Ustacın əsl sənət nümunəsi sayıla biləcək sevgi şeirlərini nəzərdən keçirir və saf və təmiz məhəbbətin tərənnümünə heyrətlənməyə bilmirəm. Məni heyrətləndirən həm də odur ki, şair məhəbbət şeirləri yaza-yaza özündən də xəbərsiz içindəki ağrını əsl poeziyaya çevrir və bu poeziyanın mayasında ilahi eşq var. Mayasında ilahi eşq olan poeziya da ölümsüzdür. Elə sevgi də ölümsüzdür. Nə qədər həyat var, sevgi də var.

***

Ustac öz səsi, öz nəfəsi olan bir şair kimi sevgi şeirlərində də poetik imkanlarının nə qədər böyük və geniş oolduğunu açıb göstərə bilmiş, həssas və düşüncəli, səmimi bir qələm adamı kimi tanınmışdır. Özü səmimi bir insan olduğu kim, şeirləri də səmimidir, insan haqqında fikirləri də incə və səmimidir. Bu səmimiyyət onun şeirlərində parlaq şəkildə özünü büruzə verir, eyni zamanda şeirləri vasitəsilə yüksək əxlaqi keyfiyyətlər, gözəl bəşəri hisslər təbliğ edir.

Ərz elədiyim kimi onun yaradıcılığında diqqəti daha çox cəlb edən, daha çox hiss edilən səmimiyyətdir. Məhz ona görə də şairin fikirləri, hissləri bizə bu qədər səmimi görünür, səmimi təsir bağışlayır.

Onun şeirlərində sərtlik, kobudluq yoxdur, ancaq səmimiyyət var. Bütün şeirlərinə nəfəsi dəyib, onun şair nəfəsi dəyməmiş bir misrasına belə rast gələ bilməzsən. Duyğu və düşüncələrini şeirə gətirən şairin özü də şeirə gəlir. Sevgi şeirlərində lirik qəhrəman - Zaur Ustacın özüdür. O, özünü yazır, həm də yüzlərlə oxucunun duyğularını ifadə eləyir, məhz ona görə də şeirləri ürəklərə yol tapa bilir.

Şeirlərinin sətirləri arasından boylanan şairin sevincini

də, qəmini də, kədərini də aydınca görmək mümkündür. Bunu aydınca görə biliriksə, deməli, şairin şeirləri də səmimi olmaya bilməz.

Zaur Ustacın düşüncələrilə hissləri, şeirlərilə şəxsiyyəti bir-birini tamamlayır, sözü ilə əməli üst-üstə düşür və ona görə də bu əsasda yazılmış şeirlər necə səmimi olmaya bilər? Onun sevgi şeirlərini könül nəğməsi də adlandırmaq olar. Bu könül nəğmələrinin özü də israrla deyir ki, şair ürəyində yaşamaq hüququ qazanmayan sevgi duyğularını qələmə almır, alsaydı, bu şeirlər mənasız və bayağı olardı. Amma o, ürəyini «işğal eləməyən», ürəyində korun-korun yanmayan duyğularını da şeirə gətirmir. Bu bir tərəfdən onun sözə məsuliyyət hissindən xəbər verirsə, bir tərəfdən də əsl sevginin möhtəşəmliyindən xəbər verir.

Hərdən mənə elə gəlir ki, adi insanlar əsl şairlər kimi sevə bilməzlər… əsl şairlərin sevgisi ilahi duyğularla bağlıdır. İlahi duyğu olmayan yerdə böyük sevgidən də söhbət gedə bilməz.

Sevməyin ağrı tərəfləri çoxdur. Sevgi dərdi şirin dərd olsa da yenə də ürəyi göynədir. Şair ürəyinə düşən sevgi dərdilə, adi insanın ürəyinə düşən sevgi dərdi fərqlidir. Şair sevgi şeirlərini qələmə almaqla, həm də nakam aşiqlərin dərdlərinə şeirlərlə məlhəm olmaq istəyir.

Sevgi fəlsəfəsini şairlər öz şeirlərində qismən də olsa açıqlaya bilirlər. Onlar özlərindən də xəbərsiz sevgi dəryasına baş vuraraq eşqin fəlsəfəsini axtarmaqla məşğuldurlar…

Məgər bu misralarda təmiz bir eşqin fəlsəfəsini duymamaq olarmı?

***Yenə də xəyallar ağuşundayam,***
***Sonsuz ümmanlarda qayıqlar kimi.***
***Xəyallar gözümün önündə pərdə,***
***Günü pərdələyir buludlar kimi.***

*Gah sevinc bəxş edir, gah da qəm, kədər,*
*Beyin nə düşünür, ürəyim nələr?*
*Zaman dəyişsədə, ötsə də illər,*
*Eşqim sönməzdir alovlar kimi.*

*«Puç dünya»*

Bu misralardan da bir daha görünür ki, Zaur Ustacın iç dünyası dəryalar qədər dərindir. Bu dərinlikdən çıxan incilər - yəni sözlər insanı təsirləndirmək gücünə malikdir.

***

İnsan həyatının mənası eşqdir, sevgidir. Eşqsiz dünyanın da dəyəri yoxdur. Məhəbbət olmasa yaşamağın da mənası olmazdı. Məhəbbət olmasa günəş də sönərdi, sevgisiz həyat qaranlıq, şaxtalı, çovğunlu bir dünyaya çevrilərdi və bu qaranlıq, şaxtalı, çovğunlu dünyada insanın ən ali, ülvi duyğuları «donardı», məhv olardı.

Zaur Ustac məhəbbət şeirlərində ən ülvi duyğularını qələmə alır. Böyük sənətkarlıqla qələmə alınmış bu şeirlər insanı ruhən güclü edir, onu xeyirxah olmağa, yaxşı işlər görməyə səsləyir…Doğrudan da sevən adam xeyirxah olur, ürəyi yaxşılığa doğru can atır, sevgi və məhəbbət onu şər işlərdən, bəd əməllərdən çəkindirir, haqq yoluna dəvət edir, haqsızlıq önündə susmamağa çağırır.

Bəli, məhəbbətin gücü, qüdrəti böyükdür. Məhəbbət şeirləri həm də tərbiyəvi əhəmiyyət daşıyır.

…Azərbaycan şairlərinin yaradıcılığında məhəbbət mövzusunda yazılmış şeirlər insanın ən ali duyğularını tərənnüm etmək baxımından çox təsirlidir. Ülvi məhəbbəti tərənnüm edən, onu ucalığa qaldıran, «eşqsiz ey dünya nədir dəyərin» fəlsəfəsinə söykənən şairlərdən biri də Zaur Ustacdır. O, həyata, gözəlliyə, sevgiyə münasibətini ən ali

məqama yüksəldərək, əsl sevginin saf duyğular üzərində bərqərar olduğunu, sevmək üçün təmiz qəlbə, saf ürəyə malik olmağın zəruriliyini açıb göstərir. O, həm də şeirlərində sevən insanın hiss və duyğularını önə çəkərək sevməyin, sevilməyin xoşbəxtlik olduğunu, ürəyin ancaq məhəbbətlə döyünməli olduğunu bildirir

Zaur Ustacın duyaraq yaşadığı, yaşayaraq duyduğu hisslərin, duyğuların, həyəcanların poetik ifadəsi onun şeirlərində o qədər gözəl ifadə olunur ki, heyrətlənməyə bilmirsən. Bəli, onun şeirlərində çox zaman şəxsi, subyektiv duyğuları «kölgədə» qalır, insanların könüllərini fəth edən sevgi şeirlərini qələmə alır və bədii uğur qazanır. Və bir də onun şeirlərindən hiss olunur ki, şairin döyüşən və güclü ruhu var.

Şairin lirik qəhrəmanı rolunda hər kəs çıxış edə bilər, çünki o, hər kəsin lirik duyğularını ifadə edir.

Onun sevgi şeirlərində Aşiq - kamil bir insandır, yetkin bir şəxsiyyətdir, sevgi onun həyatının mənasına çevrilib, niyə sevdiyini dərindən dərk edir, sevgi yolunda min cürə əzab-əziyyətin, məhrumiyyətin olduğunu yaxşı anlayır. Aşiqin çəkdiyi bu iztirablar onu həyata daha möhkəm tellərlə bağlayır, qəlbini daha da saflaşdırır, inamını artırır və güclü edir. Çünki ürəyində böyük ümid var. Çünki öz sevgisinə inanır, bu sevgiyə böyük ümidlər bəsləyir. Bu sevgiyə qovuşacağına özünə inandığı kimi inanır.

Tənqidçi, filosof Asif Əfəndiyev yazırdı ki, «Məhəbbət nədir? - sualı - «Həqiqət nədir?» sualı ilə həmahəng səslənir. Klassiklərimiz üçün məhəbbət dünyaya açılan pəncərə rolunu oynamışdır.

Məhəbbət əhli - əhli kamal olmaq mənasında işlənilmişdir. Məhəbbət - həqiqətə aparan yol kimi tərənnüm edilmişdir. Leyli, Məcnun, Şirin obrazlarında dünya, cəmiyyət əks olunmuşdur.

…Məhəbbətdən yazmaq yalnız «məhəbbət gözəldir, vəfasızlıq böyük qəbahətdir» kəlamının təsdiqi ilə məhdudlaşmaq deyil.

Məhəbbətdən yazmaq - məhəbbət vasitəsilə dünyanı anlamaqdır» (Asif Ata, Müdiklik səlahiyyəti).

Zaur Ustacın sevgi şeirlərini qruplara ayırmaq istədim, amma o dəqiqə də əl saxladım, fikrimdən yayındım, çünki insanın hisslərini, duyğularını qruplara necə bölmək olar? - deyə düşündüm.

Şairin sevgi şeirləri zənginliyi və rəngarəngliyi ilə seçilir ki, bu da onun hisslərinin saflığından, təmizliyindən irəli gəlir.

Sevən qəlbin sevincini, kədərini, qəmini şair elə məharətlə qələmə alır ki, sevincin də, kədərin də rəngini, ahəngini görə bilirik.

Bəli, Zaur Ustacın lirikasında sevgi duyğuları ən müqəddəs duyğular kimi ifadə olunur. Bu müqəddəsliyi, bu ülviliyi sevgi şeirlərinin hər birində görmək mümkündür.

Şairlər ilk sevgidən, ilk məhəbbətdən, vüsal yanğısından, ayrılıq odundan, bu məhəbbətin ağrı-acılarından çox yazmışlar. Unudulası mümkün olmayan ilk məhəbbətdən yazılan şeirlər minlərlədir, amma Zaurun məhəbbət şeirlərindən ən gözəl poetik nümunələrdən biri kimi «Yağış» adlı şeiri diqqətimi daha çox cəlb elədi və mən bu şeiri dönə-dönə oxudum:

***Yağış yağır,***
***Göydən yerə nur çilənir,***
***Damla-damla,***
***Qətrə-qətrə,***
***Şırıl-şırıl!***
***Göydən düşən damlalardan,***
***Biri də mən olaydım,***
***Külək qovaydı məni***
***Sənin aynana qədər.***

*Tanrıdan pay alaydım,*
*Sənə əl sallayaydım…*
*Sanki, bunlar baş verir,*
*Birisi şirin-şirin*
*Yataqda mürgüləyir.*
*Oyan artıq sabahdır,*
*Oyan, sabahın xeyir!*

Şeir axıcıdır, rəvan və səlisdir. Konkret bir fikri ifadə edən «Yağış»da böyük məna tutumu, yüksək düşüncə var, poetik mənzərə, poetik təsvir var.Bu şeir Mikayıl Müşfiqin «Yenə o bağ olaydı» şeirinin ruhunda qələmə alınıb, özü də uğurlu alınıb.

Sanki şeir oxumursan, nəğmə oxuyursan. Yeri gəlmişkən qeyd etmək istəyirəm ki, Zaurun sevgi şeirləri öz lirik tempinə və ritmik-melodik xüsusiyyətlərinə görə nəğmə janrına yaxındır və bu yaxınlıq şeirin gözəlliyindən, axıcılığından, dildə gözəl səslənməsindən və s. kimi xüsusiyyətlərdən irəli gəlir. Bəlkə şairin sevgi şeirlərindən bəstəkarların xəbəri yoxdur? İnanmaq çətindir. Axı bu şeirə necə musiqi bəstələməmək olar? Bu baxımdan «Ürək sevir» şeiri də ruh oxşayır:

*Kim dözərdi bu həsrətə?*
*Bir ömürlük vüsalətə.*
*Bu taleyə, bu qismətə,*
*Mən dözmüşəm, hamı bilir,*
*Axı səni ürək sevir.*

*…Sən küssən də mən küsmərəm,*
*Sən inci, mən incimərəm.*
*Sən atsan da mən sevərəm,*
*Bu sənə həvəs deyildir,*
*Axı səni ürək sevir.*

Bu şeirdə də şairin hissləri o qədər təmiz, o qədər təbii, o qədər inandırıcıdır ki, romantik duyğular o qədər yüksək səviyyədə ifadə olunub ki, heyrətlənirsən. Bəli, şair sevgi şeirləri ilə oxucuları  heyrətləndirməyi bacarır. Çünki bu şeirlərlə o, öz sevgi taleyini yazır. Onun məhəbbət duyğuları müqəddəsdi, heyranedicidi. Yaşadığı hisslərini, duyğularını ifadə etdiyi üçün ürəyimizə asanlıqla yol tapıb yaşamaq huququ qazanır.

Zaur Ustacın şeirləri yersiz pafosdan, hay-küydən, qışqırıqdan, hiddətdən, qisasçılıqdan…uzaqdır.  Uzaq olduğuna görə də səmimidir. Ürəkləri isə, ancaq səmimi şeirlər ovsunlaya bilər.

***

Zaur Ustacın  sevgi şeirlərində insanlara böyük məhəbbət hiss olunur. Bu şeirlərdə həm də torpağa bağlılıq var, həyatı sevmək var, çünki şairin xəyalı hərdən çox-çox uzaqlara getsə də, onun ayağı torpaqdadır, ayağı torpaqdan heç zaman üzülmür, necə deyərlər,  ən möhtəşəm, ən uca, ən qocaman çinar ağacı kimi «kökləri ilə bu torpağa» bağlıdır. Torpağa bağlı olan şairin sevgi şeirləri də olduqca həyatidir. Həyati olduğuna görə də inandırıcıdır. Bəli, bu şeirlər həyati və inandırıcı olmasaydı, ürəklərə yol tapa bilməzdi. Məhəbbət həyatın özüdür, həyatın sağlam nəfəsidir.

…Məhəbbət şeirləri ən ali, ən ülvi duyğuların tərənnümüdür. Ən ali, ən ülvi duyğularını şeirlərində ifadə edən edən, insan ruhunun ən gizli nöqtələrini üzə çıxaran, ülvi məhəbbəti tərənnüm etməkdən yorulmayan Zaur Ustac şeirlərində məhəbbət anlayışını insan qəlbinin ən yüksək mənəvi keyfiyyətləri kimi təsvir edir. Bu şeirlər insanın ürəyini ən gözəl hisslərlə doldurur, iç dünyasını işıq selinə qərq edir. Böyük bir mənəvi nemət kimi qəbul edilən məhəbbət hissləri insanı həyata bağlayan, yaşamağa,

möcüzələr yaratmağa sövq edən gözəl hi hisslərdir.

O, həyata, insana zəngin fərdi yaradıcılıq münasibəti olan bir şairdir. Və bir şair kimi Azərbaycan ədəbiyyatına yeni səs, yeni ruh kimi daxil olub, müasir şeirimizin yeni perspektivlərini yarada bilib.

Onun sevgi şeirlərində lirik qəhrəmanın əxlaqi mahiyyət daşıyan yüksək mənəvi keyfiyyətləri, lirik düşüncələri, humanist duyğuları… nəzərdən yayınmır. Təmiz əxlaqi-mənəvi keyfiyyətə, zəngin və romantik təbiətə malik olan lirik qəhrəmanın ləyaqət və qüruru, humanizm və insani keyfiyyətləri onun şeirlərində qabarıq şəkildə verilir. O, ürəklərə yol açan, insan duyğularını təlatümə gətirən, yaradıcılığını, poeziyasını şəxsləndirməyi bacaran bir şair kimi, yalnız sözləri cilalamaqla məşğul olmur, sözün

ruhuna, mənəvi aləminə nüfuz edə bilir, sözün zahiri gözəlliyinə deyil, daxili tutumuna fikir verir.

Bəli, Zaur Ustac lirik şairdir. Həssas qəlbli, saf ilhamlı şairdir. Şeirlərində hisslər, duyğular, emosiya, fikir… mühüm yer tutur. Onun ürəksiz, odsuz-alovsuz yazılan, poetik hissdən məhrum olan lirik bir şeirinə də rast gəlmək mümkün deyil.

Onun şeirlərində humanizm işığı var, ümid işığı var. Şeirlərində şair poetik təəssürat yaratmaqla yanaşı, həm də sözün rənglərini gözlərimiz önündə canlandırır.

## ÜRƏYİ ŞEİRLƏRİNDƏ ÇIRPINAN ŞAİR

Zaur Ustacın şeirlərində onun ürək çırpıntılarının səsi «gizlənib».

Bu səsi eşitmək, bu səsi duymaq o qədər də asan məsələ deyil.

Hər şeirdə şair ömrünün bir anı «gizlənib». Bu anın özü də şair dünyasını gözlərimiz önündə canlandıra bilir.

Şairin xoşbəxtliyi hiss və duyğularını, yaşantılarını, mənəvi ağrılarını, qəlb çırpıntılarını şeirlərində əbədiləşdirməsidir. Çünki bu duyğular, bu yaşantılar, bu qəlb çırpıntıları şair əbədiyyətə qovuşandan sonra da onun şeirlərində yaşamaq hüququ qazanır. Deməli, şairin əsl ömrü ölümündən sonra başlayır. Şairin şeirləri həm sağlığında, həm də özündən yüz illər sonra sevilə-sevilə oxunursa, şairin ölümündən danışmaq da insafsızlıqdı. Və bir də mənə elə gəlir ki, şairlər ruhunu şeirlərinə hopdurur. Zaur Ustacın şeirlərini oxuyandan sonra mən bu fikri söyləməyə özümdə bir daha cəsarət tapa bildim. Gördüm və hiss elədim ki, şairin şeirlərində onun ruhu çırpınır.

Zaur Ustac öz sözü olan şairdi. Hər şeirində öz nəfəsi duyulur, öz səsi eşidilir. Hər şeirinin öz məna yükü, hər misrasının öz poetik çəkisi var. Ümid və inam şairin şeirlərində daha güclüdür. O, pessimist deyil, heç vaxt ümidsizliyə qapılmır. Hər ümidsizliyin özündə də bir ümid işığı axtarır. Elə onu yaşadan da, içindəki işığı sönməyə qoymayan da şair ümididir, şair inamıdır.

Zaur sözə və sözün böyüklüyünə dəyər verən, onu ilahiləşdirən, uca tutan bir şair, bir söz adamıdır.

Deyirlər poeziya həyatın özü qədər şirindir. Ona görə şirindir ki, burda qayğı, həsrət, nisgil qarışığı var. Zaur Ustacın poeziyasında qayğı, həsrət, nisgil və dünyamızın

narahat yaşamına etiraz və sevgi bütövdür. Bu bütövlüyü onun bütün yaradıcılığında aydın görmək mümkündür.

Şair qələmlə ülfət bağlayıb. Uzun illərdir ki, qələmlə dostluq edən şair heç vaxt bu «dostluğa» xəyanət etməyib, qələmini yamanlığa işlətməyib. Qələmilə Vətənə, millətə, ədəbiyyata xidmət eləyib və bu xidmətdən bu gün də mənəvi zövq alır. Söz mülkünə qələmilə iz salan şair «Otuz ildi əldə qələm» şeirində yazır:

***Otuz ildə əldə qələm,***
***Söz mülkünə iz salmışam.***
***Çox əskidən qalma odam,***
***İndi-indi köz salmışam.***

***Heç qorxmadım əziyyətdən,***
***Yazdım mövcud vəziyyətdən.***
***Bil, agah ol məziyyətdən,***
***Əyri deyib, düz qalmışam.***

Bu misralardan da aydın olur ki, şair həmişə əyrini əyri, düzü düz yazıb və heç kimdən, heç nədən çəkinmədən haqqın səsini eşidib, haqqı yazıb.

Poeziya yolu hamar deyil, enişlidir, yoxuşludur, əziyyətlidir. Əbəs yerə böyük rus yazıçısı L.Tolstoy yazıçı əməyini qul əməyi adlandırmayıb ki?

Şair adını daşıyan Zaur Ustac, ancaq mövcud vəziyyətdən yazmaqla, ürək çırpıntılarını şeirlərinə gətirməklə, hiss və duyğularını misralara hopdurmaqla oxucu qəlbinə yol tapan qələm adamlarından biridir. O, ərz elədiyim kimi heç vaxt haqq yolundan çıxmayıb, bir tikə çörək xatirinə dəyərsizləri dəyərli kimi qələmə verməyib, heç kimi lazım olduğundan artıq tərifləməyib, nə yazırsa, anca haqqı yazır, haqq sözünü qələmə alır.

Zaur olduğu kimi görünən, göründüyü kimi olan söz adamıdı. Əlinə qələm aldığı gündən bu günə kimi şair ömrünü şair kimi yaşamaqda davam edir:

*Çoxları kükrədi, daşdı,*
*Aylar ötdü, il dolaşdı.*
*Fəsillər dəyişdi, qışdı,*
*Dəyişməyib, yaz qalmışam.*

**«Otuz ildi əldə qələm»**

İllər ötüb keçsə də, fəsillər dəyişsə də, yəni yaz ömrü yavaş-yavaş qış ömrünə yaxınlaşsa da o, yenə də həmənki Zaurdu, vətənə, millətə qələmilə vicdanla xidmət edən şairdi. Yaşa dolsa da, yenə «yaz ömründədir», - yəni əqidəsini, məsləkini dəyişməyib, heç nəyə qurban verməyib.

Zaur Ustacın şeirlərində ürəyə yatmayan misralara, yabançı fikirlərə az rast gəlmək mümkündür. Məhz bu səbəbdən də şeirləri ürəyə doğmadır, könüllərə yaxındır. Bu doğmalıq və yaxınlıq ruha da xoş gəlir. Ona görə də o, milli ruhumuzun, milli düşüncəmizin şairidir. Gəlin ruh şairinin ruhumuza yaxın olan «Gözün gözü» şeirindən bu misraları nəzərdən keçirək:

***Gülən gözün gözəlliyi gözəldir,***
***Gülən gözü görünməyən göz görər.***
***Gözün gülür, gözün gözü gülməyir,***
***Gözdə gözü görünməyən göz görər.***

«Göz» sözünü müxtəlif mənalarda işlədən şair, göz, gözün, gözdə…təkrirləri ilə oxucu ürəyinə xoş ovqat bəxş eləyir. Bu xoş və gözəl ovqat şeirin hər üç bəndində ustalıqla vəsf edilib ki, bu da şairin sözü necə bir incəliklə «oynatmasından» xəbər verir:

***Gözü gözdən gözün gözü gizlədir,***
***Gözdə gözü gözün gözü gizlədir.***
***Gözün gözü gözümüzdə gizlidir,***
***Gizli gözü görünməyən göz görər…***

Onun kövrək və sevgi dolu ürəyi var. Bu ürək ağappaq işığa bürünüb. Ağappaq işığa bürünən ürəyin döyüntülərindən məhəbbətin, sevginin səsini eşitmək mümkündü.

«Sev» şeirində şair ürəyinin səsini eşidirsən, sanki şeiri oxumursan, kövrək bir ürəyin pıçıltılarını dinləyirsən:

***Sən sev, səni sevəni, seçibdi sevgi səni,***
***Sevməyəni sevənlər sevgisində suçludur.***
***Sevdiyini söyləyən, seçibdi sevgisini,***
***Sevgisin sezdirməyən sevgisində suçludur.***

Şairin ürəyində çırpınan ürək hər kəsi sevib-sevilməyə səsləyir, sevmək, sevilmək xoşbəxtlikdir, sevincdir, - deyə şirin səslə bildirir:

***Sevgi, sevib-sevilmək, sevənin sevincidir,***
***Sevgi, sonsuz səxavət, sevdanın sonucur…***

Zaur Ustac hissiyatlı, emosional şairdir. Həzin və kövrək notlar üzərində söz deməyi bacaran şairin ilham çeşməsi qaynayıb-daşır. Kövrəklik və səmimiyyət bütövlükdə yaradıcılığının canına hopan şairin şeirlərinin oxucu ürəyinə yol tapmasının bir səbəbini də bunda axtarmaq lazımdır.

Şairin hər şeiri bir nur damlasıdı və düşünürəm ki, bu nur damlaları omasaydı, dünya qaranlığa qərq olardı, həyat öz dəyərini və şirinliyini, dünya öz gözəlliyini itirərdi.

O, bu dünyaya təkcə şeir yazmaq üçün gəlməyib. O, bu dünyaya həm də xeyirxah və savab işlər görmək üçün gəlib.

Xeyirxahlıq şairlər üçün ən gözəl keyfiyyətlərdən biri hesab olunur. Axı yaxşı şeir də oxucuya edilən xeyirxahlıqdı, yaxşılıqdı.

Ədəbiyyat-əbədiyyətdi, - deyirlər. Bu mənada Zaur Ustac ədəbiyyatın ədəbi dünyasına daxil olan şairdi və bir şair olaraq onun poeziyasının ədəbiyyatın əbədiyyət tarixinə yazılacağı şübhəsizdir.

Şair kimi, əsl ziyalı kimi ona dəyər verən Filologiya elmləri doktoru, professor Qurban Bayramov «Zaur Ustac-qələmdar olmaq missiyası» məqaləsində yazır: «…. Onun (Zaur Ustacın - red.) milliliyə, vətənsevərliyə, yurda bağlılığa söykənən bilgisi, axtarış və tapmaq şövqü məmnunluq doğurur. Bu, əslində, müasir Azərbaycan zehniyyətinin bənzərsiz xüsusiyyətlərindən irəli gəlir - unutqanlıq sindromundan qurtuluş yolunu tapmaq və bunu şahrah yola çevirmək cəhdi. Bütün mənəvi ehtiyacları ödəyən, əsrarəngiz Azərbaycan ruhunu bərpa edərək etik bir prinsipə çevirmək cəhdi kimi də qəbul etmək olar». - Bəli, sevgi şeirləri ilə də oxucunun mənəvi ehtiyacını ödəyən, ürəyinin dərinliyindən gələn incə, isti hissləri poeziya vasitəsilə oxuculara çatdıran Zaur Ustac güclü şəxsiyyət olduğu kimi şeirlərində işlətdiyi sözlər də güclüdür, mənalıdır. Sözlərdən qiymətli incilər yaradan, ürəkləri oxşayan, insanı düşündürən şeirlər yazan şair söz qədrini gözəl bilir.

Gəlin bu misralara diqqət yetirək:

***Ümid çırağını yandırıb yenə***
***Yoluma mayak tək işıq saçırsan.***
***Arzular qoynunda qanadlanırkən,***
***Bələdçi durna tək öndə uçursan…***

**«Bələdçi»**

Bəli, Zaur Ustac duyğulu şairdir. Duyğular ürəyində bulaq kimi qaynayıb-daşır. O, bu duyğular aləmində sahilləri qucuyan ləpə olmaq olmaq istəyir. Sevən aşiq nədən dəniz ləpələrinə qarışıb özü bir ləpə olmaq istəyir? Sualın cavabı aydındır.

Bu misrala diqqət yetirək:

***Sahilləri qucuyan ləpə olmaq istərəm,***
***Saçlarını oxşayıb vüsala yetmək üçün.***
***Gah həzin, gah şiddətlə,***
***Əsən küləklər olub,***
***Qanadlanmaq istərəm;***
***Oxşayıb camalını, üzündən öpmək üçün…***
***İstərəm asimana qalxım, qaranquş kimi,***
***Heç olmasa, kənardan hüsnünü görmək üçün…***
***Bu həyatdan çox uzaq, xəyallara dalmışam,***
***Qəfəsdəki bülbül tək gülə həsrət qalmışam…***

**«Belədir»**

## SÖZLƏ NƏFƏS ALAN ŞAİR

Zaurun söz dünyası ağappaq nura bələnib. Şairin söz dünyasının sehrinə düşdüyümü anlayıram. Həm də ovsunlanmış kimiyəm. Bu sehrdən, bu ovsundan çıxa bilmirəm. Sözlər, misralar «əl-ələ verib» məni öz əhatə dairəsində saxlayır. Sözlərin cazibə qüvvəsindən çıxmağın asan olmayacağını hiss edirəm.

Şairin söz dünyası ilə yaxından tanış olduqca heyrətlənməyə bilmirdim. Bilmirdim ki, sözün təsir qüvvəsi bu qədər güclü olar. Və mən şair sözünün gücünü, qüvvəsini, əzəmətini, hökmünü hiss etdikcə təəccüblənirdim. Niyə? Çünki Zaur Ustacın sözünün kəsəri qılıncdan kəsərliydi, sözünün əzəməti dağdan əzəmətliydi. Görəsən, onun sinəsində döyünən yumruq boyda bir ürəkdən süzülüb axan sözlər bu qədər gücü, bu qədər əzəməti, bu qədər ülviliyi…haradan alırdı? Görəsən, sözünün ağırlığı dağdan ağır olan şair bu sanballı, bu əzəmətli sözləri hansı ilahi qüvvədən alırdı? Deyə bilmərəm. Ancaq onu deyə bilərəm ki, o dünyaya yazmaq üçün, sözə yeni nəfəs vermək üçün gəlib. Məhz ona görə də o, anadan şair doğulub. Şair adının yükü çox ağırdı. Həm də çəkiləsi mümkün olmayan dərdlər şair ürəyinə yığılır və orada cücərməyə başlayır. Bu dərdlər şair ürəyində cücərib boy atır, sonra da başlayır çiçəkləməyə. Çünki şair ürəyi xeyirxah olur. Xeyirxah ürəksə çiçəkləməyə bilməz.

Onun ürəyində təmiz sevgi var, ülvi məhəbbət var. Bu sevgi insanlaradı, yurd yerinədi, Vətən torpağınadı. Vətənin hər qarış torpağını, hər qara daşını, quru çöpünü belə müqəddəs bilən şairin ürəyində bulaq kimi qaynayan sevginin tükənməyəcəyi bəllidir.

Zaur şeir yazmır, şeir onun ürəyində doğulur, özü də məna dolu fikirlərlə doğulur.

*Elə bil yüz illik yuxudayam mən,*
*Dünyanın işləri pərdə dalında.*
*İnsanlar yalançı, həyat kələkbaz,*
*Dünya öz işində qalmaqalında.*

*Saxtalıq, dumduru göz yaşı kimi,*
*Açıqdan açığa eləyir tüğyan.*
*Qənşərində durub gözünə girir,*
*Ta ehtiyac deyil, sağa-sola boylan!*

**«Belədir»**

Şeir 28 il öncə qələmə alınıb. Ötən illər ərzində heç nə dəyişməyib. Saxtakarlıq, yaltaqlıq, yalançılıq, haqsızlıq… yenə də davam eləyir, yenə də mərdi qova-qova namərd eləyirlər, yenə də oğrular doğruları dara çəkir, yalan ayaq tutub yeriyir…

*Riyadır, yalandır büsbütün həyat,*
*Ərşəmi çəkilib, itib həqiqət.*
*Dünya belə qalmaz - işartı, ümid*
*O gün haçan doğar, bilinmir fəqət.*

28 il öncə «Dünya belə qalmaz» deyən şair bu şeiri böyük ümidlərlə qələmə almışdı. İnanırdı ki, haqq-ədalət öz yerini tutacaq. Təəssüf ki, hələ də haqq-ədalət öz yerini tuta bilmir, hələ də «günəşin üzünü qara buludlar örtməkdədir». Bunu şair hamıdan yaxşı görür və istər-istəməz qəzəblənir və «günahı» dünyada görür.

*Bu dünya nə deyib durub, gözləyir?*
*Niyə məhvərindən çıxmır, dağılmır?*
*Çöküb dizi üstə solub, sıxlayır,*
*Niyə cana doyub, qalxmır bu dünya?*

**«Dünya»**

Dünya - əslində xalqdır. Şair üzünü düyaya yox, xalqa tutub deyir ki, ehtiyac əlindən, qayğı və problem yükündən azad olmağın vaxtı deyilmi? Ayağa qalxıb haqqınızı tələb etməyin vaxtı gəlib çatmayıbmı?

Xalq isə hələ yuxudadır. Şair xalqa çağırış edir, onu silkələyib yuxudan oyatmağa çalışır. Xalqın oyanmadığını görüb «Bəlkə, sürgün edək bu xalqı Aya» deyərək haqq səsini daha da ucaldır.

Bu üsyankarlıqla yanaşı, Zaurun poeziyasında gözəllik var, sevgi və məhəbbət var, həsrət var, ayrılıq var, qəm və kədər var. Onun hər şeiri sakit təbiətli, mülayim xasiyyətli insan kimidir. Çığır-bağır salmaz, heç kimin zəhləsini tökməz, xətrinə dəyməz, dindirsən dinər və səninlə könül söhbəti eləyər. Bu söhbətdən mənəvi zövq alarsan, işıq selinə bürünərsən, bulaq suyu kimi durularsan, saflaşarsan, çünki Zaurun şeirlərinin təsir gücü çoxdur və bu şeirlər adamın qolundan tutub işıqlı gələcəyə doğru aparır. Onun şeirlərini duymaq, hiss eləmək, misralardan «boylanan» məna və fikirləri açmaq o qədər də asan olmasa da, çətin də deyil; çətini şairin söz dünyasına daxil olmaqdı, daxil oldunmu, hər şey gözlərin qarşısında gözəl bir mənzərə kimi açılacaq və sən özünü tamamilə başqa bir dünyada hiss edəcəksən. Onun dünyasında saflıq var, halallıq var, düzlük və təmizlik, dostluq və qardaşlıq, sevgi və məhəbbət var. Onun söz dünyasına daxil olan hər kəs, ürəyində yuva salmış dərdin, qəmin yaz qarı kimi əridiyini hiss edəcək. Hiss edəcək ki, canına bir istilik yayılır. Bu istilik qorxunu, nifrəti, qəzəbi… yavaş - yavaş əritməyə başlayır. Qorxunun yerində igidlik, nifrətin yerində məhəbbət, qəzəbin yerində mehribanlıq, xeyirxahlıq baş qaldırır. Bu gözəl hisslər insanın ürəyini bürüdükcə dünyanın rəngi dəyişir və daha gözəl olur. Dünya gözəl olduqca yaşamaq da şirinləşir və yaşamağın gözəl olduğunu bir daha dərk eləyirsən.

***

Zaur Ustac sözün ağırlığından, şair adının yükündən çəkinən qələm sahibi deyil. Şair adının yükünü çiyinlərində şərəflə daşıyır və yuxarıda ərz elədiyim kimi sözlə dostluq eləyir və sözü oynatmağı sevir. Öz yerində «oturdana» kimi sözü ustalıqla oynadır. Əyri-üyrü, kələ-kötür daşları usta cilalayıb lazımi səviyyəyə gətirdiyi kimi o da sözdən yerində istifadə eləyir. Bu, onun söz ustalığından irəli gəlir. Deməli, daş ustası, saz ustası olduğu kimi, söz ustası da var. Hər adam saz ustası ola bilmədiyi kimi, hər adam da söz ustası ola bilməz. Bu, qanunauyğunluqdur və bu qanunauyğunluq yüz illərdir ki, davam eləyir.

Bəli, Zaur Ustacın hər şeirində ürəyi döyünür. Bu şeirlər inci kimi yaşayacaq və həmişə ürəklərə rahatlıq gətirəcəkdir. Ürəkdən qopan inciləri - şeirləri var-dövləti, həm də övladları kimi qəbul edən şair haqlıdır. O, şeirlərinin əbədi yaşayacağı fikrinə görə də haqlıdır. Bu haqqı ona qələminin və istedadının gücü verib.

***Qönçə dodaqların bal süzür indi,***
***Kişmişin yaxşısı quşa qalan tək.***
***Taclı tər çiçəyin, məs gəzir indi,***
***Aranın al narı Muşa varan tək.***

***Qırmızı, gündöyən yeri almanın,***
***Dümağdı, gündəyməz zehi heyvanın.***
***Paçalı, bütövdən şirindi narın,***
***Şərabın köhnəsi nuşa yatan tək.***

**«Tutqu»**

Bu misralarda yüksək pafosa, ritorik təmtərağa rast gəlməsək də, müxtəlif bənzətmələrə rast gəlirik. Və bu bənzətmələr o qədər inandırıcı, o qədər səmimidir ki…

Şeirlərinin gözəlliyi axıcılığında, ürəyə sakitlik gətirməsində, lirik emosional təsir bağışlamasındadır. Misralardakı səmimilik, sadəlik, sözlərin zərgər dəqiqliyilə işlədilməsi, yığcamlıq, ideya aydınlığı, xalqdan gəlmə sadə, şirin dil…onun poeziyasının ruhudur.

O, başqalarının görmədiyini görə bilir, başqalarının duymadığını duya bilir, hiss etmədiyini hiss edə bilir. Yeni rənglər, çalarlar aşkarlamaq istedadına malik olan şairə poetik obyektə orijinal münasibətilə də diqqətdən yayınmır.

O, ədəbiyyata həyatdan gəlib və ədəbiyyatın ədəbi dünyasına daxil olub və istedad sahibi olduğuna görə də əsl şeirlər yazır. Görkəmli tənqidçi, ədəbiyyatşünas, dünyadan vaxtsız köçmüş unudulmaz Aydın Məmmədovun 1988-ci ildə «Yazıçı» nəşriyyatında çap olunmuş «Sözümüz eşidilənədək» kitabında oxuyuruq: «Əsl şeir nə ayrılıqda götürülmüş istedadla yaranır, nə də ki, təbii istedada arxalanmayan biliklə. Əsl şeir o yerdə yaranır ki, həmin yerdə istedadla zəngin biliyin münbit sintezi, yaradıcı vəhdəti var. Belə sintez, belə vəhdət isə günaşırı yaranmır, iyirmi-otuz ildə bir yetişir və iyirmi-otuz illik bir poeziya mərhələsi üçün həm aparıcı qüvvə, həm də keçmişin zəngin irsi ilə gələcəyin cücərtiləri arasında körpü rolunu oynayır». - Doğrudan da əsl şeir istedadla yaranır. Zaur Ustac da ilk şeirlərini qələmə aldığı gündən istedadlı bir şair olduğunu, ədəbiyyata, poeziya dünyasına kitablardan gəlmədiyini sübut elədi. O, həm də ilk şeirlərindən göstərdi ki, Ağdam rayonundan ədəbiyyata yeni nəfəs gəlir, heç kimi təkrarlamayan, özünəməxsus yaradıcılıq üslubu olan bir şair gəlir. Və gəldi də.

Hər bir şeir şairin ürəyindən gələn səsdir. Biz bu səsi eşidərək şairin mənəvi dünyası ilə tanış oluruq, onun hansı duyğularla, düşüncələrlə yaşadığını görürük. Bu mənada Zaurun şeirlərini onun tərcümeyi-halının bəzi məqamları kimi də qəbul etmək mümkündür.

Hər şeirində Zaur Ustacın özü görünür. Onun yüzlərlə şeiri var ki, bu şeirlərdə onun yaşadığı ömrün müxtəlif anlarından xəbər tutmaq olar.

Bir çox şeirlərində şair ömrünün müxtəlif anları ilə tanışlıq oxucunun qəlbinə təsirsiz ötüşmür. Şairin yaşantıları əslində milyonlarla adamın yaşantısıdır. Və bu yaşantılar heç kimin qəlbində izsiz ötüşmür.

Ürəyi şeirlə danışan, müasirlərinə bədii söz həyəcanı, sənət sevinci və ilahi zövq aşılayan Zaur Ustac öz əsərlərində xalqın idraki qüdrətini, hissi-emosional zərifliyini nümayiş etdirir.

İncə, gözəl və cazibədar, oxunaqlı və düşüncəli əsərlərilə könül oxşayan şairin poeziyası oxucunun hisslərini tərpədir, bəiilik şəklində onun şüuruna daxil olur, onu duyğulandırır, həyata bağlayır, həyatın dərkinə kömək edir…

Ürəyindən və qələmindən süzülən hiss-həyəcanları, düşüncə axınını, mühakimələri ustalıqla oxucuya çatdıra bilən şairin hər şeirinin arxasında canlı insan, onun mürəkkəb və zəngin daxili aləmi, hiss-həyəcanları, duyğu və düşüncələri dayanır. Unudulmaz şairimiz Səməd Vurğunun «Sözün şöhrəti» şeirindəkii «Adın sözdür, özün insan, nə mənalar yaşar səndə» misrasının dərin məna tutumu şeir sənətinin göstərilən xassəsidir.

Zaurun şeir dili sadə və oynaqdır, rəvandır, səlisdir, axıcıdır. Bu, belə də olmalıdır. Axı sənətkarın yazı üslubu, yazı dili misilsiz və tükənməz sərvətdir, milli mədəniyyətimizin güzgüsüdür. K. Uşinskinin təbirincə desək Zaur Ustacın şeir dilini belə səciyyələndirmək olar: «Dildə bütün xalq və vətən təcəssüm olunur: onda xalq ruhunun yaradıcı gücü, vətən göylərinin səsi, onun havası, fiziki hadisələri, ab-havası, çölləri, dağları, düzləri, meşələri və çayları, burulğan və tufanları gerçəkləşir…Ancaq xalq dilinin işıqlı

və şəffaf ənginliklərində doğma yurdun təkcə təbiəti deyil, həmçinin xalqın mənəvi həyatının bütün tarixi əks olunur».

- Oxucunun, ümumiyyətlə poeziyasevərlərin mənəvi həyatını, könül dünyasını öz şeir və poemalarında əks etdirən, sözün dinamik ehtiyatlarını üzə çıxaran, onun bədii çəkisini artıran, sözü adət etmədiyimiz mənalarda işlətməklə mətni şeir səviyəsinə qaldıran Zaur Ustac təşbihlərdən, mübaliğələrdən, bədii təsvir vasitələrindən yerli-yerində istifadə etməklə gözəl sənət nümunələri yarada bilir.

## SONET DÜNYASI

Zaur Ustac bir şair kimi müxtəlif janrlarda şeirlər yazmış, nəyə qadir olduğunu, hansı istedad sahibi olduğunu göstərmişdir. O, hansı mövzuda, hansı janrda yazırsa yazsın, mütləq oxucu qəlbinə yol tapacaq, oxucu qəlbini işıq selinə qərq edəcəkdir. Bu mənada şairin «Xudayar dastanı»- sonet çələngi də müstəsna əhəmiyyət kəsb edir.

Şair bu sonet çələngində Vətən müharibəsi qəhrəmanı, şəhid Xudayar Yusifzadədən söhbət açır, onun bir igid oğul kimi poetik obrazını yadda qalan bədii lirik lövhələrlə təsvir edir, Xudayarın portretini ustalıqla yaradır.

Zaurun yaradıcılığında qələmə aldığı sonetlər diqqəti cəlb edən şeir janrlarından biridir.

Məlumat üçün onu da bildirmək istəyirəm ki, sonetlər şairin zəngin ədəbi irsində öz ideya-estetik dəyərinə görə mühüm yerlərdən birini tutur. Bu sonetlərdə dərin məna, güclü hiss, bədii ümumiləşdirmə diqqəti xüsusilə cəlb edir.

«Xudayar dastanı» - sonetlər çələngindən söz açmazdan öncə onu da bildirmək istəyirəm ki, Azərbaycan poeziya tarixində sonet janrından demək olar ki, geniş istifadə edilməmiş, daha doğrusu, bu janra daha çox şair Adil Babayev müraciət etmiş və bir-birindən mənalı, oxunaqlı sonetlər yaratmışdır.

Sonet ingilis şairlərinin, xüsusilə V.Şeksperin yaradıcılığında xüsusi yerlərdən birini tutur.

Orta əsrlər dövründə Şərq xalqları ədəbiyyatında, o cümlədən Azərbaycan poeziyasında qəzəlin, yapon şeirində tankanın, fransız və İtaliya ədəbiyyatında triolet, virile kimi, İtaliyada ədəbiyyata vəsiqə alan sonet sonralar İspaniyada, Fransada, İngiltərədə geniş yayılaraq ədəbi yaşamaq hüququ qazanmışdır.

Ərz elədiyim kimi, sonet Azərbaycan ədəbiyyatının «kandarında» qalmış, ədəbi xəzinəmizə daxil ola bilməmişdir. Amma buna baxmayaraq bəzi şairlər sonetlər yazmaqla bu şeir növünü də oxuculara sevdirə bilmişlər.

İngiltərədə sonet yazanların birincisi V. Şekspeṛ olmadığı kimi, Zaur Ustac da Azərbaycanda sonet janrına müraciət edən ilk şairlərdən deyil.

Yeri gəlmişkən onu da bildirmək istəyirəm ki, sonet - «şaqraq nəğmə» deməkdir. Zaurun yazmış olduğu «Xudayar dastanı» və «Dağ» sonet çələngini «qəhrəmanlıq nəğməsi» də adlandıra bilərik. Və onu da deyə bilərik ki, onun da sonetləri Azərbaycan ədəbiyyatında özünəməxsus iz qoyub və ədəbiyyat tarixində yeni bir səhifə açıb.

Şairin sonetlərinin məftunediciliyi, heyranediciliyi ondadır ki, burda şairin dili ilə bəşəri duyğular - qəhrəmanlıq və sevgi duyğuları öz əksini tapıb:

***Qarabağ uğrunda gedən savaşda,***
***Şəhadət bağından sən də gül dərdin.***
***Könüllər oxşayan nəğmələrini,***
***Döyüşçü dostların qəlbinə sərdin.***

Bu misraların hər biri oxucu ürəyindən xəbər verir, onu düşündürür, xəyal aləminə qərq edir, gözlərimiz önündə igid Xudayarı canlandırır:

Yaxud bu misralara diqqət yetirək:

***Şəhidlik köynəyi geydin əyninə,***
***Qorxudan ölümün rəngi ağardı.***
***Tanrı mələkləri qondu sinənə,***
***Səni nəğmə-nəğmə çəkib apardı.***

Bu sonet misralarının özü də Zaur Ustacın özü və sözü haqda oxucuda müəyyən təsəvvür yaradır və şairin mənəvi zənginliyinə, sözünün qüdrətinə, poetik ifadəsinə heyranlığını gizlədə bilmirsən. O, sonetlərində sanki sirli-sehrli bir dünyadan söhbət açır, bu dünyanın gözəlliyini, həyatın şirinliyini vəsf edir. Bu sirli-sehrli dünya Xudayarın dünyasıdır. Şair sonetlər çələngi ilə Xudayar dünyasında gəzişmələr eləyir, hiss və duyğularını, həyəcanlarını, fikir və düşüncələrini… çələng kimi «hörərək» sanki şəhid Xudayarın məzarı üstünə gətirib qoyur və o qəhrəman oğula öz ehtiramını bildirir.

Bütün sonetlərdə olduğu kimi Zaur Ustacın sonetləri də 14 misralıdır. Bu sonetlər də İtaliya, ingilis sonetinin düzümündən - quruluşundan fərqlənmir, qafiyə sisteminin normalarına riayət olunur.

Poetik obrazın dərinliyi və gözəlliyilə seçilən Zaur Ustacın sonetləri öz sehri, ovsunu ilə də oxucu ürəyini oxşayır.

Səmimi deyirəm. Zaurun «sonet çələngi» möcüzə təsiri bağışlayır. Bu «sonet çələngi» Xudayar Yusifzadəyə həsr olunmuş lirik poemadır. Şairin böyüklüyü həm də ondadır ki, Azərbaycan ədəbiyyatında ilk dəfə olaraq sonet janrında lirik poema yazmış, bu addımı ilə də oxucunu heyrətləndirə bilmişdir.

Gəlin bu misralara diqqət yetirək və şairin yaratdığı sonet möcüzəsi ilə bir daha tanış olaq:

***Yağıştək ələndi yağı gülləsi,***
***Sinəndə astaca çiçəkləndi qan.***
***Səni qucaqladı Vətən torpağı,***
***Öpdü lalə-lalə yanaqlarından.***

«Xudayar dastanı» Ustac yaradıcılığında mühüm yerlərdən birini tutur. 44 günlük Vətən müharibəsində bütün

azərbaycanlıların sevimlisinə, istəklisinə çevrilmiş, hər ana ürəyində bir oğul, hər bacı qəlbində bir qardaş kimi qərar tutmuş o igid, cəsr qəhrəman haqqında yazılmış ən dəyərli bir əsərdir. lirik poemadır, böyük məhəbbətlə, ehtiramla yazılmış epik dastandır. Şəhid Xudayarın mənəvi dünyasına, onun xarakterinə, mərdlik, qorxmazlıq xüsusiyyətlərinə işıq salan bir poemadır. Poema on beş bölmədən ibarətdir və hər bölmə oxucunu şəhid Xudayarın düzlük, saflıq, təmizlik… dünyasına çəkib aparır. Sonetin ilk misralarından Ustacın Azərbaycanın igimd oğluna - şəhid oğluna böyük hörmət və ehtiramı hiss olunur.

Xudayarın hələ beşikdəykən igid və vətənsevər bir oğul olacağı, ürəklərə yol tapacağı kövrək, şirin nəğmələrlə şairin qələmində oxucuya çatdırılır:

***Ana laylasıyla yurdsevərliyi,***
***Hopdurdu qanına şirin bayatı.***
***Hələ beşikdəykən qığıltıların,***
***Kiminə «Cəngi»ydi, kimə «Heyratı».***

Hələ beşikdəykən ana südü ilə, laylasıyla damarlarında axan türk qanına vətənpərvərlik, yurdsevərlik, igidlik, mərdlik…duyğuları hopan, ana nəsihətilə böyüyən Xudayara anasının dililə yazılmış bu misralara diqqət yetirək:

***Damarlarında axan qanınla qoru,***
***Anatək müqəddəs «vətən» sözünü.***

Və yaxud:

***Sənə qucaq açan bu qoca diyar,***
***Ulu babaların əmanətidir.***

*...Qoru torpağını öz anan kimi,*
*Sadiqlik bu yurdun ərinə xasdı.*

«Vətənin ən kiçik daşına belə» ömürlük sədaqət andı içən Xudayar İkinci Qarabağ müharibəsində andına sadiq olduğunu, anasının bir vaxtlar dediyi «Ulu babaların əmanətini» canı bahasına qoruduğunu hamıya bildirdi. Bildirdi ki, «Qeyrətli sərhədçi qəlbində təkcə, Vətən sərhədinin sərhədi yoxdur. Torpaq yad tapdağından, düşmən işğalından «üşüməsin» deyə qanıyla torpağı isidən Xudayar Yusifzadə nəğmələri ilə də düşmənlə döyüşüb və şairin yazdığı kimi:

*Otuz il ucalan dərd hasarını,*
*Düşmənin başına yıxdın, igidim.*

«Şəhidlik köynəyini əyninə geyən» şəhid Xudayara sonetin ilk iki misrasında deyildiyi kimi:

*Xudayar çağırdı anan adını,*
*Söylədi: - Bəxtinə xuda yar olsun!*

Doğrudan da igid, cəsur oğula Xuda özü yar oldu, ona ölməzlik qazandırdı, onu əbədiyyətə qovuşdurdu. Axı şəhidlik - ölməzlik deməkdir. Şəhidlik tale qismətidi. Bu qismət hər kəsə nəsib olmur. Bu qismətin özü də Tanrı payıdır.

Xudayarın «Dumanlı dağların başında durdum» mahnısının ilk sözlərində - daha doğrusu, onun şirin səsindən hiss olundu ki, qələbə bizimlədir, Qarabağ düşməndən azad ediləcək, çünki Xudayarın səsindən «qələbə ətri» gəlirdi.

Şair də gözəl yazıb:

*Qartaltək uçduğun zirvəyə döndün,*
*Seyr etdin vətənin sərhədlərini.*
*Üzü qələbəyə gedən yollara,*
*Səpdin nəğmə-nəğmə ümidlərini.*

*...Doğma Qarabağın hər qarışına,*
*Səsindən qələbə ətri ələndi.*

Vətən müharibəsi qələbə ilə başa çatdı. Xudayar şəhid olsa da ruhu ilə vətənə keşik çəkməyə başladı. O igid, cəsur oğul şəhadətə qovuşandan sonra «vətəndə əbədi nəğməyə döndü». Bu nəğmə yüz illər sonra da oxunacaq və həmişə də igid Xudayarı xatırladacaq.

Professor Vaqif Yusifli yazır: «İkinci Qarabağ müharibəsinin dillərdə dastan olan qəhrəmanlarından biri də Xudayar Yusifzadə idi. Ölümündən qabaq Xudayar sözləri Əliağa Vahidin olan bir mahnı oxuyur. İndi bu mahnı-təsnif «Xudayar təsnifi» adlanır. Zaur Ustac Xudayar haqqında sonetlər çələngi düzüb-qoşub. Sonetlər çələngi düzüb-qoşmaq şairdən istedad tələb edir».

44 günlük Vətən müharibəsində səsindən qələbə ətri gələn Xudayarın indi də səsindən yurd ətri gəlir:

*...Şuşa da, Laçın da azad olubdu,*
*Şəhidim, səsindən yurd ətri gəlir.*

Qarabağ uğrunda gedən savaşda adını Azərbaycan tarixinin qəhrəmanlıq səhifələrinə qızıl hərflərlə yazdıran Xudayar Yusifzadənin haqqında çox yazılıb, çox deyilib, amma onun haqqında istedadlı şairimiz Zaur Ustacın «Xudayar dastanı» bütün yazılanların fövqündə dayanır. Bu sonet çələngi Azərbaycan ədəbiyyatının ədəbi xəzinəsinə daxil olan ən möhtəşəm lirik poemalardan biridir.

***

Zaur Ustacın «sonet çələnci» əsasən ingilis soneti üzərində qurulub. Duzdur, sonetlər adətən 14, 16 hecadan ibarət olduğu halda, Ustadın «sonet çələngi» 11 hecalıdır və buna baxmayaraq, daha şirin oxunur, yaddaşa daha tez «hopur», oxucunun ruhunu oxşayır.

Bu baxımdan görkəmli caz ustası, bəstəkar və musiqişünas Vaqif Mustafazadəyə həsr olunmuş «Vaqif dünyası» soneti 14 hecalı olsa da, «Vaqif Mustafazadə» «sonet çələngi» 11 hecalıdır. Dünya şöhrətli cazmenin 85 illiyinə həsr olunmuş sonetlər on beş bölmədən ibarətdir və bölümlər vahid süjet üzərində elə ustalıqla qurulub ki, onlardan birinin yerini dəyişsək, həm forma, həm də məzmun baxımından fikir çaşqınlığı yaradar.

Bu, adi «sonet çələngi» deyil, bu, əslində böyük məharətlə qələmə alınmış lirik poemadır. Sonet janrı üstündə yazılmış «Vaqif Mustafazadə» poeması Zaur Ustacın ədəbiyyata gətirdiyi yenilikdir. Çünki bu günə kimi «sonet janrında poema yazan heç bir şairin adını çəkə bilmərik. Bu sahədə ilk uğurlu addımlarını atan məhz istedadlı şairimiz Zaur Ustacdır.

Şairin «Vaqif Mustafazadə» və mayor Quliyevin əziz xatirəsinə həsr olunmuş «Dağ» sonetlər çələngindən bir neçə kəlmə söz demək istəyirəm. İstəyirəm ki, gələcək nəsillər Zaurun qələmindən süzülən incilərlə daha yaxından tanış ola bilsinlər, onun zəngin yaradıcılığında yer alan poemaları oxuyub Azərbaycanın Xudayar Yusifzadə və mayor Quliyev kimi igid oğulları ilə, Azərbaycan mədəniyyətinə, incəsənətinə böyük töhfələr vermiş Vaqif Mustafazadə ilə daha yaxından tanış olsunlar, Azərbaycanın şöhrətli oğulları ilə qürur duysunlar.

Onu da bilsinlər ki, Vaqif Mustafazadə adi caz ustası deyildi. O, həm də Zaur Ustacın yazdığı kimi:

*Dağların harayı, qayada naxış,*
*İzsiz bir ümmanda adadı Vaqif.*
*Odlar diyarına can verən yağış,*
*Bəşərin ruhuna qidadı Vaqif.*

*Xəzərdən dünyaya yayılan səsdir,*
*İnsanlıq adına butadır Vaqif.*
*Yurdumu dünyaya tanıdan kəsdir,*
*Laməkan qurulan odadır Vaqif.*

Unudulmaz Vaqif Mustafazadəyə haqlı olaraq böyük dəyər verən, onun musiqi dünyasında ən möhtəşəm yerlərdən birini tutduğunu, dünya miqyasında şöhrət tapdığını, Azərbaycanı hər ölkədə, hər coğrafi qitədə tanıdan və sevdirən bəstəkarı «sirli xəzinə, sonsuz kəhkəşanda səda» adlandıran şair həm də yazır ki, «Yurdumu dünyaya tanıdan kəsdir». - Bəli, yurdumuzu dünyaya tanıdan şəxsdir və Zaurun qələmində onun mənəvi dünyası, böyüklüyü, əzəməti bədii boyalarla elə gözəl təsvir olunub ki, heyrətlənməyə bilmirsən.

Böyük bəstəkar öz musiqisilə dünyanı heyrətləndirdiyi kimi, şair Ustac da «Vaqif Mustafazadə» sonet-poeması ilə bizi heyrətləndirməyə müvəffəq ola bilib.

Poemanın hər bəndində, hər bölümündə Vaqif Mustafazadənin özünü görürük, bədii boyalarla çəkilmiş portretini görürük. Şair o böyük bəstəkarı sözlə elə təsvir eləyib ki, biz o böyük caz ustasının timsalında bütöv Azərbaycanı görə bilirik, Vaqif dünyasına daxil olub onun hansı qüdrətə, hansı istedada malik olduğunu hiss edirik.

Vaqifin dünyası Ustacın qələmində bütün parlaqlığı ilə əks olunub. Poemada Qız qalası, Xəzər dənizi, İçəri şəhər və s. kimi adlar təsadüfən işlədilməyib.

Gəlin bu misralara diqqət yetirək:

*Yuvası Xəzərin lap qucağında,*
*Yurdumun ən məşhur qədim guşəsi.*
*Bakımın ən gözəl bir bucağında,*
*İçəri şəhərdə durur rişəsi.*

Və yaxud:

*Qonşu doğulubdu Qız qalasına,*
*Hər gün seyr eləyib mavi Xəzəri.*
*Xəzər buta verib öz balasına,*
*Üstündə saxlayıb daim nəzəri.*

Qız qalasına qonşu doğulan bəstəkarın həmin qala kimi möhtəşəmliyinə və əbədiliyinə işarə edilir, onun bir vaxtlar Xəzər dənizi kimi coşqunluğu, duyğularının dəniz kimi coşub-daşdığı oxuculara bəyan edilir. Oxuculara həm də bəyan edilir ki, Vaqif son anına kimi «Qırçın ləpələrlə yaradıb ülfət, Vaqifi əzəldən seçib sirdaşı». - Bəli, o böyük ustadın duyğuları, tükənməz enerjisi, hiss və həyəcanları həmişə ülfət qurduğu qırçın ləpələr kimi «dalğalanıb». Vaqifin sirdaşı, ancaq Xəzər dənizi ola bilərdi, duyğuları ləpələrlə «yoldaşlıq» edə bilərdi. Çünki o, tək idi, tənha idi, onu Azərbaycanda başa düşmürdülər, anlamırdılar. Anlasalar da onu qısqanırdılar, şöhrətinə kölgə salmaq istəyirdilər…

Amma Səməd Vurğun demişkən: «Günəşi örtsə də qara buludlar, yenə işığını özündə saxlar». - Vaqif Günəş idi, təkcə Azərbaycana yox, musiqisi ilə bütün dünyaya işıq saçırdı. Bu işıq bu gün də sönməyib, onun İçəri şəhərdəki evi yenə də bir qaladır:

*Hənirti hələ də var ocağında,*
*İçəri şəhərdə evi bir qala.*
*Xəzərin od kimi nar qucağında,*
*Muzey eləyiblər yadigar qala.*

«İçəri şəhərdə evi bir qala» - dedikdə şair Vaqif Mustafazadənin bir daha əzəmətini, onun əvəzedilməzliyini, möhtəşəmliyini göstərir. Bu qala alınmadığı kimi, onun da yerini heç kim ala bilmir, ala da bilməyəcək!

Şair görkəmli bəstəkarın vaxtsız ölümünə yansa da, ürəyi göynəsə də, qəmlənsə də, yenə Əzizə xanımın atasının yolunu davam etdirdiyinə görə sevinir. Sevinir ki, Vaqifin yolu ilə addımlayan qız balası var:

***İz açıb yeganə qız balasına,***
***Nə yaxşı Əzizə gəlib dünyaya…***

Bu gün atasının demədiyini qızı Əzizə deyir. Əzizə atasını əvəz eləyir. Bu, sevindiricidir. Bu sevinci şair oxucuları ilə bölüşür:

***Onun demədiyin Əzizə deyir,***
***Vaqif ürəyidir onun əlində…***

Zaur Ustacın qələmində Vaqif Mustafazadənin böyüklüyü təkcə bəstəkar, cazmen olması ilə ölçülmür, o, həm də Vətən sevdalısı olub, ən böyük vətəndaş olub, tariximizi, şərəfli keçmişimizi dərindən öyrənib, adı kimi hər elmə vaqif olub:

***Mətləbdən xəbərdar olubdu Vaqif,***
***Arif insan idi, hər elmə vaqif.***
***Daima ziyadar olubdu Vaqif,***
***Dühası dərində, zəkası saqif.***

Şair o böyük insanı, dahi bəstəkarı haqlı olaraq belə qələmə verir:

***Vaqif Abşerondu, Vaqif Qobustan,***
***Vaqif Naxçıvandı, Vaqif Qarabağ.***
***Vaqif Borçalıdı, Vaqif Dağıstan,***
***Vaqif Ərdəbildi, Vaqif Qaradağ.***

Bu misralardan da Vaqifin kim olduğunu daha yaxşı öyrənmək mümkündür. Şairin özü demişkən Vaqif Mustafazadə «Sonsuz kəhkəşanda sədadı». - Bəli, o, sonsuz kəhkəşandan gələn bir sədadır, işıqdır. Bu səsi hamı eşidir, bu işıqdan hamıya pay düşür.

***

Zaur Ustacın «Dağ» sonet çələngi də maraqla oxunur. Mayor Quliyevin dünyasına işıq salan şair onun igidliyini, qəhrəmanlığını doğulduğu yerlə, böyüdüyü mühitlə açıb göstərir. Poemada «Dağ» üç mənada işlədilir. Həm Qoqi dağı, həm sinələrə çəkilən dağ, həm də mayor Quliyevin dağ əzəməti, dağ vüqarı, dağ əyilməzliyi…

Mayor Quliyevin dağ görkəmi və onun vətənə, yurd yerinə məhəbbəti, sevgisi hər misrada, hər bənddə özünü qabarıq şəkildə büruzə verir.

Sonet çələngində hər bölmə oxucunu ovsunlamaq, mayor Quliyevi-elimizin şəhid oğlunu tanıtmaq qüdrətinə malikdir.

Şair soneti bu misralarla başlayır:

***Qoqi dağlarının ətəklərində,***
***Bir körpə izi var quzusun gəzir.***
***Qarın arxasınca zirvəyə doğru,***
***Köbələk, ya çaşır, ruzisin gəzir.***

«Quzusunu, ruzisini gəzən uşaq kimdir» sualına oxucu dərhal cavab tapa bilir: - şəhid mayor Quliyev! Azərbaycanın mərd, igid oğlunun - Birinci Qarabağ müharibəsi

qəhrəmanının uşaqlıq illərini, onun doğulub böyüdüyü Kükü kəndini - Naxçıvanın bu qədim yaşayış məskənini şeirə gətirən şair o cəsur oğulun yurda məhəbbətini, sevgisini belə tərənnüm edir:

***Şükür saf qəlbində, təmiz dilində,***
***Çəmənlər, çiçəklər oxşadı ruhun.***
***Böyüdü içində yurda məhəbbət,***
***Gəzdi zirvələrdə izini Nuhun.***

«Gəzdi zirvələrdə izini Nuhun» - misrası ilə şair demək istəyir ki, mayor Quliyev uşaqlıq illərindən Naxçıvanın qədim tarixi ilə maraqlanmış, milli kökə, yurda, torpağa dərindən bağlanmış, qarış-qarış bütün dağları gəzmişdir.

Oylağı Əyriqar, Sisqatar olan, dağlardan güc alan, dağlar kimi vüqarlı, əyilməz olan mayor Novruzəli Quliyev «Böyüdü bir barmaq çiynində çini» olana qədər eldə-obada böyük hörmət qazanmışdı. Hamı onun xətrini dünyalar qədər istəyirdi. O, həm də işgüzarlığı, zəhmətsevərliyi ilə diqqəti cəlb eləmişdi. Həm dərslərini yaxşı oxuyur, həm də «heybəsi çiynində, kitab əlində, əlindən qoymadı yerə yağanı».

Novruzəlini müəllimlər də, şagirdlər də sevirdi, gələcəyinə böyük ümidlər bəsləyirdilər.

Dağlar qoynunda böyüyən mayor Quliyev - Novruzəli dosta-tanışa nümunə oldu.

İllər ötüb-keçdi və günlərin birində o, «Dönmüşdü yurduna çiynində ulduz». Bir vaxtlar quzu otaran, çiynində heybəsi olan Novruzəlinin indi çiyinlərində səkkizguşəli ulduz parlayırdı. Bəli, o, Milli ordumuzun zabiti idi, çiyinlərində şərəflə səkkizguşəli ulduz gəzdirirdi.

«Böyüdü həyatda ər oğlu ər tək» - misrası ilə Ustac mayor Quliyevin həm də «zirehi  var idi ismətdən, ardan» deməkə

Azərbaycan zabitinin qəhrəmanlığını, cəsurluğunu, eləcə də yüksək təlim-tərbiyəsini…oxucuya çatdırır.

Poemada mayor Quliyevin vaxtsız ölümü ürəyi göynədir, elə bir oğulun həyatdan köçməsi insanın qəlbini ağrıtmaya bilmir. Ancaq neyləyəsən ki, «Tale hər il açan güldü elə bil». - Bu gülün solmağı da var; bundan qaçmaq olmaz və bir də yol öz mənzilinə çatmalıdır:

***Nişansız babadan nişan qalan ad,***
***Onu da ötürdü o gedən yola.***
***Bu yol elə yoldur varar mətləbə,***
***Nə qədər dönsə də, gah sağa-sola…***

Ölümündən sonra yenidən doğulan mayor Quliyevin ölməzliyi Zaur Ustacın misralarında özünü qabarıq şəkildə göstərir:

***Qartaltək uçduğu zirvəyə döndü,***
***Yenə həmin tərəf, elə o yöndü,***
***Qoqi dağlarında həmin əzəmət…***

Şair sonet-poemasını təsadüfən «Dağ» adlandırmayıb. Mayor Quliyevin ölümündən sonra ruhunun Qoqi dağlarına qayıtması, «Qartaltək uçduğu zirvəyə dönməsi» bədii dildə elə təsvir edilib ki, istər-istəməz özünü Qoqi dağında, o dağın ətəyində yerləşən kənddə gəzdiyini görürsən, o kənddə gözüyaşlı bir ana ilə görüşüb Novruzəli kimi bir oğul böyütdüyünə görə ona təşəkkür edir, ehtiramını bildirirsən.

«Qartaltək uçduğu zirvəyə dönən» şəhid mayor Quliyevin əziz xatirəsinə həsr edilmiş «Dağ» sonet çələngi Ustac yaradıcılığında qırmızı xələ gəlib-keçən əsərlərdən biridir.

## «ƏLİŞ VƏ ANNA» POEMASI HAQQINDA DÜŞÜNCƏLƏR…

Zaur Ustac yaradıcılığında poema janrının da xüsusi yer tutduğunu, böyük əhəmiyyət kəsb etdiyini demək mümkündür. O, lirik şair kimi daha çox tanınsa da poema janrına da müraciət edir və bu sahədə də uğurlar qazana bilir. Şairin ona yaxın poeması vardır ki, onların da əksəriyyəti Azərbaycan epik poeziyasında önəmli yerlərdən birini tutur

Məlumdur ki, poema lirik janrdan fərqli olaraq epik xarakter daşıyır və bu janrda yazılmış əsərlərdə müəyyən bir hadisənin və əhvalatın təsviri mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Zaur Ustacın «Əliş və Anna» poeması oxucuların diqqətini daha çox cəlb edən dəyərli əsərlərdən biridir. Poema haqqında  Pedaqogika üzrə elmlər doktoru, professor Kamal Cəmalov geniş məqalə yazmış,  fikir və düşüncələrini, fikirlərini… poemada əxlaqi-mənəvi dəyərləri qabarıq şəkildə əks etdirə bilmişdir. Haqlı olaraq «Əliş və Anna» poemasını Zaur Ustacın «yaradıcılıq pasportu» adlandıran müəllif yazır: «…Poemanı oxuyan zaman Zaur Ustacı dini və dünyəvi elmlərə dərindən bələd olan bir şair kimi tanıyırıq. Belə ki, poemada Dədə Qorqudun, Şah İsmayıl Xətainin, İmadəddin Nəsiminin, ümumilikdə əcdadların adının çəkildiyini görürük.

Doqquz fəsildən ibarət olan əsərdə ciddi fəlsəfi mülahizələrə, sirlərlə dolu olan göy haqqında dərin təsvir və müqayisələrə rast gəlirik. Göstərilir ki, Günəşin donu ağ ipəkdən, gündüzdən ibarətdirsə, Ayın donu isə qaranlıq gecədəndir. Tanrı gecəni, gündüzü elə bir hüsnlə yaratmışdır ki,  ona bənzər ikinci bir yaradılış olmayıb və olmayacaq da. Cövhəri sapa necə düzürlərsə, Ulu Tanrı göyə ulduzları eləcə

düzmüş, gecənin qara saçlarına sığal çəkərək, yoxluq tozunu almış, varlığı yaratmışdır:

***Günəşin saatı, ayın saatı,***
***Elə qurulub ki, nizam məhvəri.***
***Gecəylə gündüzün səhv düşməz yeri,***
***Zərrədən ən böyük ulduza qədər,***
***Bir «ol»a bağlısa, onda nə kədər…***
***Həmd olsun Allaha, tanırıq onu,***
***Hər kəlmə başında sanırıq onu.***

Şair oxucuların varlığın gizli sirləri ilə tanış olmasını istəyir. İstəyir ki, hər insan nə üçün yarandığını, niyə yaşadığını başa düşsün, yaşam mahiyyətini anlasın.

Adil Allahın mərhəmətindən bəhs edən şair yazır ki, Allah nadir dürdanəsi hesab etdiyi insana bütün canlılardan üstün olaraq ağıl verib. Bütün başqa varlıqlardan fərqli olaraq bizə düşünmək və dünya bilməcələrini qavramaq, anlamaq istedadı verib. Hər bir pay sahibi də öz qismətindən razı qalır:

***Elə bölüşdürüb, elə paylayıb,***
***Hamı qismətindən çox razı qalıb.***
***Ağlı elə bölüb, verib Yaradan,***
***Heç kim öz ağlından deyil bəgüman.***

«Nübuvvət» (Peyğəmbərlik) adlandırılan bölmədə cəhalət qaranlığından dünyaya öz mərifət günəşi ilə işıq saçan və kainatın son əfəndisi Məhəmməd peyğəmbəri salamlayan şair peyğəmbəri dünya üzüyünün qaşı sayır.

«İmamət» (imanlıq edən, məzhəb işlərinə rəhbərlik edən) bölməsində isə Həzrəti Əlini nübuvvətdən (peyğəmbərdən) nur alan işıq kimi mədh edir. Şair belə təsvir edir ki, Həzrəti

Əli (ə.) Peyğəmbər əfəndimizin eşsiz tərbiyəsi altında böyümüş və onun inanc və davranışlarından dərs almışdır.

Məhəmməd Peyğəmbər Adəm peyğəmbərin elmini, Nuh peyğəmbərin hikmətini və İbrahim peyğəmbərin həlimliyini Həzrəti Əlidə cəm olduğunu qeyd edərək buyurur: «Kim istəsə ki, Adəmə-elminə görə, Nuha - hikmətinə görə, İbrahimə - hilminə görə nəzər salsın, o şəxs Əliyyibni Əbu-Talibə baxsın». Şair elm və hikmət, şücaət və ülviyyət sahibi olan Həzrəti Əlini Məhəmməd Peyğəmbərin sözlərinə əsaslanaraq elmin qapısı adlandırır. Rəsuli-Əkrəmin elm haqqında dürüst düsturu belədir: «Mən elmin şəhəriyəm, Əl idə şəhərin qapısıdır. Şəhərə girmək istəyən o qapıdan girsin» Şair isə Həzrəti Əlinin təlimini bəşəri mahiyyət daşıyan təlim adlandıraraq yazır:

***Nübuvvət odundan nur alan işıq,***
***Atadan, babadan belə duymuşuq.***
***Rəsulun dizinin dibindən çıxan,***
***Çeşmədir, heç kimə gəlməyib ziyan.***
***Nümunə olubdur cümlə cahana,***
***Əlbəttə, aiddir arif olana.***
***Elmin şəhərinin təkdir qapısı,***
***Bu işin belədir təməl, yapısı…***

«Məad» (qayıdış yeri), «Namaz», «Oruc», «Zəkat», «Xüms», «Həcc», «Cihad», «Əmr-bə-məruf», «Nəhyu - əz-münkər», «Təvəlli», «Təbərri», «Münacat», Üsuli-iltimas», kimi bölmələrdə Zaur Ustac haqlı olaraq elm və əxlaqa bir-birini bağlayan motivlər kimi baxır. Şair yaxşılıq, düzlük, pislik, yalançılıq, ikiüzlülük və s. kimi mənfi və müsbət əxlaqi keyfiyyətlər haqqında da geniş, qiymətli fikirlər söyləmiş və əxlaq tərbiyəsinin böyük bir sistemini yaratmışdır.

Zaur Ustac bu təsvirlərlə hər şeyi gözəl görmək istəyir

və bunların da bərqərar olması üçün elmə, biliyə üstünlük verir. Hamını savadlı, bilikli, xalq üçün gözəllik yaradan görmək istəyir. Buna görə də müəllif maarifpərvər şair kimi gözəlliyin əmələ gəlməsini elmə, biliyə yiyələnməkdə və ağılda görür:

***Həqiqi elmdən bir damla dadan,***
***Heç zaman dönməyib bu doğru yoldan.***

Yaxud:

***Çevrəndə dostların dinsə elmdən,***
***Hər dəm dürr tökülsə əgər dilindən,***
***Nə xoş halımıza, bəxtəvərik biz,***
***Allahın dostların dost seçərik biz...***

***

Unudulmaz şairimiz Hüseyn Cavid «Mənim Tanrım gözəllikdir» deyib və düz də deyib. Bu mənada Zaurun da Tanrısı gözəllikdir. Gözəlliyi yaratmaq üçün insanları elmə, biliyə yiyələnmələri olduğunu yazır. «Əliş və Anna» poeması elmi, dini və fəlsəfi əsərdir. Bu əsər Zaur Ustacın geniş biliyə malik olduğunu, milli kökə bağlılığını, müqəddəs kitabımız «Qurani - Kərim»i oxumasından, bu səmavi kitabdan çox şey öyrəndiyini görürük. Həm də görürük ki, elmə, biliyə, Azərbaycan tarixinə, ədəbiyyatına, mədəniyyətinə dərindən bələd olan şair geniş bilgi yiyəsidir.

Zaur Ustac poemada müdrik bir insan kimi öyüd və nəsihət verməkdən belə çəkinmir. Bu öyüd və nəsihətlərdə bir Nizami düşüncəsi, Nəsimi, Füzuli fəlsəfəsi, Şah İsmayıl vətənsevərliyi, qəhrəmanlığı…hiss olunur. Hiss olunur ki, şair adlarını sadaladğımız o böyük söz adamlarının yaradıcılığını bütün incəliklərinə qədər öyrənmək fürsətindən lazımınca

yararlana bilmişdir.

Şairin «Əliş və Anna» poeması tərbiyəvi, vətənpərvərliyi, eləcə də maarifpərvərliyi və s. baxımından xüsusi əhəmiyyət daşıyır, epik janrda qələmə alınmış ən dəyərli əsərlərdən biri kimi qəbul edilir. O, bu əsərində həm də maarifpərvər bir şair olduğunu göstərir və xalqın da savadlı, bilikli olmasını istəyir. İstəyir ki, millətin imzası imzalar içində daha aydın görünsün, dünya xalqları içərisində ən öncül sıralarda yer alsın. Gözəl arzudur. Şairin bu arzusu xəyal deyil, gerçəklikdir, nə vaxtsa bu, belə də olacaq. Mən buna inanıram, çünki Zaurun özünə də, sözünə də inanıram. Onun qələmi millətə xidmət etdiyinə görə də «Əliş və Anna» kimi möhtəşəm bir əsər yazaraq qəlbimizi fəth eləyib.

Əsərdə dini-fəlsəfi baxışlar, keçmiş və bu günlə bağlı düşüncələr real nəzərlərlə, bədii təsvir vasitələrilə tərənnüm edilir. Əsərdə qorxmazlıq, mərdlik, cəsurluq, düzgünlük, qayğıkeşlik, səxavətlilik, dostluq və s. kimi əxlaqi keyfiyyətlər qırmızı xətlə gəlib keçir.

Tərbiyənin, ədəb-ərkanın, düzlüyün, əxlaqın, qorxmazlığın və s. məqsədini «ağıllı, müdrik, kamil və əxlaqi insan» yetişdirməkdə görən şair yazır:

***Cəlal sahibinə şərik qoşanlar,***
***Onun dostlarına pis yanaşanlar,***
***Əndazəni pozub, həddin aşanlar,***
***Yersiz körüklənib, coşub-daşanlar,***
***Belə adamlardan uzaq dolan, gəz,***
***Hədsizdən kimsəyə bir xeyir gəlməz.***

Şairin «Hədsizdən kimsəyə bir xeyir gəlməz» misrasını oxuyanda istər-istəməz Mövlana Cəlaləddin Rumini xatırladım. Bir gün böyük şair və filosofdan soruşurlar ki, sən bu qədər kitab oxuyub elm sahibi olmusan, de görüm,

nə bilirsən? - Böyük şair cavab verir: «Həddimi bilirəm». - Həddini bilməyən adamdan uzaq durmaq, gen gəzmək məsləhətdir. Şair də deyir ki, hədsizdən heç kimə xeyir gəlməz. Doğru fikirdir. Hədsiz adamlar həmişə əndazəni pozar, həddin aşarlar…

Zaur Ustac bu əsərində bir ağsaqqal kimi, müdrik insan kimi də çıxış edir. Professor Kamal Camalov yazır: «…Şair şöhrət üçün dostbazlıq edənləri tənqid edir, çörək üçün, aş üçün əldən getmələrini, dar gündə uzaq qaçdıqlarını, tez dost olub, tez doyduqlarını, varın olarsa dost olduqlarını, yeyib qurtardıqdan sonra atıb getdiklərini, dostun puluna göz dikdiklərini, yemək verəndə dostluq edənləri, verməyəndə isə düşmənçilik bəsləyənləri və s. şərh edərək üzünü Yaradana tutur:

***Səndən istəmirəm nə şöhrət, nə şan,***
***Səndən istəmirəm beş günlük ad-san.***
***Var-dövlət, saraylar deyil şakərim,***
***Öz əlim, ayağım olsun nökərim…***
***Niyyətim bəllidir, istəyim dəqiq,***
***Ustac heç istəməz nə altun, əqiq…***
***Mustafa oğlunun istəyi təkdir,***
***Zaurun arzusu dəqiqdir, yekdir…***
***O güllü bağçandan bir az ətir saç,***
***Ruhumuz məst olsun, olsa da anlıq».***

Ustacın «Əliş və Anna» poemasının özü ayrıca bir tədqiqat əsəridir. Bu əsər haqqında geniş bir monoqrafiya yazmaq mümkündür. İnanıram ki, şairin bu əsəri ədəbiyyatşünasların, ədəbi tənqidlə məşğul olanların… diqqətindən yayınmayacaq, «Əliş və Anna» poemasını geniş təhlil edəcək, Zaur Ustacın şair böyüklüyünü, şair qələminin möhtəşəmliyini daha geniş şəkildə açıb göstərəcəklər…

Səmimi deyirəm. Zaur Ustac təkcə bu poeması ilə də həm ədəbiyyatın ədəbi dünyasına, həm də ədəbiyyat tarixinə düşəcək şairdir. Şairin bu əsərindən biz çox şey öyrənirik, çox mətləblərdən agah oluruq. Poemada vətənin-ananın müqəddəsliyini, ailəyə və dosta sədaqət, namus və ismətin toxunulmazlığını və s. bu kimi müqəddəs dəyərlərin öz əksini tapdığını görürük.

Əsərdə bəhs edilən subyekt Əlişdir. O, mənəvi-əxlaqi dəyərləri özündə əks etdirən bir insandır. Onun müsbət cəhətləri, kişilik xüsusiyyətləri, onun Sübhan kişinin halal ocağında dünyaya gəlməsi, böyüyüb memar olmaq istəyi, bu istəyinə çatması, böyük şöhrət qazanması, hətta memar şöhrətinin Moskva Knyazına qədər gedib çatması və s. poemada bədii boyalarla elə gözəl, elə inandırıcı təsvir edilib ki, heyrətlənməyə bilmirsən. Əlişin bədii obrazı - portreti o qədər canlı, səmimi şəkildə qələmə alınıb ki, Əliş də, onun ucaltdığı imarət də, Annanı sevməsi də…gözlərimiz önündən kino lenti kimi gəlib keçir.

Əlişin Knyaz tərəfindən öldürülməsi, Annanın dəlilik dərəcəsinə gəlib çatması gözlərimiz önündə canlanan «kinonun» ən ağrılı səhnələridir.

Knyaz Əlişin başını bədənindən ona görə ayırır ki:

***Şübhə toxumları düşdü qəlbinə,***
***Qorxdu tay tikilə onun «Kreml»inə.***
***Düşünüb, daşınıb verdi qərarı,***
***Dedi: «Sabah yola salın memarı».***
***Tapşırdı bir gözəl məclis qurulsun,***
***Sonunda memarın başı vurulsun.***

«Əliş və Anna» poeması tarixi hadisələr zəmnində qələmə alınıb desəm, yanılmaram. Çünki tarixdən yaxşı məlumdur ki, Kremlin tikilməsində türk memarları yaxından iştirak

ediblər.

Əliş də türkdür. Şamaxılıdır. Moskva Knyazı Şirvanşah Şeyx İbrahimin yanına elçi göndərib ondan icazə istəyir ki, daşdan imarət qurdurmaq üçün memar Əlişi Moskvaya göndərsin.

Deyərdim ki, «rusbaşların» Azərbaycana və Azərbaycan türklərinə xəyanəti, düşmənçiliyi məhz Əlişin Moskvada öldürülməsi günündən başlayır ki, bu da XVI-XVII əsrlərə təsadüf edir. Bəli beş yüz ilə yaxındır ki, rus knyazları, çarları, rus generalları, bolşevikləri, kommunistləri, katibləri, prezidentləri… həm millətimizə, həm də vətənimizə qənim kəsiliblər və bu gün də onların çirkin və düşmən siyasəti davam etdirilir.

«Əliş və Anna» poemasını oxuyan hər kəs həm də keçmişdən ibrət götürməli, heç kimi, heç nəyi və rusların başımıza gətirdikləri heç bir faciəni unutmamalıdır. Unutsaq, unudularıq. Unudulmamağımız, var olmağımız üçün Zaur Ustacın «Əliş və Anna» poemasından da «ustad dərsləri» öyrənmək mümkündür.

## DÖRDLÜKLƏR…

Zaur Ustacın zəngin və çoxcəhətli yaradıcılığında dördlüklər də diqqəti özünə cəlb edir. Bu dörlüklərdə müdrik bir insanın, Dədə Qorqud öyüdlü bir şairin öyüd və nəsihətləri, fikir və düşüncələri ürəklərə, könüllərə təsirsiz ötüb-keçmir.

Bir çox görkəmli şairlər kimi  Ustac yaradıcılığında da dördlüklər müstəsna yer tutur.

Aramsız poetik axtarışların, bədii təfəkkürün gəzişmələri nəticəsi olan dördlüklər Azərbaycan poeziyasında son illər özünün inkişaf mərhələsinə gəlib çatmış, bu janr şair Qqtay Rzanın poetik dünyasında özünü daha qabarıq şəkildə göstərmişdir.

Zaurun dördlüklərində orijinal bənzətmələr, poetik fikir, fəlsəfi düşüncə tərzi diqqəti daha çox çəkməkdədir.

Dördlüklər, demək olar ki, daha çox bayatı janrı üzərində qurulub və inkişaf etməkdədir.

Fikrimizin təsdiqi kimi bu misralara diqqət yetirək.

***Ölüm ən şirin nemət,***
***Ən sonuncu diləkdir,***
***Ölüm sonuncu fürsət,***
***Ümidsizə ümiddir…***

Ölüm haqqında bu cür düşünmək, ölümə məna vermək, ölümün ümidsizə ümid olduğunu şairin «Ölüm nədir?» sualının bir növ cavabdır. Bu misralarda kı fəlsəfi fikri, fəlsəfi düşüncəni anlamaq o qədər də çətin deyil.

Ölüm haqqında çox deyilib, çox yazılıb. Amma Ustacın ölüm fəlsəfəsi deyilənlərin hamısından fərqlidir. Şairin sevgi dördlükləri də özünəməxsusluğu ilə seçilir:

*Sən naxoşam deyəndə,*
*Naxoşlayır ürəyim.*
*Bədnəzərdən kənar dur,*
*Naxoşlama, ürəyim…*

Və yaxud bu misraları nəzərdən keçirək:

*Həsrətəm o gecəyə,*
*O günə, o gecəyə.*
*Əridirəm günləri,*
*Tez yetəm o gecəyə.*

Və yaxud:

*Qururam xəyalını,*
*Hər gecə, o gecənin.*
*İstərəm ətrin alım,*
*Bir dəfə o gecənin.*

Bu misralarda aşiqin vüsala qovuşmaq həsrəti, istəyi, eşq odundan alovlanan bir gəncin saf, təmiz arzuları ifadə olunub.

Zaurun gəraylı-dördlükləri öz orijinallığı, təravəti ilə seçilir:

*Öz əlimdə deyil ki,*
*Mən istəyim baxanda.*
*Gözüm məndən xəbərsiz,*
*Növbə tutar yolunda…*

Təsiredici, ovsunlayıcı misralardır. Aşiqin özündən xəbərsiz gözləri yarı görmək üçün yolda növbə tutub. Bu yoldan yar gəlib keçəcək və gözlər ona baxacaq… Gözlərin

növbə tutması olduqca poetik səslənir və Zaur Ustac istedadının özünəməxsusluğundan xəbər verir.

Onun bu dördlüyü də ruh oxşayandır. Sevdiyi gözəlin yamyaşıl gözlərinin dərinliyində dünyanın ürəyi döyünür, - deyən şairin yerində işlətdiyi təşbeh və poetik ifadə diqqəti xüsusilə özünə çəkir:

***Yamyaşıl gözlərin dərinliyində,***
***Dünyanın ürəyi döyünür bəlkə?***
***Yamyaşıl gözlərin dərindi inan,***
***Masmavi göylərin özündən bəlkə!***

Şair təkcə dördlük yaratmır, həm də anadilli poeziyamızın ən saf, ən duyğulu milli nümunələrini qələmə almış və onun dörd misralıq şeirləri müasirdir, təzədir, orijinaldır, düşündürücüdür…

***Çox istədim, yüklənməyim bu yüklə,***
***Bir anamdan, bir həyatdan keçmədim.***
***Bulaq üstə, xeyli susuz oturdum,***
***Yandı bağrım, o bulaqdan içmədim.***

Və yaxud:

***Doğrudur dünyamız dərin bir quyu,***
***Məkanı vahiddir, müxtəlif suyu.***
***Hərdən şirin olur, bəzən şor suyu,***
***Məgər, kankan özü bilmir səhvini?***

Zaur Ustac dördlükləri də sadə, səmimi şəkildə qələmə alır. Onun dilinin şirinliyinə, poetik fikrinin gözəlliyinə, üslub tərzinə, sözlərin zərgər dəqiqliyilə düzülməsinə heyran olmamaq mümkün deyil. Sözdən mum kimi istifadə

edərək, istədiyi formada qələmə alan şair düşündürücü dördlüklərilə də oxucu qəlbinə yol tapa bilir.

*İlahi naxışını salıb üzünə,*
*Aydan pay almısan, Gün tək ağ olsun!*
*Tanrı ərməğanı şərəfdi, şandı,*
*Qoy arxan, köməyin uca dağ olsun*

Ərz elədiyim kimi Zaurun poetik dili zəngindir, sadə və şirindir. Bu yerdə alman alimi Leybnisin bütün xalqlar üçün gərəkli olan bir fikrini xatırladım: «Mənə mükəmməl dil verin, sizə mükəmməl mədəniyyət verim». - Doğru deyimdir. Şair mükəmməl dilə malik olduğuna görə də mükəmməl şeirlərilə ədəbiyyatımıza ləyaqətlə, vicdanla xidmət edir.

Zaur Ustacın yaradıcılığı ilə tanış olduqca onun heyrət doğuran dilinin zəngin xalq dilindən yarandığını hiss elədim. Onu da hiss elədim ki, dilimizin daha da zənginləşməsində, saflaşmasında, saf, təmiz qalmasında onun da özünəməxsus xidmətləri az deyil. Bu isə mədəniyyətimizə, ədəbiyyatımıza, doğma türk dilimizə xidmətdir, özü də böyük xidmətdir.

Bəli, şair doğma ana dilini sevir və sevdiyinə görə də onu daha da zənginləşdirməyə çalışır. Şairin dördlüklərinə daxil olmasa da onun «Ana dilim» şeirini uca səslə oxumaq istəyirəm. İstəyirəm ki, Zaurun ana dilimizə sevgsini, məhəbbətini bir daha bəyan edim:

*Bu şipşirin Ana dilim,*
*Həm də qutlu sancağımdır.*
*Min illərdir Ana yurdun,*
*Sərhədini bəlirləyir.*
*Ta Şumerdən üzü bəri,*
*Dədəm Qorqud öyüd verib,*
*Şah İsmayıl fərman yazıb,*

*Qoç Koroğlu nərə çəkib…*
*Ulu Babəkin fəryadı,*
*Füzulinin ah-naləsi,*
*Nəsiminin şah nidası,*
*Bu dildədir!*
*Bu dil, Tomrisin dilidir;*
*Layla deyib,*
*Hökm verib…*
*Min illərdir Ata yurdun*
*Sərhədinin keşiyində*
*Əsgər kimi durub, bu dil!*
*Ana dilim həm əsgərdir,*
*Həm də sərhəd!*
*Toxunulmaz bir tabudur!*

Şairin gəraylı və qoşma dördlükləri də diqqətdən kənarda qalmır. Qoşma və gəraylı janrından da yeri gələndə məharətlə istifadə edən Zaur Ustacın gəraylı və qoşma dördlükləri daha mükəmməl, daha təsiredicidir.

Adətən gəraylılarda şən-şuxluq, sevinc və s. diqqəti cəlb edir. Zaurun dördlüklərində həsrət, kədər, sevgi, məhəbbət, vüsal, ayrılıq motivləri üstünlük təşkil edir:

***Atəşdən don geyib gecəm, gündüzüm,***
***Tanrım səbr versin, həsrətə dözüm.***
***De, səni incidib, hansısa sözüm?***
***Ya ki, bilmədiyim ixtilafmı var?***

Qoşma üslubunda qələmə alınmış bu dördlük şair sevgisini özündə əks etdirir. Bu dördlük də sözün əsl mənasında bənzərsizliyi, ecazkarlığı ilə seçilir. Bir neçə nümunə göstərək. Bu nümunələrin özündən də göründüyü kimi, hər dördlük fikir aydınlığı və axıcılığı ilə bir-birindən seçilir:

*Gecələr yeknəsək, gecələr adi,*
*Gəl, adi gecəmin Ali qonağı!*
*Bir yol, bu dünyadan qoparım səni,*
*Olaq bir gecənin adi qonağı!*

Şairin təmiz sevgisi, saf məhəbbəti, eşqə sədaqəti, yardan ayrı düşməsi, yar həsrəti və s. misralarda daha çox öz əksini tapır:

*Bu gecəm atəşdən don geyər yəqin,*
*Ruhumu eylədin inan didərgin.*
*Heç vaxt olmamışdım bu qədər qəmgin,*
*Gərək içindəkin deyərdin mənə?*

Və yaxud bu misralara diqqət yetirək:

*Doğrudan ağırdı, ayrılıq dərdi,*
*Çəkməyən nə bilir, nədir intizar.*
*Bu gün açılmayır könlüm nədəndi,*
*Gözümün önündə durub xəyallar…*

Şairin öyüd və nəsihətedici, düşündürücü fikirləri özündə ehtiva edən dördlükləri də çoxdur. Bu kimi dördlüklərdə ata nəsihəti, baba öyüdü, ağsaqqal məsləhəti üstünlük təşkil edir.

İki nümunə verməklə fikrimizi təsdiqləyək:

*…Enib asimandan, yerdə qərar tut,*
*Şirin xülyaları bir yolluq unut.*
*«Həsədi, «həvəsi» qəlbində ərit,*
*Həvəsə aldanıb uduzacaqsan!*

Və yaxud:

*Aşiq ol hüsnünə tək Yaradanın,*
*Özgəsinə meyl bil ki, əbəsdir.*
*Diz çök qarşısında, mərhəmət dilə,*
*Məhəbbətsiz həyat bil ki, həbsdir…*

Şairin dördlükləri arasında «üzü dönmüş yardan» şikayət, ağrı və acılar da var. Və bu ağrılar təkcə şair ürəyinin ağrısı deyil, xalqın ağrısıdır. Bu da səbəbsiz deyil. Axı şair xalqın, millətin ürəyinin ağrısını ifadə edən söz adamıdır.

Zaur Ustacın dördlükləri ancaq 8,11 hecadan ibarət deyil. Onun dördlükləri arasında 14, 16 hecadan ibarət olanları da var ki, bu da şairin öz istedadından məharətlə istifadə etməsinin nəticəsidir:

*Günəşin al şəfəqi nur çiləsin gününə,*
*Od, istilik, hərarət  bəxş eləsin ömrünə.*
*Əlvida de, buz kimi, tük tərpədən dününə,*
*Aynadan bax, günün özü sənə «gün aydın» deyir!*

Və yaxud şairin bir dördlüyündən iki misranı nəzərdən keçirək:

*Yad adamın qucağında partlayan bu körpəni,*
*Söylə, haçan alacaqsan, həsrətin ağuşundan?*

Bu yerdə onu da deməyi vacib bilirəm ki, aşıq ədəbiyyatında müxəmməs də 16 hecadan ibarət olur. Hər misrası 16 hecadan ibarət olan müxəmməs klassik janrın ən mükəmməl nümunələrindən biri sayılır. Onu da qeyd eləyək ki, aşıqlar müxəmməsləri iki yerə bölüb oxuyurlar ki, bu da saz havasının metodik axarı ilə bağlıdır.

Zaur Ustacın da dördlükləri, eləcə də hər misrası 14, 16 hecadan ibarət olan dördlükləri saz havaları ilə uyğunluq

təşkil edir. Onun təkcə dördlüklərində deyil, digər şeirlərində də saz havasını duymaq mümkündür ki, bu da onun milli kökə bağlılığından, damarlarında saf, təmiz türk qanı axtığından xəbər verir.

Ustacın gəraylıya çevrilən dördlükləri çox deyil, azdır, amma gözəldir, mənalıdır, oxunaqlıdır. Şairin dördlüklərindən söz açmaqla bir daha demək istəyirəm ki, Zaur Ustacın poetik dünyası zəngindir, çoxcəhətlidir. Onun zəngin və heyrətamiz yaradıcılığında sərbəst şeirin, qoşma və gəraylının, sonet və bayatıların, poemaların, uşaq şeirlərinin…gözəl nümunələri vardır.

Şairin yaradıcılığı rəngarəng olduğu kimi, dördlükləri də rəngarəngdir. Bu rəngarənglik aləmində oxucu özünü rahat və xoşbəxt hiss eləyir, ürəyinin sevgi ilə döyündüyünü, Vətən eşqilə çırpındığını hiss eləyir. Hiss eləyir ki, şairin ən saf, ən təmiz, ən müqəddəs hissləri onun poetik dünyasındadır. Bu saf və təmiz dünyada rahatlıqla nəfəs alır, bütün qayğı və problemlərini unudur, yaşamağa, duymağa can atır. Bax, budur əsl poeziyanın gücü! Bax, budur Zaur Ustac qələminin qüdrəti, möhtəşəmliyi!

Göründüyü kimi, Zaur Ustacın dördlükləri Azərbaycan şeirinə al-əlvanlıq gətirən, poeziya aləmini daha da zənginləşdirən, yaddaşlara hopub yaşayan, oxucunu milli kökə daha da bağlayan, ürəkdə milli təəssübkeşlik oyadan bir janrdır. Bu janrdan məharətlə istifadə edən şairin yaradıcılığında yer alan dördlüklək bu gün sevilə-sevilə oxunduğu kimi, əlli ildən, yüz ildən sonra da sevilə-sevilə oxunacaqdır. Çünki Zaurun şeirləri ölməzdir, həmişə təzədir, təravətlidir. Tanrı ölümsüz olduğu kimi, mayasında ilahi eşq olan poeziya da əbədir.

## HƏR UŞAQ BİR DÜNYADI

Azərbaycan ədəbiyyatında uşaq poeziyasının özünəməxsus əhəmiyyətli yeri böyükdür. Elə bir şair tapılmaz ki, uşaqlar üçün heç olmasa bir və ya bir neçə şeir yazmamış olsun. Klassik şairlərimizdən Qasım bəy Zakirdən, Seyid Əzim Şirvanidən, Mirzə Ələkbər Sabirdən, Abbas Səhətdən… üzü bəri bu günə kimi şair olan hər kəs uşaqlar üçün şeir yazıblar və yazmaqda davam edirlər.

Uşaq poeziyasının inkişafı üçün Zaur Ustacın da şeirləri müstəsna əhəmiyyət kəsb edir. Onun zəngin yaradıcılığında uşaq şeirləri öz məzmun və formasına görə xüsusilə diqqətdən yayınmır. Uşaq ədəbiyyatı məktəbinin inkişafında Zaur Ustacın da xidmətləri nəzərə alınmalıdır. Təəssüf hissilə qeyd etmək istəyirəm ki, onun bu sahədəki fəaliyyətindən indiyə kimi söz açılmamış, bir kəlmə belə söz deyilməmişdir. Düzdür, ədəbi tənqidçilər, tanınmış yazarlar, ədəbiyyatşünaslar şairin poetik dünyasından, zəngin və çoxcəhətli yaradıcılığından az da olsa söhbət açmış, onun bir çox şeirlərini təhlil etməyə çalışmış, istəklərinə qismən də olsa müvəffəq ola bilmişlər.

Zaurun uşaq şeirləri olduqca maraqlı və oxunaqlı olması ilə diqqəti özünə cəlb edir. Bu şeirlər sadədir, rəvandır, axıcıdır, tez yaddaqalandır, uşaqların kəskin marağına səbəb olmaqla yanaşı, böyüklərin də könlünü oxşayan şeirlərdir.

Zaur Ustac uşaq şairi deyil, əvvəldə də qeyd elədiyim kimi daha çox məhəbbət şairidir. Məhəbbət şairi olduğuna gbrə də uşaqlar üçün də ata məhəbbətilə, ata sevgisilə şeirlər yazır və bu şeirlərin hər biri uşaq ədəbiyyatına xidmət edir, uşaq ədəbiyyatı xəzinəsini zənginləşdirir.

*Bu evdir, üstdə damı,*
*Bunu bilməli hamı.*
*Qapısı, pəncərəsi,*
*Bir də olur eyvanı.*

**«Ev»**

Unudulmaz şairimiz, yaradıcılığında uşaq poeziyasına yer ayıran, bu poeziyanın inkişafında xüsusi xidmətləri olan xalq şairi Səməd Vurğun yazırdı: «Uşaq insandır! Onun sadə görünən oynaq, daima xoşbəxt və azad təbiətində böyük insanların bütün xassələri mövcuddur: düşünmək, duymaq, sevinmək, küsüb-incimək, ağlamaq, gülmək, qəzəblənmək, xatırlamaq, xəyala dalmaq, ümid və arzulara bağlanmaq, yaxşılıq, hörmət - bütün insani xassələr uşaq aləmində mövcuddur».

Doğmalarına, balalarına…şeirlər yazan Zaur Ustac sevimli şairimiz Səməd Vurğunun söz açdığı məsələləri uşaqlarda müşahidə edərək, uşaq dünyasını dərindən duyaraq… ürəklərdə iz salan şeirlərilə uşaqların da sevimli şairinə çevrilmişdir. Bu şeirlərin hər biri ədəbiyyat nümunələridir.

Gəlin bu şeirə diqqət yetirək:

*Babası dərdi çiçək,*
*İpəyə hördü çələng.*
*Dedi: «Ayım, Günəşim,*
*Mənim zərim, qumaşım».*

*Çələngi sarı çiçək,*
*Köynəyi sarı ipək.*
*Dedi: «Göyə çıxacam,*
*Günəş özüm olacam».*

**«Günəş ipək»**

Məlumdur ki, uşaqlar üçün yazmaq böyüklər üçün yazmaqdan çətindir, çox çətindir. Uşaqlar üçün şeir yazmaq üçün gərək dönüb «uşaq» olasan, hər bir uşağın dünyasına səyahət eləyəsən, uşağın marağı, düşüncəsi, istəyi və arzusu ilə yaxından tanış ola biləsən. Çünki uşaq şeiri yazmaq üçün şairin istedadı, bacarığı, təfəkkürü o qədər önəm kəsb etmir. Ərz elədiyim kimi gərək uşaq aləmini dərindən biləsən, uşağın könül dünyasını, ürəyinin hansı hisslərlə döyündüyünü hiss eləyəsən. Eyni zamanda, hər uşağın yaş səviyyəsinə uyğun şeir yazmağı bacarasan. Bacarmasan, istəyinə nail ola bilməzsən, yazdığın şeir də söz yığını olar ki, bu da uşaq qəlbinə təsir eləməz. Qəlbə, ürəyə təsir eləməyən şeir də şeir deyil.

Ustacın uşaq şeirləri təsirlidir, inandırıcıdır, ən başlıcası isə sadə və səmimidir. Bu şeirlərdə hecaların sayı azdır, oynaq qafiyəlidir, dili dolaşdırmır, beyni zorən yükləmir, tez yaddaqalandır. Ən başlıcası isə şairin şeirlərində dil aydındır, fikir yığcamdır.

Şairin uşaqlar üçün yazdığı şeirlərin əksəriyyəti miniatür biçimlidir, yəni kiçik həcmlidir. Bu məziyyət mətləbi uzatmadan çatdırmağa hesablanıb. Onu da demək yerinə düşərdi ki, Zaur Ustacın uşaq şeirlərində söz, habelə ahəng musiqi kimi məsələlərlə də bağlıdır. Şeirin musiqililiyinin uşaq şeirlərində daha əhəmiyyətli olmasını nəzərdən qaçırmamalıyıq. Onu da ərz edim ki, şeirdə sözlərin səs tərkibi məsələsi də mühüm yerlərdən birini tutur. Ona görə də belə şeirlər axıcı olur, uşaqların ürəyinə daha tez yol tapa bilir.

*Bu da bizim küçəmiz.*
*Görəsən işıqforu,*
*Tanıyırıq neçəmiz?*

**«Küçədə»**

Və yaxud:

*Televizor, planşet,*
*Biz ən yaxın dostlarıq.*
*Hərdən notbuk, telefon,*
*Birlikdə oynayırıq.*

*Televizor maraqlı,*
*Söhbətlər edir bizə.*
*Digər üçü birlikdə,*
*Çox şey öyrədir bizə.*

**«Dostlarım»**

Şübhə yoxdur ki, uşaq bu şeiri oxuyanda, yaxud da şeiri ona oxuyanda istər-istəməz düşünəcək və öz uşaq düşüncəsində yazılan bu şeirin poetik mənzərəsini gözləri önündə canlandıracaq ki, bu da onun yaddaşının möhkəmlənməsinə, dünyagörüşünün artmasına, dünya ilə tanış olmasına gətirib çıxaracaq.

Zaur Ustacın hər bir uşaq şeiri demək olar ki, maraq doğurur. Onun yazdığı uşaq şeirlərinin heç birinin üstündən sükutla keçmək olmur. Fikrimizin təsdiqi kimi bu şeirə nəzər salaq:

*Paltaryuyan, qabyuyan,*
*Anamın dostlarıdır.*
*Qaz sobası, soyducu*
*Hər vaxt iş başındadır.*

*Ətçəkən, şirəçəkən,*
*Ütüsü, tozsoranı.*
*Daim kömək edirlər,*
*Tək qoymurlar anamı.*

**«Anamın dostları»**

Şairin kiçik yaşlı uşaqlar üçün yazdığı bu şeir də maraq doğurur:

*Bax bu bina məktəbdir,*
*Burdan keçirəm hər gün.*
*Yeyirəm tez böyüyəm,*
*Məktəbli olam bir gün.*

**«Məktəb»**

Şair həm övladları balaca olanda, həm də digər uşaqlar üzərində müşahidə apararaq gözəl şeirlər yazmış və bu gün də yazmaqda davam edir:

Zaur Ustacın azyaşlı uşaqlar üçün yazdığı «İkinci evim» şeiri də, əşyalardan söhbət açılan «Əşyalar» şeiri də ən yaxşı uşaq şeirlərindən biri sayılmaqla yanaşı, həm də böyüklər üçün də xoş təssürat bağışlayır. Onun uşaq şeirləri sanki nəğmədir, oxumaq istədiyin mahnıdır, necə deyərlər, şərqidir.

Uşaqların söz ehtiyatının zənginləşməsində Zaurun uşaq şeirlərinin də müstəsna əhəmiyyətini qeyd etməklə yanılmadığımı düşünürəm. Onun uşaq şeirləri düşündürücüdür, mənalıdır, dili sadədir, şirindir, qafiyələr oynaqlıdır. Və bu şeirlər digər şairlərin yazdığı uşaq şeirlərindən seçilir ki, bu da Zaurun qələminin möhtəşəmliyindən xəbər verir.

Şairin «Mən Babəkəm» şeirinə diqqət yetirək. Şeirin gözəlliyi, cazibədarlığı, qafiyələrin oynaqlığı ürəyə xoş təsir bağışlayır, həm də kiçik yaşlı uşaqlara Babək haqqında, Bəzz qalası haqqında ilk məlumat verməklə, şərəfli keçmişimizi xatırladır:

*Babəkdir mənim adım,*
*Sırğa et qulağında.*
*Bir ömür xərcləmişəm,*
*Hürriyyət sorağında.*

***Bu yurd sənə əmanət,***
***Bəzz yanan ocağımdır.***
***Mayası qan lalələr,***
***İstiqlal sancağımdır.***

Zaur Ustac bir çox uşaq şeirlərində real və canlı təbiət lövhələri də yaradır. O, sanki bir rəssamdır, həm uşaqların daxili aləmini, həm xarici görünüşünü, həm də xarakterini… sözlə yox, fırça ilə çəkib bizə göstərir. O, həm də elə lövhələr yaradır ki, bu poetik lövhələr nəinki körpə balaları, uşaqları, eləcə də böyükləri heyrətləndirə bilir:

Məsələn, «Oktyabr» şeirinə diqqət yetirək:

***Oktyabr gələndə,***
***Gəlir payız havası.***
***Qozu, narı, alması,***
***Boldu sarı heyvası.***

Şair ilin ayları ilə bağlı fikir və düşüncələrini ifadə etmiş, hər bir ay haqqında uşaqlarda böyük təsəvvür yarada bilmişdir:

***Noyabr, soyuq hava,***
***Tez-tez yağır yağışlar.***
***Həyətlərdə, bağlarda,***
***Civildəşir ac quşlar.***

Və yaxud bu misralara diqqət yetirək:

***Dekabr gələr-gəlməz,***
***Əsir soyuq küləyi.***
***Hərdən Şaxta Babanın,***
***Qar ələyir ələyi.***

Şairin elə uşaq şeirləri də var ki, kiçik həcmli süjet üzərində qurulub. Süjetdə aydınlıq, təsvirlərin heyranediciliyi oxucuda məmnunluq yaradır.

Şairin Tunçay, Ülkər, Hümmət, Nağı və başqaları üçün yazdığı şeirləri şirin arzularla, yaşıl ümidlərlə doludur. İnsanı yaşadan da, həyata bağlayan da arzudur, ümiddir. Uşaqların arzusu isə daha maraqlıdır, daha ümidvericidir. Arzu ilə ümid vəhdət təşkil edir. Arzu olmasa ümid, ümid olmasa arzu da olmaz. Uşaq da, böyük də arzusunun yerinə yetəcəyinə ümid edir və bu ümidlə də yaşayır.

Şair oğlan və qız adlarına çoxlu sayda şeirlər həsr etmiş və bu şeirlər maraqla qarşılanmışdır.

Məsələn, «Zahir»in dililə yazılmış bu şeir də maraqla oxunur:

***Zahir düzəltdi,***
***Balaca gəmi.***
***Dedi: - Bu gəmi,***
***Mən də gəmiçi.***

Və yaxud «Jalə» şeirini oxuyaq:

***Jalə aldı jurnalı,***
***Baba, ver baxacağam.***
***Böyüyəndə istəsəm,***
***Jurnalist olacağam.***

Şairin uğurlu uşaq şeirləri çoxdur. Bu şeirlər məni xəyalən ötən illərə çəkib apardı. Bir Allah bilir ki, nələri düşündüm, gözlərim önündən nələr gəlib keçdi. Bu şeirlər mürgülü xatirələri silkələyib oyatdı. Bax, budur şeirin təsir gücü, bax, budur şeirin sehri, cazibədarlığı…

Ustacın şeirləri uşaqlara vətəni sevmək hissi aşılayır, eyni zamanda təbiətlə tanış olmaq imkanı yaradır, onlara meyvələr, çiçəklər, eləcə də ilin fəsilləri və ayları haqqında bilgi verir ki, bu da olduqca təqdirəlayiqdir.

Bu şeirə diqqət yetirək:

***Yazda açır çiçəklər,***
***Nəğmə oxuyur quşlar.***
***İki adı var onun,***
***Həm də deyirik bahar.***

**«Yaz»**

***Martda sevinir hamı,***
***Açır Bənövşə, Nərgiz.***
***Səməniylə, Kosayla,***
***Tonqalla gəlir Novruz.***

**«Mart»**

Ayların, fəsillərin obrazını ustalıqla yaradan Zaur Ustacın ilin fəsillərini canlandıran təbiət obrazları - qar, yağış, çiçək, yarpaq…həm peyzaj kimi, həm də mənəvi-estetik ideya ilə əlaqədar olaraq işlənmişdir ki, bu da balaca uşaqların təbiətin gözəlliyi barədə zəngin estetik informasiya almasına gətirib çıxarır.

İlin fəsilləriə aid şeirlərdə yaz, yay, payız, qışın gəlişi və təsviri bədii boyalarla əks olunur.

Məsələn, «Yay» şeirinə diqqət yetirək. «Yay» fəslində balaca uşaqların daha çox nə işlə məşğul olduqlarını özünəməxsus şəkildə təsvir edən şair yazır:

*Yayda dərslər qurtarır,*
*Bağa yollanırıq biz.*
*Kölgədə dincəlirik,*
*Çoxlu oynayırıq biz.*

Və yaxud «Payız» fəslini nəzərdən keçirək:

*Yay başa çatan kimi,*
*Sarı don geyir bağlar.*
*Payızı görən kimi*
*Ağ papaq qoyur dağlar.*

*Əsir küləklər,*
*Payız olanda.*
*Yağır yağışlar,*
*Payız olanda.*

*Payızın gəlişilə,*
*Hər yan tamam dəyişir.*
*Çılpaq qalır ağaclar,*
*Meyvələri yetişir.*

Bu şeirdə payızın obrazı ustalıqla qələmə alınıb. Şairin qələmində payız fəsli kifayət qədər təsirli və müasir səslənməklə yanaşı, həm də balaca oxuculara payız haqqında bilgi verir.

Yaxud «Qış» şeirinə nəzər salaq:

*Biz sevirik qarlı qışı,*
*Sevinirik qar yağanda.*
*Qorxutmur qarı, yağışı,*
*Oynayırıq qar yağanda.*

*Qarlı qış gəlib qonaq,*
*Çox sevinir uşaqlar.*
*Qartopu oynayırlar,*
*Sürüşürlər qoçaqlar.*

Azərbaycan uşaq şeirində qış mövzusunda şeirlərə daha çox təsadüf edilir. Qışın gəlişi, havaların soyuması, qar yağması, şaxta və s. obrazlar diqqəti cəlb edir.

Qış fəsli Zaur Ustacın poeziyasında da xüsusi tərənnüm olunur, uşaqların da, böyüklərin də ruhunu oxşayır.

Böyük rus tənqidçisi V. Belinski yazır: «Uşaqlar üçün təbiətdən yazan müəllif gərək təbiəti və psixologiyanı yaxşı bilsin. Öz fikrini quru dillə yox, maraqlı nağılla, lövhələr, şəkillər, hərəkətlərlə, hiss və həyəcanla çatdırsın. Onda uşaqlar vətəni, təbiəti yaxşı duyar, onun gözəlliklərindən estetik zövq ala bilərlər. Xüsusilə kiçik yaşlı uşaqlarda bədii-estetik zövqün formalaşmasında sirli, füsunkar mənzərələr və hadisələrlə zəngin olan təbiət böyük təsir gücünə malikdir. Ona görə də uşaqlar üçün yazanda təbiəti canlandırmaq, dilsiz bir daşı, çölün otunu, şırıldayan çayı, sakit-sakit əsən küləyi, çiçəkdən-çiçəyə qonan kəpənəyi dilə gətirmək lazımdır»

Təbiəti uşaqlara sevdirən, çiçəkdən-çiçəyə qonan kəpənəyi dilə gətirən Zaur Ustac balaların ruhunu oxşayan şeirlərilə həm də onlara elmi-təbiətşünaslıq məlumat verir. Bir şair kimi, ata kimi kiçik yaşlı uşaqlarla təbiətin dilində, eləcə də ayların, fəsillərin, hərflərin… «dilində» danışır və buna ustalıqla nail ola bilir.

Bəli, təbiət poeziyası Zaur Ustacın diqqətini cəlb edən mövzulardan biridir. Uşaq düşüncəsinin çox həssas sahələrindən biri olan - təbiətlə əlaqədar düşüncələr, təbiət

təsvirləri, fəsillərin mənzərələri və s. onun yaradıcılığında diqqətdən yayınmayan cəhətlərdir.

Zaur Ustac Azərbaycanın bir çox tarixi şəxsiyyətləri haqqında da uşaqlara onların qavrayacağı tərzdə məlumat veirir ki, bu da olduqca mühüm əhəmiyyət kəsb edir.

*Mən Məhəmməd Əminəm,*
*Azərbaycan gur səsim.*
*O durduqca mən sağam,*
*Azərbaycan nəfəsim.*

*Enməz dedim, enmədi,*
*Həp ucaldı bayrağım.*
*Yurddaşın sinəsində,*
*Dalğalanır sancağım.*

**«Məmməd Əmin Rəsulzadə»**

Və yaxud «Nadir şah» şeirindən bu misraları oxuyaq. Şeir Azərbaycanın görkəmli sərkərdəsi Nadir şahın dilindən yazılıb:

*Bu gün Vətən dediyin,*
*Vətəndən qalan parça.*
*Mənim tutduğum yurdu,*
*Etdilər param-parça.*

Şeirdə ikiyə bölünmüş vətəndən, eləcə də Azərbaycandan qoparılıb ermənilərə, gürcülərə, farslara, ruslara… verilmiş yurd yerlərimizdən söhbət gedir. Və uşaq istər-istəməz düşünür ki, doğma yurd yerlərimiz niyə bölünüb, niyə param-parça olub. Və sözsüz ki, bu suala cavab almaq üçün ata-anasına, özündən böyük bacı-qardaşına, məktəbdə müəllimə müraciət etməli olacaqdır.

Və yaxud «Azərbaycan» şeirindən bu misralara diqqət yetirək:

*…Nazlı Araz kəmərimdir,*
*Xudafərin onun qaşı.*
*Birləşdirir ayrı düşmüş,*
*Dost-tanış, bacı-qardaşı!*

Şairin uşaq şeirləri arasında «Əlifbam» bölməsi xüsusilə maraq doğurur, diqqəti çəkir. «Əlifbam» bölməsində yer alan şeirlər olduqca qiymətlidir, dəyərlidir, nümunəvidir.

Əlifba sırası ilə hər hərfə bir və ya iki bənd şeir həsr edən şair hər bir hərfi əldə bayraq edərək uşaqlara ana sevgisi, Vətən məhəbbəti, təbiət sevgisi, vətənpərvərlik duyğusu və s. aşılayır. Hər bir bənd olduqca sadə və oxunaqlıdır, tez yaddaqalandır. Uşaqların geniş bilgi əldə etmələri üçün «Əlifbam» bölməsində yer alan şeirlər Zaur Ustac yaradıcılığının ən uğurlu nümunələri sayıla bilər.

Gəlin hərflərlə başlayan bir neçə şeirə nəzər salaq və bir daha şair qələminin qürətinə heyranlığımızı bildirək:

«A»

*A ilə Ana deyə,*
*Aləmə səs salırıq.*
*Azərbaycan sözünə*
*A ilə başlayırıq.*

Yaxud «C» ilə başlayan şeiri oxuyaq:

*Sancağımı bəzəyən,*
*Hilala bənzəyirsən.*
*«Azərbaycan» sözünü*
*Can ilə bəzəyirsən.*

Ərz elədiyim kimi uşaqların vətənpərvərlik ruhunda böyüməsində, tərbiyə almasında, geniş bilgi əldə etməsində… bu şeirlərin böyük əhəmiyyəti vardır:

Uşaqların  anlayacağı, dərk edəcəyi sadə dildə yazılmış bu şeirlər Zaur Ustac yaradıcılığında deyərdim ki, qırmızı xətlə gəlib keçir.

Uşaqlar üçün yüzlərlə, minlərlə şeir yazılıb. Bu şeirlərdən heç biri şairin «Əlifbam» bölməsində yer aldığı şeirlərlə müqayisə oluna bilməz. «Əlifbam» Zaurun uşaq ədəbiyyatına gətirdiyi yenilikdir, bu sahədə atılmış ilk və uğurlu «addımdır».

«Əlifbam» bölməsində yer alan bu şeiri Zaur Ustacdan savayı kim yaza bilər?

***Sən ey dağlar, qoca dağlar,***
***Əzəmətli uca dağlar.***
***Əzəmətli Kəpəz dağı,***
***Kəpəz dağın xoş yaylağı.***

**«K»**

Şairin uşaq şeirləri həm də etnoqrafiya, folklor və Azərbaycan tarixi baxımından, şərəfli keçmişimizdən, qəhrəman oğullardan, təbiətdən, vətəndən…geniş və dəyərli bilgilər verir, dilimizin daha da zənginləşməsinə xidmət edir. Düşünürəm ki, şairin uşaq şeirləri məktəb yaşına çatmamış, eləcə də ibtidai sinif şagirdləri üçün çox önəmlidir, axıcı və valehedici olduğuna görə də dərsliklərdə yer almaq gücünə malikdir.

Zaur Ustacın 1-dən 10-a qədər olan rəqəmlərlə bağlı yazdığı şeirləri də maraq doğurur. Bu şeirlər də şairin yaradıcılığında mühüm əhəmiyyət kəsb edir və onun uşaq dünyasını yaxşı bildiyinə bir daha bələdçilik edir:

*Hansı qoçaq tez deyər,*
*Söyləyin ay uşaqlar!*
*Xor-xor yatan pişiyin,*
*Neçə xumar gözü var?*

**«2»**

Və yaxud:

*...Ağıllısız bilirəm,*
*Deyin görüm qoçaqlar.*
*«Azərbaycan sözündə»,*
*Cəmi neçə hərf var?*

Şairin uşaq şeirləri kiçik yaşlı balaların vətənpərvərlik tərbiyəsi almaq baxımından da diqqətçəkəndir.

«Qarabağ Azərbaycandır», «Tomiris ana» «Şah İsmayıl Xətai» və başqa şeirləri də dediklərimizin bir daha təsdiqidir:

*Düşüb dilə bir ifadə,*
*Bu iki söz, həyəcandır!*
*İndi dünya yaxşı bilir:*
*Qarabağ Azərbaycandır!*

Uşaqların etik və estetik tərbiyəsinin düzgün istiqamətləndirilməsi baxımından da Zaurun şeirləri təqdirəlayiqdir. Onun uşaq şeirlərində vətənpərvərlik, humanizm, dostluq, qardaşlıq, xeyirxahlıq, qayğıkeşlik, düzlük, saflıq və s. kimi insani keyfiyyətlər özünü qabarıq şəkildə büruzə verir ki, bu da şairin vətənə, millətə, eləcə də körpə balalarımıza xidmətinin bariz nümunəsidir.

## 50 SUAL, 50 CAVAB

Zaur Ustac şəxsiyyətinə, peşəkarlıq səviyyəsinə hörmət bəslədiyim, həmişə imzasını axtardığım, şeirlərini sevə-sevə oxuduğum şairlərdən biridir.

O, xalqımızın, Azərbaycanımızın əsl ziyalı oğludur, nə yazırsa vətəndaşlıq mövqeyindən yazır, xalqın ürəyindən keçənləri, xalqın könül dünyasını qələmə alır. Onun vətənpərvərliyi, milli ləyaqəti, vətənə, yurd yerinə, Turan dünyasına dərin tellərlə bağlılığı hamı kimi, məni də sevindirən amillərdən biridir, bəlkə də birincisidir.

Onu həmişə sözübütöv, həssas və təvazökar bir insan kimi, xalqın ağrı-acılarını ürəyində gəzdirən bir ziyalı kimi tanımışam və indi o işıqlı Adamın 50 yaşı tamam olub. Beşinci onilliyin dizlərini qatlayan şair bu yaşa alnıaçıq və başucalığı ilə gəlib çatıb. Qarşıda isə onu daha böyük uğurlar, yeni zirvələr gözləyir.

İnanıram ki, o, yüz yaşında da Ağdamın Yusifcanlı kəndindən Bakıya gətirdiyi bulaq saflığını, dağ əzəmətini, dağ vüqarını, ürək təmizliyini, sadəliyini, təbəssümünü… qoruyub saxlayacaq, yenə də işıqlı ürəyini yanar bir şam kimi yazı masasının üstündən asaraq ruha sığal çəkən, könül ovsunlayan şeirlərilə oxucuları sevindirəcəkdir.

Hələlik isə yaş 50-di. Şairin 50 yaşı münasibətilə bu monoqrafiyanı qələmə aldım və ürəyimdə baş qaldıran suallarla Zaur Ustacı söhbətə çəkməli oldum. O işıqlı Adama - işıq Adama 50 sual verib 50 cavab aldım.

**- Xoş gördük, Zaur müəllim! 50 yaşınızda özünüzü necə hiss eləyirsiniz, sağlamlıq durumunuz necədir?**

- Özümü çiçəkdən-çiçəyə qonan arı kimi hiss edirəm və hər çiçəkdən bir şirə çəkib gənclik həvəsilə yazıb-yaradıram. Canımda olan çalışmaq, yazmaq həvəsi azalmır, əksinə, çoxalmaq üzrə inkişaf edir.

50 yaş ömrümün günortasından 20 il keçən bir vaxtdır, deməli, ömrüm otuz ildən sonra qüruba yaxınlaşacaq. Bax onda özümü necə hiss etdiyimi deyə bilərəm (gülür).

Hələ ki, qələm əlimdədir. Nə qədər ki, qələm əlimdədir, kefim də yaxşı olacaq, sağlamlıq durumum da… Bu səbəbdən də deyirəm ki, şükürlər olsun Allaha, yaxşıyam və özümü də bığ yeri təzəcə tərləmiş cavan bir oğlan kimi hiss edirəm.

Məni gümrah saxlayan sözdü. Söz elə həzz mənbəyidir ki, insana hər şeyi, hətta fiziki iztirabı və yaşa dolduğunu belə unutdurmaq gücünə malikdir. Bu mənada bir də baxıb gördüm ki, 50 yaşın nəfəsi üz-gözümü mehləyir. Və o dəqiqə də anladım ki, məni cavan saxlayan sözdür, bir də ki, ürəyimdə bitib-tükənməyən sevgi duyğularıdır…

**- Uşaqlıq illəri üçün darıxırsınızmı?**

- Xeyr, darıxmıram. Əksinə, qocalığı özləmişəm desəm, daha doğru olar. Lap uşalıqdan həmişə özümü sakit bir guşədə yazıb-yaradan, kitab oxuyan, bağçasında çiçəklərinə qulluq edən bir qoca kimi təsəvvür etmişəm. Allah hamımıza belə sakit və firavan, gözəl bir sonluq nəsib etsin, İnşaallah!

**- İlk müəlliminiz, ilk partiya yoldaşınız yaddaşınızda necə qalıb? Onları necə xatırlayırsınız?**

Məncə bu cavaba kitabla başlamaq lazımdır. İlk gördüyüm, bu an da gözümün önündə olan kitab tünd göyüzlü «Mikrobiologiya» kitabıdır. Anam tibb təhsilli

olduğu üçün bu kitab evimizdə var idi. Yəqin ki, digər kitablara nisbətən onu lazımsız bildiyi üçün lap körpə olanda bu kitabı oynamaq üçün bizə verərdi ( və ya biz ağlayıb məhz həmin kitabı alar, əvvəlində və arxasında olan boş-ağ yerlərə öz kitabımızı «yazardıq»). İlk müəllimim doğmaca əmim olub. Mənə hərfləri və «Əlifba»nı oxumağı Yamən əmim 4-5 yaşlarımda öyrədib. «Dana» hərifləyib, «buzov» dediyim indi də yadımdadır. Məktəbə - hazırlıq sinfinə tam hazır getmişdim. İlk dəfə məni Fatimə müəllimin hazırlıq sinfinə apardılar. Ancaq elə həmin gün Ağca müəllimin birinci sinfinə keçirtdilər və onun masasının qarşısında (düz əlinin altında) birinci partada Aytəkin adlı bir qızın yanında oturtdular. Beləliklə, ibtidai sinif müəllimim Ağca müəllim, ilk parta yoldaşım isə Aytəkin adlı bir qız olub.

**- Hansı fənlərə daha çox meyl göstərirdiniz?**

- «İbtidai Hərbi hazırlıq», hətta «Traktor» (bizə əlavə olaraq «üzümçü-mexanizator» ixtisası verildiyinə görə belə bir fənn də tədris olunurdu) da daxil olmaqla bütün fənləri eyni dərəcədə oxuyurdum. Bu günə qədər, ancaq xeyrini görmüşəm. Bir əlavə etmək istəyirəm: fənn olimpiadaları olanda bir fənn seçməyə məcbur oldum. Digər müəllimlər «elə bilirdim ki, mənim fənnimdən gedəcəksən» - deyə məndən inciyirdilər.

**- Orta məktəb illərində ən çox yadınızda qalan, ən çox xatırladığınız hansılardır?**

- Sonuncu sinifdə idik. Artıq Qala (Şuşa) demək olar ki, mühasirədə olan vaxtları idi. İkinci dərsə yeni girmişdik. (O vaxt vaqonlarda dərs keçirdik). Bizim vaqon məktəbin lap

kənarında futbol meydançasına yaxın idi. Qəfil lap alçaqdan vertalyot səsi gəldi. Birinci bizim sinif çıxdı, sonra bütün məktəb meydançaya axışdı. Bu vaxta qədər vertalyot yerə enmişdi. Ancaq pəpləri hələ fırlanırdı. Yerdəkilər həyəcan, vertalyotdakılar isə qorxu içində bir-birilərinə baxa-baxa qalmışdı. Handan-hana pilot yan şüşədən başını çıxardaraq qışqırmağa başladı: «Bizik, özümüzünkülərdi…». Sonra düşdülər; bir pilot, bir də qucağında körpə olan bir qadın idi. Məlum oldu ki, Şuşadan çöpçüyə uşaq gətiriblər. (Kəndimizdə - Yusifcanlıda- bir neçə məşhur çöpçı var idi). Belə bir maraqlı əhvalat olub.

**- Necə oldu ki, şeirə gəldiniz?**

- Şeirlərimin ilk dinləyiciləri (oxucuları) sinif yoldaşlarım və ilk sevdiyim qız olub.

**- Yaşadığınız ömrün hansı ilinə təzədən qayıtmaq istərdiniz?**

- Heç birinə. Ancaq irəli - müdrikliyə doğru - irəli (həmişə təkrarlara mənasız vaxt itgisi kimi baxmışam).

**- Ömür yoldaşı seçəndə ailənizin təsiri olubmu və hansı cəhətləri əsas götürmüsünüz?**

- Xeyr. Özüm demişəm ki, filankəsgilə elçi gedin. Vəssalam.

**- Həyatda sizi ağrıdan, narahat edən nədir?**

- Saxtakarlıq, lovğalıq, müştəbehlik, quru qürur, ən çox isə təkəbbür. Təkəbbür insanı məhv edir. Bütün fəaliyyətində ona maneə olan başlıca amildir.

**- Qazandığınız uğurlara görə özünüzün hansı xarakterik cəhətlərinizə borclusunuz?**

Məsuliyyətli, çalışqan, məqsədyönlü olmağıma. Bütün işlərimi əvvəlcədən planlaşdırır, sonra yavaş-yavaş həyata keçirirəm. Bu lap uşaqlıqdan belə olub. İndi də belə davam edir bu günə qədər (28. 01. 2025) elə bir hal olmayıb ki, istədiyim bir işi həyata keçirə bilməyim. Bütün xəyallarımı gerçəkləşdirmişəm. Min şükür Allaha. Hətta məsələlər olub ki, sadəcə ani olaraq, nə vaxtsa beynimdən keçib. Böyük və Qadir Allah o ani istəklərimi belə həyata keçirdib.

**- Yaşlı nəsildən kimlər sizə dayı oldu, kömək elədi?**

- Yaxşılar həmişə olub. Mən buna dayı yox, ədalətli böyük, yol göstərən deyərdim. Məncə şanslı insan təhsil dönəmlərində yaxşı müəllimə rast gələnlərdi. Bu məsələdə mənim də bəxtim gətirib. Orta məktəb müəllimlərimdən Həsən müəllim, Əbdüləli müəllim, Rövşən müəllim, Asif müəllim, BDU-dan Rasim müəllim, BABKM-dan mayor Orucəliyev, baş leytenant Əmirəliyev, kapitan Mövsümov, ŞDRK - indən İlham müəllim, Esmira müəllim…Allah yaxşılara kömək olsun. Yaxşılar həmişə var. Yaradıcılıq məsələsinə gələndə mən hamıya qarşı yaxşı olduğum üçün heç kimlə problemim yoxdur. Ancaq müasir ədəbi cameədə Səlim Babullaoğlunun yeri bir başqadır. Baxmayaraq ki, elə də çox yaş fərqimiz yoxdur. Mən onu əsl ədalətli, böyük-səmimi doğru yol göstərən yoldaş hesab edirəm. Nizam-intizam, dəqiqlik, səmimilik, xüsusilə təmkin və ətrafdakılara diqqət məsələsində bu şəxsdən nümunə götürmək olar (mənim bu mövzuda tövsiyə xarakterli bir neçə iri həcmli yazım var).

**- Müharibə veteranısınız. Birinci Qarabağ müharibəsində iştirak etmisiniz. O günləri necə xatırlayırsınız?**

- Ordu böyük məktəb, orada keçirilən dərslər isə unudulmazdır. Lap sübh vaxtı olsa belə bircə saat xidmətdə olduğum zamanı heç bir mükafat və ya maddi məbləğlə kompensasiya etmək üçün müqayisə olunmasına razı olmaram. Ordu həyatı, bu dünyanın dəyərləri tamam başqadır. Müharibə heç vaxt yaxşı bir hal, onun iştirakçısı olmaq isə öyünüləsi bir status deyil. Biz sadəcə olaraq hərə bir sahədə öz əsas işimizi yarımçıq qoyub torpaqlarımıın müdafiəsinə qalxmağa məcbur olduq. Başqa çıxış yolumuz yox idi. Hansı yolla olur olsun, torpaqlarımızı müdafiə və sonra isə azad etməli idik. Müzəffər Ali Baş Komandanımız İlham Əliyev, göydə Böyük Allah olmaqla, öz sərvətimiz, öz gücümüz, şəhid olan qardaşlarımızın qanı bahasına bu məsələ də öz həllini tapdı.

**- Bir vətəndaş-ziyalı kimi, şair kimi bu gün sizi ən çox narahat edən amillər nədir?**

- Təhsilin, xüsusilə ibtidai siniflərdə təşkili və səviyyəsi. Təhsil, təhsil… Doğum evindən tutmuş, ta qəbr evinədək bütün sahələrdə problemlər var və onların əsas səbəbi cahillik, savadsızlıqdır. Ancaq mən inanıram ki, biz bütün bu çətinliklərin öhdəsindən ləyaqətlə gələcəyik. Hər gün yaxşıya doğru yeni bir addım atıldığına inanıram. «Hər şey yaxşı olacaq».

**- Uşaqlıq yoldaşlarınla bağlı xatirələri ömür kitabından çıxarsan, ömrün səhifələri solğun görünər. Bu mənada tay-tuşlarını, uşaqlıq yoldaşlarını necə xatırlayırsan, onlar**

**yaddaşında necə qalıb?**

- O illəri unutmaq olarmı? Uşaqlıq yoldaşlarım, tay-tuşlarım yaddaşımda işıq kimi qalıb. Onların hər birini yaxşı xatırlayıram, o keçən günlər gözlərim önündə tez-tez canlanır. Onlar bütün müsbət, həm də çatışmayan cəhətləri, zəif və güclü xüsusiyyətləri, bacarıq və qabiliyyətləri ilə yaddaşıma həkk olunub.

Tay-tuşlarımın, uşaqlıq yoldaşlarımın özlərinin də sezmədikləri xarakter cizgiləri də yadımdadır. Görünür, bu da mənim müşahidə qabiliyyətimin güclü olması ilə bağlıdır. Onların hərəsini bir cür, eynilə özləri kimi xatırlayır və hər dəfə də qəribə hisslər keçirirəm. Ürəyimdə təzədən o illərə qayıtmaq arzusu baş qaldırır. Amma təəssüf ki, bu, mümkün deyil.

**- Bəzən "tale" və "bəxt" anlayışlarını tez-tez işlədirik. Necə düşünürsünüz "tale" və "bəxt" anlayışları gerçəkliyi necə əks elətdirir?**

- Bir çox hallarda "tale" anlayışına şübhə ilə yанашanlar sonradan onu qəbul etməli olurlar. Bu daha çox insanın həyat rəcrübəsi ilə bağlı bir məsələdir. Tale (qədər) anlayışı bir çox inancda mövcud olub insanın başına gələcəklərin böyük bir qisminin öz əlində olmadığı inancına dayanır. Qədərin əsas mənası Allahın, olmuş olacaq hər şeyi bilməsi deməkdir. Diqqət yetirsək insan iradəsini yox saymır. Bilmək ayrı etmək ayrıdır. Bilən Allahdır, edən quldur. Bu mövzuya bir misal verək; Peyğəmbərimiz İstanbulun fəthini və komandirini yüz illər əvvəl müjdələmiş və xəbər vermişdir. Zamanı gəlincə də dediyi kimi çıxmış. İndi, İstanbul Peyğəmbərimiz dediyi üçünmü fəth edildi, yoxsa fəth ediləcəyini bildiyi üçünmü

söylədi. O zaman Fateh Sultan yatsaydı, ordular hazırladıb döyüşməsəydi yenə olacaq idimi? Demək ki Allah Fatehin çalışıb İstanbulu fəth edəcəyini bilirdi və bunu elçisi Hz. Peyğəmbərə bildirdi.

Buradakı incə nöqtə: Allah bildiyi üçün etmirik. Biz edəcəyimiz üçün Allah bilir. Onsuz da Allahın gələcəyi bilməməsi düşünülə bilməz. Bilməsə yaradıcı ola bilməz.

Şans isə hər kəsin qabağına çıxa bilər. Kim şansı görür və ondan istifadə edir, kim isə onu başqalarına buraxır…

**- Ovqatınızın kədərli, yoxsa sevincli anlarında şeir yazırsınız?**

Şeir yazılmır, doğulur. Daha çox kədərli anlarımda şeir vəhy kimi gəlir və mən günün hansı vaxtından asılı olmayaraq ürəyimdən süzülən misraları kağıza köçürürəm.

Bir də görürsən ki, sükan arxasında olanda da hisslər, duyğular ürəyimdə dəniz kimi çağlamağa başlayır. Havada uçuşan səsləri eşidirəm və maşını saxlayıb bu səsləri dinləyirəm. Mənə elə gəlir ki, bu səslər Tanrı pıçıltılarıdır. Və mən bu pıçıltıları səhər də, axşam da, yayda da, payızda da, qışda da, bir sözlə günün, ilin istənilən vaxtında kağız üzərinə «ilmələyirəm». Yayda sözlə sərinləyir, qışda sözlə isinirəm. Sözlə isinən adam üşüməz.

**- Yaşadığınız hissləri, duyğuları tam şəkildə şeirlərinizə hopdura bilirsinizmi?**

- Yaşadığım hisslərdə, duyğularda təvazökarlıqdan uzaq olsa da, deyə bilərəm ki, fırtına gücü var. Bu fırtına gücünü bir çox şeirlərimdə hiss eləmirəm. Ona görə deyə bilərəm ki, yaşadığım hiss və duyğuları, içimdəki fırtına gücünü tam

şəkildə şeirlərimə köçürə bilmirəm.

Şair hisslərini, duyğularını şeirlərinə nə qədər hopdursa da, yenə də hiss eləyir ki, nəsə çatışmır. Bəs o çatışmayan nədir? Çatışmayan ürəkdə qalan hisslərin, duyğuların bir zərrəsidir ki, onu da şeirə hopdurmaq mümkün deyil. Axı o hisslərin, duyğuların hamısı ürəkdən süzülüb misralara hopa bilmir. Hopa bilsə-ürək boş qalar. Hissiz, duyğusuz bir ürək kimə lazımdır?

Bəli, heç bir şair hiss və duyğularını tam şəkildə şeirlərinə köçürə bilməz. Bu, mümkün deyil. Belə olsa hər şey bitər.

**- Sevgi şeirlərinizin hamsını ömür-gün yoldaşınıza həsr etmisiniz, yoxsa…**

- Axı mən bir nəfərə o qədər sevgi şeirləri yaza bilmərəm. İstəsəm də, bu, mümkün deyil. Və bir də hər yazılan sevgi şeiri o demək deyil ki, sevdiyin xanıma ünvanlanıb. Qadına, ya qızlara sevgi şeirlərindən çox, sevginin özü gərəkdir.

Sevgi şeirləri Dədə Qorquddan üzü bəri yazılan ən qədim mövzulardan biridir və bu mənada sevgi şeirləri yazmayan şair də yoxdur. Yazılan sevgi şeirləri ünvanlı da ola bilər, ünvansız da.

- Şair taleyi yaşamaq məncə ağırdır, ağrılıdır, şirin əzablarla müşayiət olunan bir taledir, hər halda əzablı taledir.

**Dünyaya ikinci dəfə gəlsəydiniz və ixtiyar sahibi olsaydınız, şair taleyini seçərdinizmi?**

- Şair taleyimdən narazı deyiləm. Bu tale mənə ağrılı deyil, əksinə, iç dünyamı şirin duyğularla dolduran, ürəyimi dünya boyda işıqlandıran və Tanrı tərəfindən verilən ən

gözəl paydır.

Ağrı, mənə elə gəlir ki, insanı ayaqda saxlayan bir duyğudur. Bu duyğu insanı daha da möhkəmləndirir, qaya kimi sərtləşdirir və hər zərbəyə sinə gərməyə kömək eləyir.

Həyatın hər zərbəsi ağrılı olur. Mən bir şair kimi bu ağrıları qələmimlə dəf etməyə çalışıram.

Tanrıma şükür eləyirəm ki, mənə qələm verib və mən bu qələmlə həm də Tanrı ilə təmasda oluram. Bu qələm olmasaydı, inanın ki, nar kimi çat verərdim.

**- Deyirlər ki, yazı-pozu adamlarının çörəyi daşdan çıxır. Bu, doğrudurmu?**

- Lev Tolstoyun belə bir sözü var. Deyir ki, yazıçılıq qul əməyidir. Bu, həqiqətən belədir. Yazıçılıq da, şairlik də Allahın verdiyi bir missiyadı. İstəsən də, istəməsən də gərək bu missiyanı şərəflə yerinə yetirəsən.

Hazırda yazı-pozu adamların çörəyi heç daşdan da çıxmır. Qələmlə dolanmaq müşkül işə çevrilib. Əvvəllər - Sovet dönəmində belə deyildi. Əl boyda bir kitabın qonorarı ilə avtomobil almaq olurdu. Nə isə. Ərz elədiyim kimi, şairlik də, yazıçılıq da bir missiyadı. Buna görə də əsl qələm adamları maddiyyatdan daha çox mənəviyyatı düşünürlər. Yazılan hər bir əsərin sevinci, mənəvi qazancı maddi qazancdan dəfələrlə çoxdur.

Mənim üçün yazılan hər şeir qiyməti olmayan Tanrı payıdır. Bu payı heç nəylə əvəz eləmək olmaz. Və bir də Allah söz adamının çörəyini sözdən asılı eləməsin.

Yazıçının da, şairin də süfrəsinə gələn çörək gərək qələmdən asılı olmasın, o, sözün və sözünün ağası olsun. Və bir də hər kəsin çörəyi qələmdən çıxmır ki… gərək işləyəsən,

əmək fəaliyyətilə məşğul olasan…

**- Ədəbi tənqidin sizin yaradıcılığınıza münasibətindən razısınızmı?**

- Səmimi deyirəm. Bu günkü ədəbi tənqid əvvəlki illərdəki ədəbi tənqiddən çox-çox fərqlənir. Belə ki, ədəbi tənqid ədəbi təriflə əvəz olunub desəm, yanılmaram. Mehdi Hüseyn, Yaşar Qarayev, Yusif Seyidov, Qulu Xəlilov və adlarını çəkmədiyim neçə-neçə tənqidçilərin yeri bu gün daha çox görünür.

Ədəbi tənqid yenə də var və yenə öz sözünü deməkdədir.

Bir sözlə, bir şair olaraq ədəbi tənqidin fəaliyyətindən o qədər də razı deyiləm. Əssasız tərifnamələr, qeyri-obyektivlik, dostbazlıq və s.hamıya bəllidir. Ən zəif, ən bəsit və primitiv əsərləri də tərifləyib dağ başına qaldıranlar da var.

Konkret mənim yaradıcılığıma gəldikdə deyə bilərəm ki, haqqımda az yazılmayıb. Yaradıcılığım barədə üç monoqrafiya yazılıb ki, onların da birinin müəllifi sizsiniz. Yazılanlardan qismən razı qalsam da, demək istəyirəm ki, kaş Belinski kimi bir tənqidçi olaydı, yazdıqlarımı saf-çürük eləyəydi, hansı mərtəbədə dayandığımı güzgü kimi göstərəydi.

İnanır və ümid edirəm ki, nə vaxtsa əsassız tərif, şablon yanaşma aradan qalxacaq və ədəbi tənqidçilər də yazılan hər bir şeirə, poemaya…böyük rus tənqidçisi Belinskinin gözü ilə baxa biləcəklər…

**- Bir şair olaraq Azərbaycana və dünyaya sözünüzü deyə bilirsinizmi?**

- Səmimi deyirəm. Mən heç vaxt  nə Azərbaycana, nə də

ki, dünyaya söz demək iddiasında olmamışam və olmaram da.

Mən şair, yazıçı olaraq öz sözümü deyirəm və sözümün kimə çatmasından asılı olmayaraq bu mənim missiyamdı. Mənim missiyam yazmaqdı. Yazdıqlarımı oxuyan çoxdu. Özüm yazıb özüm oxuyan şairlərdən deyiləm. Bunu siz də bilirsiniz. Bilirsiniz ki, ürəyimin diqtəsilə şeirlər yazıram. Ürəyimin diqtəsilə yazdığım şeirlər mənim səsimdi, nəfəsimdi. Səsim eşidilir, nəfəsim duyulur.

**- Ədəbi adlar, titullar nə dərəcədə doğru yanaşmadı?**

- Mənim münasibətim adlarla, titullarla bağlı normaldı. Bu, yazıçıya, şairə stimul verir, onu daha yaxşı əsərlər yazmağa ruhlandırır. Söz adamına dəyər veriləndə onun məsuliyyət yükü də artır və o, əsl sənət əsərləri yaratmaq üçün qələminin və istedadının bütün gücündən istifadə edir.

Bəzən deyirlər ki, ümumiyyətlə adları ləğv etmək lazımdır. Bu, yanlış fikirdir. Özünü təsdiqləmiş imzalara «Xalq yazıçısı və ya «Xalq şairi» titulunun verilməsi normaldır. Amma o «Xalq yazıçı», «Xalq şairi» adına layiqdir, ya yox, bu, başqa bir məsəlidir. Bəlkə düşünmək olar ki, «Xalq yazıçısı» həm də ziyalı olsa yaxşıdır. Çünki burada «xalq» sözü var. Fransanın özündə də belə titullar var. Yəni burada böyük bir qüsur yoxdur. Əsas məsələ layiq olub olmamaq məsələsidir.

**- Bu gün söz adamlarının cəmiyyətdə rolu və funksiyasını nədə görürsünüz?**

- Ziyalı mənsub olduğu millətin simasını müəyyənləşdirən şəxsiyyətdir. Tarix göstərir ki, millətin çətin anlarında onun mükəmməl milli təəssübkeşlik duyğularına malik

ziyalısı millətə düzgün yol göstərib onun bu çətinlikdən xilas olmasında böyük rol oynayır.

Xalqın içərisindən çıxıb ona xidmət göstərmək istəyən ziyalı üçün fəaliyyət dairəsi məhdud olmur. Əksər halda isə ziyalılar yaratdıqları zəngin mənəvi sərvətlə öz millətlərinin tarix səhnəsindən çıxarılmasının qarşısını alırlar…

**- Dünyada baş verən proseslərdə ədəbiyyatın rolu nədir? Deyək ki, müharibədə ədəbiyyat özünü necə göstərməlidir?**

- Dünyada baş verən proseslər çox qarışıqdır. Necə deyərlər, izlər bir-birinə qarışıb. Nəyin necə, harada olduğunu müəyyənləşdirmək çox çətindir.

Dünyada baş verən proseslərdə hər kəsin özünəməxsus haqlı iradları ola bilər. Ədəbiyyatda müharibə mövzusu həmişə olub və yenə də olacaqdır.

Deyirlər ki, 44 günlük Vətən müharibəsindən sanballı əsərlər yazılmayıb! Yazılır və gələcəkdə də yazılacaq. Ola bilsin ki, yazılan əsərlər hələ öz dəyərini qazanmayıb. Bu da zamanla bağlıdır. Düşünürəm ki, Qarabağ müharibəsi ilə bağlı mükəmməl əsərlər yazılacaq.

Müharibədə ədəbiyyat sülhə tərəf olmalıdı. Ədəbiyyatın bir missiyası da sülhün, insanlığın, xeyirxahlığın, dostluğun, ədalətin təbliğ olunmasıdır. Dünyada yanaşmalar fərqlidir. Biz torpaqlarımızı işğaldan azad elədik, suverenliyimizi qoruyub saxladıq. Bu, elə də asan məsələ deyildi. Buna nə qədər hazırlıq getdi. Hazırlıq olmadan torpaqlarımızı qaytara bilməzdik. Ədəbiyyat da hazırlıqlı olmalıdı. Otuz il məğlubiyyətdən, Qarabağ həsrətindən, işğal olunmuş, yağmalanmış şəhər və kəndlərimizdən əsərlər yazıldı,

şeirlər, poemalar çap edildi. İndi də möhtəşəm qələbədən möhtəşəm əsərlər yazılacaq.

**- Siz özünüz də tərcüumə ilə məşğul olursunuz. Tərcümə ilə bağlı nə düşünürsünüz?**

- Tərcümələrlə bağlı vəziyyət ürəkaçan deyil, olduqca bərbaddır. Düşünürəm ki, yaxşı tərcümələr barmaqla sayılacaq qədərdir. Yaxşı əsərlər az olduğu kimi, yaxşı tərcümələr də azdı. Pul qazanmaqdan ötrü necə gəldi tərcümə eləyirlər. Bu, yolverilməzdir.

O vaxt fars dilindən Şəhriyarın «Azərbaycan» şeirini Fikrət Sadıq tərcümə eləmişdi. O qədər gözəl tərcümə edilmişdi ki…Elə bil şeir farca yox, Azərbaycan türkcəsində yazılmışdı. İndiki tərcümələr isə çoxlarını qane eləmir. Tanınmış bir şairin iki-üç şeirini və yaxud yazıçının hekayəsini tərcümə etməklə iş bitmir. Hər hansı bir şairin, yaxud yazıçının yaradıcılığını əhatə edən kitablar azdır, çox azdır, necə deyərlər yox dərəcəsindədir. Nə tərcüməçilər, nə də naşirlər bunu eləməkdə maraqlı deyillər, çünki gəlir gətirmir.

Tərcümə işi bərbad vəziyyətdə olsa da yaxşı tərcüməçilərimiz də az deyil. Amma buna baxmayaraq bəzən rus dilində oxuduğum əsəri Azərbaycan dilində oxuyanda baxıram ki, müəyyən hissələr çıxarılıb. Sual oluna bilər. Niyə? Ona görə ki, tərcüməçi bacarmadığını çıxarıb atmağa məcbur olub. Ümumiyyətlə, tərcüməçilik çətindir.Bu, hər kəsin bacardığı sahə deyil. Nazim Hikmət tərcümə haqqında deyirdi ki, hər hansı bir şairin, yazıçının yaratdığı sənət nümunəsi başqa dilə çevrilərkən, sanki müəllifin «sol döşünün altındakı cəvahir (ürək) söz-söz, misra-misra, sətir-sətir sökülüb təzədən yığılır. Düzdü, yenə də həmin ürək

alınır, amma çatlarıynan… - Zənnimcə, tərcümə haqqında fikir yürütməyə daha  ehtiyac yoxdur.

**- İstedad haqqında düşüncələriniz…**

- İstedad insana müəyyən bir fəaliyyəti uğurla, müstəqil və ilkin olaraq yerinə yetirmək imkanı верир, qabiliyyətlərin yüksək inkişaf səviyyəsini müəyyən edir. Qabiliyyətlərin bu kombinasiyası bizə öz yeniliyi, yüksək performans səviyyəsi və sosial əhəmiyyəti ilə seçilən fəaliyyət məhsulunu əldə etməyə imkan verir.

İstedadın ilk əlamətləri artıq uşaqlıq чаьларында  görünə bilər, lakin istedad sonradan da юзцнц эюстяряр. İstedad musiqi, ədəbiyyat, təbiət elmləri, texnika, идман sahəsində вя с. özünü göstərə bilər. Hər bir halda istedadın əsasını təşkil edən qabiliyyətlərin birləşməsi xüsusi, yalnız müəyyən bir insana xasdır.

**- Ziyalı kimdir və bu günkü cəmiyyətdə ziyalıların rolunu necə qiymətləndirirsiniz?**

- Ziyalı işıqdır, qaranlıqda bir damla nurdu. Amma eyni zamanda ziyalı təkcə işıq deyil, o daha çox işığın fəaliyyətidir.

Ziyalı xalqın ağrı-acılarını ürəyində gəzdirən, haqsızlıq önündə susmayan, haqqın yanında dayanan bir insandır. O, öz ləyaqəti, nüfuzu, hörməti və bütün varlığı ilə milli mənafedən çıxış edir.

Bu gün əsl ziyalılar gündəmdən çıxarılıb və onların hər biri bir küncə çəkilib gizləmə mövqeyində dayanıblar…

Ziyalının rolu bu gün yox dərəcəsindədir. Cəmiyyətdə rolu olmayan ziyalını necə qiymətləndirmək olar? Bilmirəm. Ancaq onu bilirəm ki, ziyalısı olmayan cəmiyyət işığı sönmüş

ev kimidir.

Ziyalı olmayan yerdə şər ağacları bitər, cəmiyyətin gələcəyi təhlükə altına düşər. Bu, həqiqətdir. O da həqiqətdir ki, ziyalılıq kriteriyası indi çox dəyişib. Əvvəllər belə deyildi. Cəmiyyət özü ziyalıya qarşı çox həssas idi, ziyalının hər sözü ağsaqqal sözüydü, Dədə Qorqud sözüydü və onun sözünə qarşı söz deyilməzdi.

**- İndi hanı o ziyalılar? Hanı Azərbaycan Xalq Cümhuriyyətinin ideallarını əzən «qırmızı bolşeviklərə» qarşı dəyanətlə, mətanətlə, və qürurla mübarizə aparan Azərbaycan ziyalıları? Hanı Hüseyn Cavidlər, Mirzə Cəlillər, Üzeyir bəylər…Axı Azərbaycanın düymə basan yox, şam yandıran ziyalıları da olub.**

- Doğru buyurursunuz. Bu gün şam yandıran ziyalılar azdır, olduqca azdır. Təəssüf ki, bu azlıq çoxluğun qarşısında aciz durumda qalıb. «Yalanla yaşamaq», öz mənafeyi üçün çalışmaq, ziyalıya yaraşmaz.

Ziyalı özünə, öz tayfasına, qohum-əqrabasına yox, xalqının taleyinə təsir göstərməlidir.

Ziyalı şam yandırmalıdır. Şam yandıran ziyalı - fövqəl-insandır. Düymə basan ziyalı isə…Deməyə söz tapmıram.

Bulqakov yazırdı: «…Ziyalılar, özünüzdən güclüsündən heç bir şey və heç bir zaman xahiş etməyin. Heç bir şey və heç bir zaman! Özləri çağırıb bir şey təklif etsələr belə, rəğmən, qəbul etməyin».

Bir sözlə, demək istəyirəm ki, bu gün ziyalı sözü yoxdur. Bu gün mədhnamələr yazan ziyalılar gözqamaşdıran «villa»larda yaşayırlar. Böyük sovet dissidenti, böyük ziyalı

Qaliç haqlı olaraq deyirdi ki: «Ziyalının sözü yox, ürəyi yorular». - Görünür, bu günkü ziyalıların ürəyi yox, sözü yorulub. Və bir də o «ziyalıların» ürəyi necə yorula bilər? İşləməyən ürək yorularmı?

Bu sualın cavabını M. Ə. Rəsulzadənin bu sözlərilə yekunlaşdırıram: «Ziyalı - millətin ruhunu əks etdirən ən gözəl aynadır».

**- Zaur müəllim, siz bu aynada millətin ruhunu əks etdirən ziyalılardan birisiniz. Və bir ziyalı kimi deyə bilərsinizmi ki, ziyalının dövlətə münasibəti necə olmalıdır?**

- Dövlətin ziyalıya münasibətindən asılı olmayaraq, ziyalı vətəni sevməli, dövləti qorumalı, haqq işi uğrunda mübarizə aparmalı, ürəyi həmişə vətən eşqilə, millət sevgisilə döyünməlidir.

Ziyalı dövləti həm də ona görə sevməli və qorumalıdır ki, dövlət onunkudur.

Ziyalı Danko kimi ürəyini çıxardıb və bu ürəyin işığında xalqı irəliyə aparan bir şəxsiyyət olmalıdır. Və həmin o şəxsiyyət dövlətin siyasəti ilə bağlı nəsə deyərsə, onu dinləmək, fikirlərinə hörmətlə yanaşmaq lazımdır. Çünki əsl ziyalının dediyi söz, yürütdüyü fikir dövlətin də, xalqın da xeyrinə işləyər. Buna görə də ziyalının fikirlərini saf-çürük etmədən  ona qarşı qeyri-adekvat reaksiya vermək düzgün deyil. Ziyalının sözü eşidilməlidir. Ziyalının sözü eşidilməyən cəmiyyətdə anarxiya hökm sürər, özbaşınalıq olar, qananın yerini qanmaz, alimin yerini nadanlar tutar.

Ziyalı dövlətini sevdiyi kimi, dövlət də ziyalını həmişə diqqətdə saxlamalıdır.

İnsanlar daha çox ziyalılardan nümunə götürür, onun

işığına can atırlar. Günəş sönərsə, dünya məhv olar. Ziyalı olmasa, həyat qaranlığa bürünər.

Və ən nəhayət, demək istəyirəm ki, alim qələmilə, tacir sələmilə öyündüyü kimi, ziyalı da ziyalılığı ilə, cəmiyyət də ziyalıları ilə öyünməlidir.

**- Şairin birinci xüsusiyyəti nə olmalıdır?**

- İstər yazıçı, istərsə şair olsun, birinci növbədə özünü dərk etməli, hansı gücə malik olduğunu bilməli, bir sözlə, özünü tanımalıdır. Təəssüf ki, özünü tanımayan yazarlar çoxdur, lap çoxdur. Bu da bir çox acı nəticələrə gətirib çıxarır.

Yazıçı da, şair də özünü tanıyandan sonra nə yazacağını bilməlidir. Yoxsa, nə qədər yazsa da onda alınmayacaq. Özünü tanınma prosesi vacib məsələdir. Sən bilməlisən ki, yazdığında həqiqətin payı nə qədərdir. Həqiqət varmı? Bu suallara yazıçı mətndə cavab yazmalıdı. Bu, yazıçının birinci xüsusiyyətlərindən biridir. Həqiqəti yazmaq, həm də olduğu kimi yazmaq lazımdır. Bu da zamanla bağlıdır.

**- Deyə bilərsinizmi ki, mərdlik, kişilik nədir?**

- Mərdlik elə kişilik, kişilik də mərdlik deməkdir. Məhz ona görə də hər əynişalvarlıya kişi demək olmaz.

Kişi həyatın müxtəlif zərbələrinə tab gətirmək qüdrətidir. Kişi polad kimi sınar, ancaq əyilməz. Çətində də, darda da şah vüqarını, qürurunu, mənliyini qoruyub-saxlayan, heç kimdən qorxmayan, çəkinməyən mərd kişilər heç vaxt həyatından, taleyindən şikayət eləməz.

Kişini kişi eləyən onun qeyrətidir. Qeyrəti olmayan adamın məsləki, hədəfi də olmaz. Məsləki olmayan adamdan uzaq durmaq yaxşıdır.

A.Bakıxanovun belə bir fikri var: Deyir ki, mərd o adamdır ki,öz eybini özgələrin eybindən artıq görsün, öz hünərini kiçik bir şey sansın.

…Kişi çəkiləsi mümkün olmayan dərdi də çəkməyi bacarmalıdır. Dərd də kişi ürəyində boy atır, böyüyür…

Bu gün köhnə kişilərin yeri daha çox görünür. Don Kixotlar, Xlestakovlar, Ostar Benderlər, Molla İbrahimxəlil kimyagərlər, Şeyx Nəsrullahlar, Keçəl Həmzələr…bir sözlə ailəsini vətən sayanlar, başqalarının yox, öz gözlərində ucalanlar bu gün kişini kişi olmağa qoymurlar…amma buna baxmayaraq yenə də kişilik də, mərdlik də yanaşı addımlayır.

**- Sevgiyə və nifrətə münasibətinizi bilmək maraqlı olardı.**

- Sevgi də, nifrət də hissdir, duyğudur, insan ürəyinin göstəricisidir. Ürəyində sevgi və nifrət gəzdirməyən insana rast gəlmək mümkün olmayan işdir.

Sevginin də, nifrətin də növləri çoxdur. Saymaqla, qurtarası deyil ki… Məsələn, vətənə, millətə, ata-anaya, övlada, nəvəyə, sevdiyin qadına, eləcə də gülə-çiçəyə, bir sözlə, təbiətə dağlara, meşələrə… bütün gözəlliklərə sevgi var, məhəbbət var.

Sevmək böyük xoşbəxtlikdir. Heç kimin pisliyinə bais olmayan, heç kimin bədbəxtliyinə gətirib çıxarmayan sevgi isə ikiqat xoşbəxtlikdir.

Sevgi və məhəbbət eyni mənanı özündə ehtiva etsə də, ata-anaya, övlada, qohuma, dosta…daha çox məhəbbət sözü işlədilir.

Sevgi və məhəbbət insan ürəyinin ən ali duyğusu, ən təmiz, ən saf hissidir. Heç kimi və heç nəyi sevməyən yoxdur,

əgər varsa, o, yazıq insandır, tumurcuq arzusunda olmayan «ağacdır» - yəni quru odundur.

Sevmək və sevilmək ən böyük səadət, ən böyük xoşbəxtlikdir.

Nifrət də duyğudur. İnsan nifrət edəndə də ədalət hissini unutmamalıdır. Nifrət daha çox qəzəbdən doğan hissdir, bu hissi cilovlamağı bacarmaq lazımdır, çünki qəzəbdən qorxulu heç nə yoxdur.

Çox zaman nifrət həsəddən, paxıllıqdan yaranır. Paxıllıq insanlar arasında nifaqın başlanğıcını qoymaqla yanaşı, həm də insanın rahatlığını pozan, insanın özünü yandıran can odudur.

**- Dost nədir və əsl dost necə olmalıdır? Və bir də sizi daha çox dostlarınızın mənəvi, yoxsa fiziki itkisi məyus edir?**

- Dost ikinci mən deməkdir. İkinci mən olan dostlarım ya bir olar, ya iki.

Əsl dost, Aristotel demişkən iki bədəndə yaşayan bir qəlbdir. Bu qəlbə toxunmaq, bu qəlbi incitmək olmaz. Dosta inamın, etibarın olmalıdır. İnamsızlıq başlayan yerdə dostluq da qurtarır.

Dostun həm mənəvi, həm də fiziki itkisi insanı məyus edir, kədərləndirir. Dünyada dostluqdan yaxşı və xoş nə ola bilər? Xaqani də gözəl deyib: «Dostsuz, yoldaşsız adam ölü hesabındadır».

Və bir də dost qazanmağı da bacarmaq lazımdır. Mən dostlarımın şıltaqlığına dözürəm, onların əgər nöqsanı olarsa, özlərinə deyirəm, başqalarına demirəm, çünki dostu düşmən etmək asandır. İnsan düşməni dosta çevirməyi bacarmalıdır.

**- Darıxanda nə işlə məşğul olmaq istəyirsiniz? Kitab oxuyursunuz, musiqiyə qulaq asırsınız, yoxsa…**

- Ömrə, günə hər gün ölüm yağan bu dünyada darıxmamaq olarmı? İnsan niyə darıxır? Darıxmaq duyğusu necə yaranır? Bunu heç kim bilmir. Bəlkə haqq dünyası üçün darıxırıq? Demək çətindir.

Nə kitab oxumaq, nə musiqiyə qulaq asmaq darıxmanın qarşısını almaq gücündə deyil. Darıxanda heç nə köməyimə gəlmir.

Mənim darıxdığım anlar o qədər də çox olmur, çünki mən bütün hisslərimi, duyğularımı darıxmamağa yönəltsəm də, yenə də öz içimdə darıxdığımı hiss eləyirəm.

Onu da deyim ki, darıxmağa vaxtım da yoxdu. Yazı masamın arxasında əyləşib əlimə qələm götürən andan hər şeyi unudurdum. Görünür, darıxmaqda yaşın da öz təsir gücü var.

Və bir də mən daha çox stressləri aradan qaldırmaq üçün klassik musiqini dinləməyə üstünlük verirəm. Klassik musiqinin təsiri altında özümdə bir çox dəyişiklərin baş verdiyini hiss eləyirəm. Hiss eləyirəm ki, səs dalğaları mənə müsbət təsir göstərir; stressdən azad oluram, özümü rahat və xoşbəxt hiss edirəm, eyni zamanda darıxıram. Qəribədir ki, darıxanda musiqiyə qulaq asmıram, musiqiyə qulaq asanda həm stressdən azad oluram, həm də ötən illər üçün darıxıram.

**- Deyə bilərsinizmi, ölüm nədir, həyat nədir?**

- Ölüm də doğulmaq qədər müqəddəs bir şeydi. Ölüm olmasa həyat da olmaz. Ölüm həyatı, həyat da ölümü yaşadır.

Məsələn, uca bir Çinar ağacını gözlərinizin önünə gətirin.

O ağacın kökü doğulması, gövdəsi yaşaması, quruması isə ölümüdü. Bu, təbii bir prosesdir və bu proses dünya yaranandan bəri davam edir. Dünya yaranandan ölümlə həyat qoşa addımlayır və bir-birilərinə maneçilik törətmirlər, əksinə, bir-birilərinə «söykənib» yaşayırlar. Məhz ona görə də həyatın gedişatı ölümlə nizamlanır. Ölüm həyatı dağıtsa da, həm də həyatı yaşadır. Həyat da öz növbəsində ölümü yaşadır ki, özü də yaşasın.

Ölümlə həyat arasında güclü bir bağlılıq var. Bu bağlılıq qırılarsa nə həyat olar, nədə ki, ölüm.

Düşünürəm ki, ölümü də toy-bayram kimi qarşılamaq lazımdır. Sual oluna bilər ki, nəyə görə? Ona görə ki, hamımız öləcəyimizi bilirik, ölüm üçün qorxmağa, təlaş keçirməyə dəyməz. Ölümün acığına ölümü gülə-gülə qarşılamaq lazımdır.

Ölüm-sabahkı gündür, necə deyərlər, yaydan sonra gələn qışdır. Qışa hazırlaşdığımız kimi ölümə də hazırlaşmalıyıq. Ölümə hazırlaşmağın bir yolu da xeyirxah həyat sürmək, yaxşı işlər görməkdir.

Lev Tolstoyun sözləridir: «Həyata yuxu, ölümə isə yuxudan oyanmaq kimi baxmaq lazımdır».

**- «Dünya bir pəncərədir» - deyirlər. Bu, doğrudurmu?**

- Məmməd Arazın «Dünya sənin, dünya mənim, dünya heç kimin» sözlərinə «söykənsək» deyə bilərik ki, dünya bir pəncərədir, hər gələn baxıb gedər. Hamı bu pəncərənin qarşısında dayanıb dünyaya baxır və görür ki, dünya heç kimindi, bu pəncərədən hər gələn baxar, gedər. Bu sözlər çox-çox qədimlərdə deyilib və düz də deyilib. Amma məsələ burasındadır ki, bu sözlərdən sonra dünya da çox dəyişib,

insanlar da. Elə adamlar var ki, nəinki bu sözlərin fəlsəfəsinə inanmır, onlar üçün bu dünyanın heç pəncərəsi də yoxdur. Bu adamlar var-dövlət yığır, özü də elə acgözlüklə yığırlar ki, sanki ölməyəcəklər, əbədi yaşayacaqlar. Bu tamahkar, acgöz adamlar qəbir evinin onların yolunu gözlədiyini anlaya bilmirlər. Belə adamlar üçün dünyanın pəncərəsi yoxdur, çünki başı var-dövlət yığmağa qarışıb. Tamahkar insan bədbəxtdir, simic-ikraha layiqdir. Dünya malına görə narahatlıq böyük bəladı.

Hər adamın öz dünyası var və hər adamın dünyasının da öz pəncərəsi var. Bu pəncərədən baxmağın özünün də bir gözəlliyi, şirinliyi olur. Bu pəncərədən baxan və görən insan var. Görən insan olmaq daha çətindir.

**- Bəs bu pəncərədən baxmaq üçün dünyaya gəlməyə dəyərmi?**

- Dünyaya öz xoşumuzla gəlmirik ki… Deyəsən, Ramiz Rövşənin misrasıdır: «Bilsəydim dünyaya gəlməzdim, analar aldatdı bizi».

Dünyaya hər kəs bir missiya ilə gəlir və gəlib öz missiyasını yerinə yetirərək haqq dünyasına qovuşur.

Bizə verilən ömür əslində bir sınaqdı. Hər kəs bu sınaqdan çıxa bilmir, nəfsin daxili burulğanları qarşısında əyilir, onun toruna düşür.

Və bir də dediyim kimi, biz öz istəyimizlə dünyaya gəlmirik axı! Dünyanı görmək üçün, Tanrının sınağından çıxmaq üçün dünyaya gəlirik. Bu dünyadan başqa Axirət dünyası da var. İnsan doğulan gündən Axirət dünyasına üz tutub gedir və Axirət dünyasında əbədi dinclik tapır.

**- Bu dünyada bir qum dənəsi də havayı yaranmayıb. Heç**

**kimin heç kimə imdad edə bilməyəcəyi məşhər meydanı da var. Bəli, insan ömrü müvəqqətidir. Bəs insandan dünyada qalan nədir?**

- İnsanın əməllərindən başqa hər şey keçicidir, hər şey müvəqqətidir. Bu dünyada yaxşılıq qalır, yaxşı ad qalır, bir də insanın əməlləri qalır. İnsan özüylə heç nə aparmır. Dünyadan köçəndə yaxınlarından, doğmalarından, əzizlərindən tutmuş var-dövlətinə qədər bu dünyada qoyub gedir. Yaddaşlarda isə onun əməlləri qalır. Deməli, dünyada qalan insanın əməlləridir.

İmam Qəzzalı deyir ki, insanın üç dostu var; biri adam ölən kimi ona xlətinə qədər bu dünyada qoyub gedir. . baxar, gedər.  var olmasəyanət edir, bu, var-dövlətdir. O biri yarı yola kimi onunla gedər. Bu, ailədir, qəbiristanlıqdan qayıdar.

Üçüncüsü axirətə onunla bərabər yollanar, bu əməlləridir. Həqiqətən də belədir.

Unutmayaq ki, haqq dünyası var. Haqq dünyasında bütün əməllərin hesabı sorulur. Bu dünyadakı əməllərimiz qəbr aləmində ələkdən keçiriləcək.

**- Vicdanlı insan və vicdansız insan, bu fərqi  necə şərh edə bilərsiniz?**

- Məhəmməd Peyğəmbərdən soruşurlar: «İnsanın günahı nədə gizlənir? - O, buyurdu - Vicdanı incidən şeydə. Onu burax», - Bəli, günah vicdanı paslandıran əlamətdir. Və bir də vicdanlı adam günah eləməz.

Məşhur bir filosofun sözləridir: «Vicdan min şahid deməkdir». Bu fikirlə razılaşmamaq mümkün deyil.

Hər adamdan vicdan gözləmək olmaz. Özlərinə firavanlıq qazanan, rütbə və mükafatlar alan, vəzifə kreslosunda əyləşən o qədər vicdansız adam var ki. Onlar vicdanını

satmaqlla böyük var-dövlət sahibi olublar. Onların vicdanı ləkəli olsa da, veclərinə deyil. Onların hər şeyi var, bircə vicdanları yoxdur. Onlardan vicdan gözləmək də mənasızdır. Vicdansız dönüb vicdanlı olası deyil. Vicdanlı olmaq, halal ömür sürmək, halal yaşamaq deməkdir. Halal yaşamaq sıxıntılarla üzləşmək deməkdir. Vicdanlı adam ona görə vicdanını satıb ki, sıxıntılar içində yaşamasın, sərvət içində xumarlansın.

Vicdanlı olmaq həyatın ən böyük sərvətidir. Vicdan və şərəf həyatdan da qiymətlidir.

Vicdanın nəğməsi etirafdır. Bu yerdə Bəxtiyar Vahabzadənin iki misrası yada düşür:

***Etiraf - vicdanın nəğiməsi, neyi,***
***Hər kəsin özündən öc almasıdır.***

Bir sözlə, vicdanlı adam günah işlətməməli, Allahın ona verdiyi ömrü Allahın istədiyi kimi yaşamağa çalışmalıdır.

**- Sizin günahınız olubmu? Olubsa, o hansı günahdır belə?**

- Günahsız insan olmaz. Amma günahını, səhfini etiraf etməyən adamların sayı o qədərdir ki… Günahını etiraf edən adam qüdrətli olmaq səviyyəsində dayanır. Bu, həqiqətdir. O da həqiqətdir ki, günah işlədən bunu bilərəkdən eləmir. Bu, onun istəyi xaricindədir. Əsl insan günahını hər vasitə ilə olsa da «yumağa» çalışır, tövbə eləyir. Savab işlərlə, xeyirxahlıqla və yaxşılıq etməklə günahını təmizləməyə çalışır. Mənim də günahım olub və günahımı da etiraf eləməyə həmişə cəsarətim çatıb. Belə rəvayət eləyirlər ki, bir qadını daş-

qalaq eləmək istəyəndə İsa peyğəmbər adamlara üz tutub deyir: «Qoy ilk daşı ona o şəxs atsın ki, onun həyatında heç bir günahı olmayıb». Araya sükut çökür, hamı bir-birinin üzünə baxır. Adamların arasında günahkar qadına ilk daşı atmaq üçün cəsarət edə bilən adam tapılmır. Düşünürəm ki, nə demək istədiyimi yaxşı anladınız. Və bir də Allah mərhəmətlidir, günahları bağışlayandır.

Və bir də deyirlər ki, insanın hər çiynində bir mələk əyləşib. İnsanın sağ çiynində əyləşən mələk onun savab işlərini, sol çiynində əyləşən mələk isə onun günahlarını qələmə alır. Savab işlərim çoxdur, ya günah işlərim! Deyə bilmərəm. Bunu ancaq Allah bilir və Allah günahını dərk edənə, onu bağışlayar.

**- Özünüzü valideyn və müəllimlərindən başqa kimlərə borclu bilirsiniz? Ümumiyyətlə, borc anlayışını necə başa düşürsünüz?**

- İnsan dünyaya gəlir və ömrünün sonuna kimi borc içində yaşayır. Borc nədir? Söhbət kimdənsə aldığın pul borcundan getmir. Borc daha böyük mənada başa düşülməlidir. Bu mənada mən özümü Allahdan başqa heç kimə borclu saymıram. Allahın iznilə dünyaya gəlmişəm. Allah məni dünyaya gətirməyib ki, ömrümü borc içində başa vurum! Ona görə də insan Allahdan başqa heç kimə borclu deyil. İnsan namusla, şərəflə, halallıqla yaşamalı, Allahın ona verdiyi ömrü ləyaqətlə başa vurmalıdır.

Valideyn qarşısında, müəllim qarşısında, övlad, dost, Vətən qarşısında borc…görün insanın qarşısında nə qədər borc yığılıb qalır. Bu gedişlə  gərək insan bu borcları yerinə yetirməklə ömrünü başa vursun. Səmimi deyirəm, bunlar

hamısı absurddur. Bir daha deyirəm ki, insan Allahın iznilə dünyaya gəldiyinə görə, ancaq Allaha borcludur.

Vətən qarşısında, eləcə də valideyn və müəllim qarşısında yaranmış borc - kommunist təfəkküründən, sovet rejiminin təbliğatından başqa bir şey deyl. Sadəcə olaraq şərəflə, namusla, vicdanla yaşamaq, nəfsinin ağası olmaq kifayətdir ki, yuxarıda sadaladığım borclar da yerinə yetirilsin, necə deyərlər, yaz qarı kimi əriyib yox olsun və bununla da bütün borclar yerinə yetirilsin.

**- Sizə kömək üçün müraciət edənlər də az deyil. Bir şair kimi, ziyalı kimi kiminsə xahişini yerinə yetirəndə, dərdinə əlac edəndə sevindiyinizin şahidi olmuşam.**

**Bacardığınız köməyi heç kimdən əsirgəmədiyiniz barədə qələm dostlarımdan da eşitmişəm.**

- Kiməsə yaxşılıq edəndə, yıxılanın qolundan tutanda… ürəyim rahatlıq tapır. İmkanım daxilində hər kəsin xahişini yerinə yetirməyə çalışıram. Çalışıram ki, heç kimi naümid yola salmayım, heç kimin ümidini qırmayım, könlünə toxunmayım.

Mən şairəm. Vəzifə kreslosunda yox, şair kreslosunda əyləşmişəm. Sözümü eşidən, yaradıcılığıma dəyər verən dostlarım az deyil. Məhz həmin dostlarım vasitəsilə mənə kömək üçün müraciət edənlərə himayədar olmağa çalışıram.

Mən yaxşılıq edəndə yaxşılıq etdiyim adamdan daha çox sevinirəm. Sevinirəm ki, kiməsə kömək eləyə bildim. Axı insanın dəyəri etdiyi yaxşılıqlarla ölçülür. Və bir də yaxşılığı edə bildiyi halda onu etməyən insan günah etmiş olur. Mən günah etmək istəmirəm. İstəyirəm ki, ömür kitabımın səhifələrinə savab işlər yazılsın.

**- Milli ruh qeyrət gücümüzdü, əmanət yükümüzdü, keçmişdən gələn varlıq harayımızdı.**

**Milli ruh haqqında sizin də fikirlərinizi bilmək maraqlı olardı.**

- Milli ruh millətin dəyərlər məcmuəsidir, şanlı keçmişindn gələn bu günümüzdü, sabahımızdı.

Milli ruh millətin qəlbinə və vicdanına xas olan duyğudur. Bu duyğudan məhrum olmaq cansız olmaq- yəni «ölü» olmaq deməkdir. Milli ruhu olmayan millətin gələcəyi də olmaz, şərəfi də, qeyrəti də.

Milli ruhu anlayanlar yaşadıqları hər işi millətin mənəvi havasına uyğun edər, soy-kökündən, tarixi şüurundan və mənəvi dəyərlərdən uzaq düşməməyə çalışarlar.

Milli ruhu fəda etmək, öldürmək milləti manqurtlaşdırır, köləliyə, əsarətə aparıb çıxarır. Məhz ona görə də qloballaşan dünyada, modern tərəqqi yollarında həmişə və hər zaman milli ruhun qeyrəti çəkilməli, təlim-tərbiyədə, beşikdən-qəbrə bu milli ruh qorunub saxlanılmalıdır.

Milli ruh - bir millətin vicdan səsidir. Bu səsi boğmaq-milləti «boğmaq» deməkdir. Milli ruh millətin tarixindən və inamından axıb gələn sel kimidir. Bu «selin» qabağını kəsmək - millətin başını kəsməyə bərabərdir.

…Uşaqlar, gənclər milli ruhda tərbiyə alaraq milli birliyimizi zədələyən hər davranışdan kənar olmalı, ayrı-seçkiliyi, təfriqələri millətə xəyanət kimi görməlidir.

Qloballaşan dünyada güclü, sözü eşidilən, təcrübəli, hesablaşılan bir ölkə olmağımız üçün milli ruhun toxumlarını hər bir vətəndaş könül tarlasına əkməlidir.

Bir sözlə, övladının beşiyini yelləyən ana, milli ruh zümzüməsini tərənnüm etməli, gənclərimiz tarixin ruhuna

öz qəhrəmanlıqları ilə «Azərbaycan» yazmalı, insanlarımız bir-birinə güvənərək birlik ruhuyla gələcəyin dünyasını qurmalıdırlar.

Əsrlər boyu əcdadlarımızın qoruduğu milli və mənəvi dəyərlərin canlı qalması hər

**- Zaur müəllim, ötən əsrin 90-cı illəri xalqımızın müxtəlif faciələrlə, bəlalarla üzləşdiyi, torpaqlarımızın işğal edildiyi, Qarabağın qara günlərinin başladığı dövrə təsadüf edir.**

**Biz bir millət olaraq 20 Yanvar faciəsini, Xocalı soyqırımını yaşadıq. Deyərdim ki, o illər hər birimizin həyatından qara bir zolaq kimi gəlib keçir. bu «qara zolaq» sizin yaradıcılığınızda necə əks olunub?**

- 90-cı illərin ağrıları ürəyimdə hələ də göynəyir. Bu ağrı-acılara sözlə məlhəm qoymağa çalışmışam.

Çox sınaqlardan keçdik, həyatın ən ağır zərbələrinə sinə gərməli olduq. O vaxtlar içimiz gülmürdü. Dərd, kədər tüğyan eləyirdi. 20 Yanvar qırğınına axıtdığımız göz yaşları qurumamış, Xocalı faciəsi baş verdi. Sonra Ağdam və başqa rayonlarımız işğal edildi. Daha sonra Qarabağ bölgəsindən hər gün saysız-hesabsız tabutlar daşınmağa başladı.

Respublikaya səriştəsiz insanların rəhbərlik etməsi səbəbindən daxildən müxtəlif qrupların çəkişməsi, bir sözlə, Azərbaycanın parçalanıb məhv olunması təhlükəsilə üz-üzə qaldığımız bir vaxtda, xaotik bir situasiyada necə yaza bilərdim? Necə güldən, bülbüldən dəm vurmaq olardı? Bir müdət keçdi. Həmin o illərin ağrı-acıları, faciələri, özbaşınalıqları, soydaşlarımızın acı taleyi, işğal olunmuş

yurd yerləri… mənim də yaradıcılığımda öz əksini tapmağa başladı.

Bir sözlə, demək istəyirəm ki, ötən əsrin 90-cı illərinin hadisələri mənim də qələmimdən yan keçməyib. O ağrılı-acılı illərdə Vətən həsrəti, Qarabağ dərdi, Ağdam harayı… məni də için-için yandırıb və mən bu yanğını qələmimlə söndürməyə çalışmışam.

**- 1993-cü ildə sizin də el-obanız işğala məruz qaldı. Qədim türk eli - Ağdam da ermənilərə «əsir düşdü». Bir milyona yaxın soydaşlarımız kimi sizin də doğmalarınız, əzizləriniz qaçqınlıq həyatı yaşamağa başladı. Şair kimi bunu yaradıcılığınızda necə büruzə vermisiniz?**

- Ağdam da, digər şəhər və kəndlərimiz də haqsızlığın qurbanı oldu. Rayonlarımız xarabazarlığa çevrildi, torpaqlarımıza taxıl əvəzinə mina «əkildi». İndi o minaları təmizləməklə məşğuluq.

Ağdamın, eləcə də digər şəhər və kəndlərimizin işğalı mənim də ürəyimi göynətdi, dünyamı alt-üst elədi, sinəmə çalın-çarpaz dağlar çəkdi. Amma mən də bir şair olaraq qələmimlə, həm də bir döyüşçü kimi silahımla haqsızlığa qarşı, işğala qarşı mübarizə apardım, qələmimlə milli şüurun dirçəlməsinə, gənclərin vətənpərvərlik ruhunda böyüməsinə xidmət elədim. Yazdığım şeir və məqalələrdə, publisistik yazılarda Qarabağın işğaldan azad edilməsi üçün yaxşı mənada köməklik etməyə çalışdım. Doğma yurdu bir an da unutmadım, yazdığım əsərlərlə soydaşlarımı da yurd yerlərini unutmağa qoymadım.

Bir vaxtlar Səməd Vurğun hayqıraraq deyirdi ki: «Bilsin ana torpaq, eşitsin Vətən, müsəlləh əsgərəm mən də bu

gündən!». Biz də qələmimizi silaha çevirdik, sözün əsl mənasında müsəlləh əsgər olduq. Qarabağ probleminin həllində şair və yazıçıların yazdığı əsərlər də rol oynadı desəm, yanılmaram.

**- 50 yaşa gəlib çatdınız. Qocalıqdan qorxursunuzmu? Və bir də 50-dən sonrakı illəri necə yaşamaq istəyirsiniz?**

- Qocalıqdan niyə qorxmalıyam ki? Gözəl ailəm, xoşbəxt balalarım var. Onların əhatəsində olmaq Tanrının verdiyi ən gözəl qismət deyilmi? Bu qismətə görə Allahıma duaçıyam.

Təki ürək qocalmasın. Ürəyim cavandır, yenə də gənclik həvəsilə yazıb-yaradıram. Ona görə də 50-dən sonrakı illəri də yaşadığım illər kimi şərəflə, ləyaqətlə yaşamaq istəyirəm. Həyat məni hərdən məngənə kimi sıxsa da, yaşadığım illərə görə təəssüflənmirəm. Gələcəyə nikbin baxıram və heç nədən də ehtiyat eləmirəm. Yenə də Allahın verdiyi ömrü Allahın istədiyi kimi yaşamaq istəyirəm. İtstəyirəm ki, biləsiniz; həyat qızılgüllər içərisində qoyulmuş çarpayıda keçən ömür deyil. Ömrün ağrılı-acılı günləri də var. Ağır çəkiclərin altında, ancaq möhkəm dəmirlər tab gətirə bilər. Mən həmin o dəmirəm. Dözürəm və qələmi ürəyimə batırıb yazıram. Elə məni yaşadan da yazdıqlarımdı. Yazdıqlarım məni həm də tənhalıqdan qurtarır.

**- Üzü altmışa doğru getdiyiniz bu yolda möcüzə baş versəydi, siz gənclik illərinin bircə gününü yaşamaq şansı əldə etsəydiniz, hansı dostlarla əl verib görüşmək, könül söhbəti etmək istərdiniz?**

- Əgər belə bir imkan olsaydı, birinci Mahmud babamızın nişanəsi, böyük oğlu ata babam Müseyib babamla görüşüb

ona bir neçə sual vermək istəyərdim. Sonra dostlardan Həmidov Şükürlə, Mirzəyev İlqarla, Ağayev Həmdəmlə görüşüb, məni həmişə düşündürən hadisənin necə baş verdiyini onların öz dilindən eşitmək istərdim. Bu suallar yəqin ki, onlarla haqq dünyasında görüşüb dəqiqləşdirənə qədər məni narahat edəcək…

**- Özünüzü kimin qarşısında günahkar və gözükölgəli bilirsiniz və kiminsə günahını bağışlamısınızmı?**

- Heç kimin qarşısında gözükölgəli deyiləm, hətta şeirlərimin qarşısında da özümü gözükölgəli hesab eləmirəm. Təvazökarlıqdan uzaq olsa da, deməliyəm ki, yazdığım hər misrada təsadüfi bir sözə rast gəlmək bəlkə də mümkün deyil.

Özümü günahkar bilməyim üçün də bir səbəb görmürəm. Ancaq onu deyə bilərəm ki,dünyada günahsız insan yoxdur. Mən də Tanrı deyiləm ki, günahsız olam. Günahkar olmaq insana məxsusdur. Mənə elə gəlir ki, «günahımı» yazdığım şeirlərlə «yuyuram». Bunu deməyə ona görə cəsarət edirəm ki, Allahın özü də şeirlərdə «dincəlir». Tanrı şairlərdə öz zərrəsini tapır və tapdığına görə sevinir. Və bir də günahkar olsaydım, Tanrı mənə yazmış olduğum şeirləri pıçıldayardımı? Tanrı mənə yazdığım şeirləri ona görə pıçıldayıb ki, mən onun sevmədiyi bəndələrdən yazmamışam, ürəyimdən gəlməyən bir misranı da qələmə almamışam, sözü bişirməmiş ürəyimdən çıxarmamışam… Tanrının mənə verdiyi istedaddan heç vaxt su-istifadə etməmişəm, etmərəm də…

Düşünürəm ki, vətənə xəyanətdən başqa bütün günahları bağışlamaq mümkündür. Mən çoxlarının günahını bağışla-

mışam, çünki ürəyimdə nifrət toxumu yox, sevgi toxumu əkilib və bu toxum cücərib böyüməkdə davam edir.

Günahı bağışlamaq insan ürəyinin təmizliyindən, böyüklüyündən xəbər verir. Bağışlamaq üçün insanda Sezar ürəyinin böyüklüyü gərəkdir. Sezar ruhunun böyüklüyünü açıqlamaq üçün qədim yunan şairi Katulu xatırlamaq kifayətdir. Belə ki, şair Katul Sezar haqqında öldürücü satiralar yazırmış, amma buna baxmayaraq Katulun dəyərini bilən, onun sözlərinin ölümsüzlüyünü hiss edən Sezar, nəinki Katulla yaxşı davranmış, hətta onu dəfələrlə saraya kef məclislərinə dəvət etmiş, onunla həvəslə söhbət etmiş, yazdıqlarına eyham belə vurmamışdı.

Bir sözlə, tək qalmaq istəməyən adam bağışlamağı da bacarmalıdır. Unutmayın ki, insan daha çox bağışladıqca daha güclü olur.

**- Zaur müəllim, söhbətimiz yavaş-yavaş gəlib sona çatdı. Biz söhbətə başlayanda günəş göyün tən ortasında dayanmışdı. İndi isə batmağa doğru gedir. Ola bilər ki, nəyisə unutdum, sizi narahat edən hansısa sualı vermədim…**

- Günəş bir azdan «yoxa çıxacaq», uşaqlar demişkən «yatmağa» gedəcək. Az sonra qaranlıq düşəcək, amma hər gecənin bir gündüzü də var.

Günəş yenə doğacaq, hər yana işıq paylayacaq.

On ildən sonra - 60 illik yubileyimdə yenə də gün günorta olanda yaddan çıxan, unudulan və məni narahat edən suallara cavab verərəm.

**- Və ən nəhayət, bu anda könlünüzdən keçən hansı şeirinizlə söhbətimizi yekunlaşdırardınız?**

- İstəyirəm ki, yeddi bəndlik «Ustacam» şeirindən üç bəndlə söhbətimizi yekunlaşdıraq:

*Müzəffər ordunun şanlı əsgəri,*
*Ərənlər yurdunun ər övladıyam!*
*Zalımın zülmünə təhəmmülüm yox,*
*Babəklər yurdunun hürr övladıyam!*

*Ustadım Nəsimi, sözümüz sözdü,*
*Ədalət, həqiqət bağrımda közdü.*
*Ziyadar dühası bir deyil, yüzdü,*
*Mövlalar yurdunun nur övladıyam!*

*…Göydən yer üzünə ərmağan, payam,*
*Gündüzlər Günəşəm, gecələr Ayam.*
*Ən parlaq ulduzdan törəyən boyam,*
*Ozanlar yurdunun sirr övladıyam!*

*Son söz əvəzi*

# BU, ZAUR USTACIN NƏFƏSİDİR

Oxucum!

Tanınmış şair Zaur Ustacın zəngin və çoxcəhətli yaradıcılığı əsasında bu monoqrafiyanı yazıb başa çatdırdım. Müasir Azərbaycan poeziyasının istedadlı qələm adamlarından biri olan şairin bir-birindən mənalı və oxunaqlı şeirlərinə nəzər saldım, şair sözünün işığında nəyi bacardımsa, onu da qələmə almağa çalışdım. Onu da qəlbən etiraf edirəm ki, Zaurun poetik dünyasını tam əhatə eləyə bilmədim, buna gücüm çatmadı. Ancaq bununla belə şairin söz sarayına səfər elədim və bu səfərimin o qədər də uğursuz alınmadığı qənaətindəyəm.

Ustacın söz sarayına səfərimin «nəticələrilə» «Zaur Ustacın poetik dünyası» monoqrafiyasında tanış olmaq imkanı əldə etdiniz. Mən bir qələm adamı olaraq Sizi şairin poetik dünyası ilə az-çox tanış etdiyimə görə şərəf və qürur duyuram. Həm də qürurlanıram ki, Zaur Ustacın zəngin yaradıcılığı ilə ilk dəfə olaraq geniş və əhatəli şəkildə söz açmalı oldum, necə deyərlər, bu yolda ilk addımı atmaqla ədəbiyyatşünasların, tənqidçilərin, tədqiqatçıların…diqqətini onun poetik dünyasına cəlb etmək istəyinə bulundum. İstəyimə çata bildimmi? Bilmirəm. Bunu siz biləcəksiniz! İnanır və ümid edirəm ki, əsərləri ilə Azərbaycan ədəbiyyatı xəzinəsini daha da zənginləşdirən, ədəbiyyatın ədəbi dünyasında öz yeri, öz çəkisi və öz imzası olan şairin poetik dünyasından hələ çox yazılacaq, hekayələri, publisistik məqalələri, bir sözlə, bütün əsərləri daha geniş və müfəssəl təhlil ediləcək, onun bədii yaradıcılığından daha geniş və ətraflı söhbət açacaqlar…

Ustacın hər misrası, hər sözü sanki dirilik suyudur; gözə

işıq, ürəyə güc verir, könüllərə ilahi bir nur paylayır və bu nurun işığında özümüzə qayıdırıq, işıqlı gələcəyə doğru inamla addımlayırıq. Şairin hər şeirləri onun könül dünyası ilə bizi daha yaxından tanış edir və bu tanışlıqdan məmnun olmaya bilmirsən. Onun şeirlərini oxuduqca sirli-sehrli bir aləmə düşürdüm, bu şeirlərin maqnit gücündən xilas ola bilmirdim, bu şeirlər könül dünyamı işıq selinə bürüyürdü, mənən saflaşırdım, bulaq suyu kimi durulurdum, ürəyimdə ən təmiz, ən gözəl duyğular baş qaldırırdı… Şairin şeirləri hər bir oxucu üçün, eləcə də xalqımız üçün, ədəbiyyatımız üçün dəyərli bir hədiyyədir. Bu «hədiyyəni» yüz ildən sonra da açıb oxuyanlar şairin hər şeirinin diri olduğunu, nəfəs aldığını, heç zaman ölməz olduğunu görəcəklər, çünki Zaur bütün zamanların şairidir. O, elə bir şairdir ki, şeirləri hər zaman yaşayacaqdır. Şeirləri hər zaman yaşayan şairin özü də ölməzdir, necə deyərlər, o da öz şeirlərində yaşayacaq. Bu, şairin xoşbəxtliyidir. Bu, Zaur Ustacın xoşbəxtliyidir.

Fəxrlə deyə bilərəm ki, Zaurun oxuculara ünvanladığı hər şeiri, hər kitabı bir dünyadı və mən bu dünyanın pəncərəsindən içəri boylandım, ağappaq işığa bürünmüş kövrək bir ürəyin döyüntülərini eşitdim, kövrək bir ürəkdən süzülən şeirlərin əhatə dairəsinə düşdüm, sehrləndim. Bu sehrdən uzun müddət çıxa bilmədim. Bir də onu hiss elədim ki, Zaurun şeirlərinin işığında haqq yolu ilə addımlayıram, necə deyərlər, haqq yolunun yolçularına qoşulmuşam. Bu, səbəbsiz deyil. Axı onun şeirlərində həm də haqqa çağırış var və mən bu çağırışı şairin hər şeirində eşitdim. Onun hər şerində həm də sevgi var, Vətən eşqi, Vətən məhəbbəti var, gözəllik var, dostluq, qardaşlıq var, şairin hər şeirində ən təmiz, ən saf, ən müqəddəs duyğular var və bu duyğular ən ilahi duyğulardır.

Bəli Zaur Ustac olduqca duyğulu, həssas və kövrək şairdi.

Duyğuları bulaq kimi qaynayır. Ürəyinin dərd yükünü, qəm yükünü, kədər yükünü şeirlərində «əritməyə» çalışır və buna nail ola bilir.

Onun bu dünyada öz dünyası var. Şairin dünyası ağappaq işığa bürünüb, onun dünyası ən müqəddəs, ən saf, ən təmiz duyğulardan yaranıb. Onun mənəvi dünyasına ziyarət etmək olar. Mən onun poetik dünyasına könül ziyarəti eləyəndə həm də dərdin, kədərin Zaur Ustac zirvəsini gördüm, bir şair ürəyinin ağrısını duydum, bir sözlə, sevinclə kədərin, olumla ölümün birgə yaşadığını, birgə addımladığını hiss elədim. Onu da hiss elədim ki, Zaur təkcə öz duyğularını deyil, bəşəri duyğuları da şeirlərinə köçürüb və oxucuları heyrətləndirməyi bacarıb. Onun şeirlərində həm də şair ürəyinin Vətən yanğısını, Qarabağ ağrısını, Ağdam həsrətini, Təbriz həsrətini gördüm, Xocalı harayını eşitdim və kövrək şair ürəyinin şam kimi yandığını, qar kimi əridiyini gördüm. Həm də hiss elədim ki, Zaurdan bu dünyada söz qalacaqvə o, öz sözlərində yaşayacaq. Bəli, ruhunu poeziyaya kökləmiş şairin sözü həmişə yaşayacaq.

Onu da demək istəyirəm ki, Zaurun şeirlərində sənətkarlıq yetərincədir, poetikası özünəməxsus çalarlıdır, təfəkkür səviyyəsi, həyata intellektual baxışının miqyası, müşahidə səriştəsi, bədii pafosu, dil təfəkkürü…diqqətdən yayınmır. O, şeirlərində bədii-estetik meyarı itirmir, oxucunun zövqü ilə oynamır, aşkar məntiqsizliyə imkan yaratmır, ilahidən ona ötürülən «pıçıltıları» qələmə alır. İnsan və zaman, arzu və gerçəklik, şəxsiyyət və cəmiyyət kimi problemlər onun poeziyasının əsas leytmotivinə çevrilib.

Oxucum!

Ürəyimin diqtəsilə qələmə aldığım «Zaur Ustacın poetik dünyası» monoqrafiyası - istedadlı bir şairin yaradıcılığından bəhs edən bu kitab çox istərdim ki, ürəklərdə öz layiqli yerini

tuta bilsin, diqqətdən kənarda qalmasın.

Son söz yerinə onu da demək istəyirəm ki, Zaur Ustacın ömrünün müəyyən çağlarında həyatının sevinc və kədərinin, hiss və həyəcanlarının obrazlı forması kimi yaranan, dünya işığına çıxan şeirləri bu günün, müasir dövrümüzün, həm də gələcəyin poeziyasıdır. Onun əsərləri heç vaxt oxucuların, ədəbiyyatşünasların diqqətindən kənarda qalmayacaqdır.

Şairin şeirlərini  az-çox təhlil elədim, fikrimi bildirdim, onun poeziyasında, poeziyasının təhlilində modernistliyə meyilli oldum, hardasa ənənəni gözləmədim, yaxşı mənada tənqidi pafosa və müqayisələrə üstünlük vermədim. Əgər şairin poetik dünyasına könül ziyarəti etməsəydim, şeirlərinə ürək qızdırmasaydım, bu monoqrafiyanı necə yaza bilərdim? Yaza bilərdimmi?

Və ən nəhayət, istedadlı bir şairin yaradıcılığı haqqında mən öz sözümü dedim. Deyə bildimmi? Bu suala ən yaxşı cavabı ədəbiyyatşünaslar, tənqidçilər, tədqiqatçılar və bir də oxucular deyə bilərlər… Onların nə deyəcəklərini gözləmək arzusu ilə:

**Vaqif İsaqoğlu**
*yazıçı, şair, publisist,*
*Prezident təqaüdçüsü*

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:

1. Zaur Ustac. Seçilmiş əsərləri. I cild. Bakı - «USTAC. AZ» nəşrləri - 2022.

2. Zaur Ustac. Seçilmiş əsərləri. II cild. Bakı - «USTAC, AZ». Nəşrləri - 2022.

3. Zaur Ustac. Seçilmiş əsərləri. III cild. Bakı - «USTAC, AZ». Nəşrləri - 2022.

4. Zaur Ustac. «Sevgi dolu şeirlər». Bakı, 2024.

5. Bualo «Poeziya və sənət». Bakı, 1969.

6. V.Belinski. Seçilmiş məqalələr. Bakı, 1971.

7. Aydın Məmmədov. «Sözümüz eşidilənədək». Bakı, 1988.

8. «Ədəbiyyat» qəzeti, 17 oktyabr 2020-ci il.

9. «Kredo» qəzeti. 19 dekabr 2024-cü il.

10. «Xəzan» jurnalı, dekabr, 2024-cü il. №9 (63).

11. «Kredo» qəzeti, 10 dekabr 2024-cü il.

12. «Həftə içi» qəzeti, 19-25 dekabr 2024-cü il.

13. «Bütöv Azərbaycan» qəzeti, 10 yanvar 2025-ci il.

# Mündəricat

SÖZÜN ZAUR USTAC ZİRVƏSİ ............................................4
ŞEİR - ÜRƏYİN SƏSİDİR..........................................................10
ZAUR USTACIN VƏTƏN EŞQİ, TƏBİƏT SEVGİSİ… .........17
KÖVRƏK QƏLBİN DUYĞULARI VƏ YAXUD EŞQ
İMANDAN GƏLƏR ...................................................................67
ÜRƏYİ ŞEİRLƏRİNDƏ ÇIRPINAN ŞAİR ..............................96
SÖZLƏ NƏFƏS ALAN ŞAİR ..................................................102
SONET DÜNYASI.....................................................................109
«ƏLİŞ VƏ ANNA» POEMASI HAQQINDA
DÜŞÜNCƏLƏR… ....................................................................122
DÖRDLÜKLƏR… ....................................................................130
HƏR UŞAQ BİR DÜNYADI ..................................................138
50 SUAL, 50 CAVAB ................................................................152
BU, ZAUR USTACIN NƏFƏSİDİR .........................................182
İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:....................................186

**Vaqif İSAQOĞLU**

# «ZAUR USTACIN POETİK DÜNYASI»

*(monoqrafiya)*

İMZA
NƏŞRLƏR EVİ

| | |
|---|---|
| **Direktor:** | **Səbuhi Aslan** |
| **Dizayner:** | **Sabina Hüseynzade** |
| **Texniki redaktor:** | **Hüseyn Məmmədov** |

Çapa imzalanmışdır: 06.02.2025
Ofset çapı. Əla növ kağız
Tiraj: 100
Ünvan: Bakı, Mətbuat prospekti 529-cu məhəllə
Telefon: (012) 538-18-87, (050) 263-16-16
email: imza_nesrler_evi@mail.ru